# KİTABXANAŞÜNASLIQ

# VƏ

# BİBLİOQRAFİYA

№1 * 2006

**BAKI –2006**

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ
KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri, metodik və təcrübi jurnal

№1 (18) * 2006

*1997-Cİ İLİN OKTYABRINDAN ÇIXIR*

BAKI –2006

***KBT- 78***
***K 73***

**Təsisçi və baş redaktor:**
**professor Xəlil İSMAYILOV**

**Elmi redaktor:**
**dosent Knyaz ASLAN**

**Buraxılışına məsul:**
**müəllim Solmaz SADIQOVA**

**REDAKSİYA HEYƏTİ:**

**Professor Abuzər XƏLƏFOV**
**Professor Zöhrab ƏLİYEV**
**Professor Bayram ALLAHVERDİYEV**
**Dosent Rasim KAZIMOV**
**Dosent Əşrəf XƏLƏFOV**
**Dosent Nadir İSMAYILOV**

**K 73** *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal .-B.: Bakı Universiteti Nəşriyyatı, 2006.-№1.-152 s.-*

***Redaksiyanın ünvanı:***
*AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23,*
*2№-li tədris korpusu, IV mərtəbə, Kitabxanaçılıq-informasiya fakültəsi,*
*«Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının redaksiyası*
*Tel: 439-05-47; 439-03-66*

**© «Kitabxanaşünaslıq və biblioqrafiya», 2006**

## BU NÖMRƏDƏ

### KİTABXANAŞÜNASLIQ

**Abuzər Xələfov, Mehmanəli Məmmədov.** Azərbaycan gəncliyi dövlət proqramının həyata keçirilməsində respublika gənclər kitabxanasının rolu

**Xəlil İsmayılov.** Kitabxana statistikasının bəzi məsələləri.

**Əli Rüstəmov, Nuriyə Mustafayeva.** Elektron kitabxana problemi (3-cü məqalə) Elektron kitabxanaların komplektləşdirilməsinin bəzi məsələləri

**Xəlil İsmayılov.** Kitabxana işçilərinin fasiləsiz təhsilə cəlb edilməsinin bəzi məsələləri

**Knyaz Aslan.** Oxucuların estetik tərbiyəsində kitab və mütaliənin rolu

**Vəfa Məmmədova.** Universal onluq təsnifat (UOT) və kitabxana-biblioqrafiya təsnifatlarının (KBT) köməkçi cədvəllərinin qısa müqayisəli təhlili

### BİBLİOQRAFİYAŞÜNASLIQ

**Zöhrab Əliyev.** Azərbaycan cəmiyyətinin informasiya tələbatçıları və onların biblioqrafik informasiya təminatının əsas amilləri

**Solmaz Sadıqova.** Gənclərin milli ruhda tərbiyə olunmasında «Heydər Əliyev: biblioqrafik məlumat kitabının əhəmiyyəti

**Qəmzə Hacıyeva.** Nazim Axundovun biblioqrafık fəaliyyəti.

**Sima İsmayılova.** Ədəbiyyatşünaslıq biblioqrafiyasının meydana gəlməsində sənəd-informasiya axını və kütləsi əsas amildir

**Nigar Məmmədova.**Sahibkarlıq fəaliyyətinin biblioqrafik informasiya təminatı: problemlər, vəzifələr

**Validə Alıyeva.** Kitabxanaçılıq-informasiya fakültəsinin elmlər doktorları və professorları: (biblioqrafik tədqiqat)

**KİTABŞÜNASLIQ**

**Ramiz Həmidov.** Kitab cildinin inkişaf mərhələləri

**Şəhla Quliyeva**. Poliqrafiya işində istifadə olunan bəzi cild materialları

**İnci Qasımova.** Azərbaycanda kitab nəşri və tiraj problemi

**Fuad İsgəndərov.** Orta ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənni üzrə ayrı-ayrı siniflər üçün iş dəftəri

**Zülfiyyə Əsgərova.** Milli kitabxananın nəşriyyat-poliqrafiya fəaliyyətinin maddi-texniki bazası və texnoloji proseslərində mövcud olan problemlər

**Abuzər XƏLƏFOV**
*Əməkdar elm xadimi,*
*tarix elmləri doktoru, professor*

**Mehmanəli MƏMMƏDOV**
*Pedaqoji elmlər namizədi, dosent*

# AZƏRBAYCAN GƏNCLİYİ DÖVLƏT PROQRAMININ HƏYATA KEÇİRİLMƏSİNDƏ RESPUBLİKA GƏNCLƏR KİTABXANASININ ROLU

Son illərdə ölkəmizdə gedən demokratik dəyişikliklər və görülən tədbirlər gənclərin hərtərəfli inkşafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şərait yaradılmasını sürətləndirmiş, onların ictimai-siyasi fəallığının artmasına müsbət təsir göstərmişdir. Hələ 1999-cu ildə ölkə prezidenti, ümummilli liderimiz Heydər Əliyev tərəfindən imzalanmış «Dövlət gənclər siyasəti haqqında»[1] fərmanı dövlət gənclər siyasətinin həyata keçirilməsinə, uşaq və gənclərlə işləyən kadrların hazırlanmasına, gənclərin həyatında baş verən proseslərin elmi şəkildə öyrənilməsinə, ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsində əlaqəli və məqsədyönlü fəaliyyət göstərməsinə, uşaq, yeniyetmə və gənclərin üzləşdikləri problemlərin həlli istqamətində əməli tədbirlərin görülməsinə şərait yaratmışdır.

Həmin fərmanla müəyyənləşdirilmiş vəzifələrin icrasını təmin etmək məqsədi ilə 1999-2004-cü illər ərzində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilmiş, o cümlədən normativ hüquqi aktlar qəbul edilmiş, Azərbaycan Respublikası Gənclər, İdman və Turizm (indiki Gənclər və İdman) Nazirliyinin nəzdində Gənc-

lərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi və Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzi yaradılmışdır.

Uşaq və gənclərin hərtərəfli inkşafını təmin etmək, onların problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək, həyata keçirilən gənclər siyasətini tənzimləmək məqsədi ilə 2002-ci ildə «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Qanunda gənclər siyasətinin əsas prinsipləri öz əksini tapmış, gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, onların yaradıcılıq potensialının ölkənin inkişafına və ümummilli problemlərin həllinə səfərbər olunması, hüquq və azadlıqların hər hansı şəkildə məhdudlaşdırılmasının yolverilməzliyi əsas istiqamətlər kimi müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasında dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, gəncləri dövlət idarəçiliyində aparıcı yerlərdən birini tutan qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədi ilə ölkə prezidenti cənab İlham Əliyev 30 avqust 2005-ci ildə «Azərbaycan Gəncliyi Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdır.[2] 2005-2009-cu illər üçün nəzərdə tutulmuş Azərbaycan Gəncliyi Dövlət Proqramının məqsədi gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək üçün sosial-iqtisadi və təşkilati-hüquqi şərait yaratmaqdır.

Dövlət Proqramının məqsədinə uyğun olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- gənc nəslin vətənə məhəbbəti, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə olunması;
- gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi, onların hərbi xidmətə hazırlanması;



- gənclər arasında hüquq pozuntularının, narkomaniyanın və digər zərərli vərdişlərin profilaktikası sahəsində tədbirlərin həyata keçirilməsi;
- istedadlı gənclərin aşkar edilməsi, onların öz qabiliyyətlərini inkişaf etdirə bilmələri üçün şəraitin yaradılması;
- gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, bazar iqtisadiyyatının əsaslarına dair biliklərə yiyələnməsi, peşə hazırlığının yüksəldilməsi və məşğulluğunun təmin edilməsi məqsədi ilə tədbirlərin həyata keçirilməsi;
- sosial müdafiəyə ehtiyacı olan gənclərin, o cümlədən gənc ailələrin problemlərinin həllinə kömək lik göstərilməsi;
- gənclərin sağlamlığının qorunması sahəsində tədbirlərin həyata keçirilməsi, kütləvi bədən tərbiyəsinin və idmanın inkişaf etdirilməsi;
- ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı, uşaq və gənclər üzrə təşkilatın formalaşması və inkişafı üçün şəraitin yaradılması;
- gənclərin beynəlxalq əməkdaşlığı sahəsində layihələrin həyata keçirilməsinə, gənclər təşkilatlarının beynəlxalq əlaqələrinin qurulmasına, onların nümayəndələrinin beynəlxalq tədbirlərdə iştirakına köməklik göstərilməsi.

Azərbaycan Gəncliyi Dövlət Proqramı 7 bölmədən ibarət olub aşağıdakı məsələləri əks etdirir:

1.Gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi;
2.Gənclər arasında hüquq pozuntuları, narkomanlıq, QİÇS və digər neqativ halların profilaktikası;
3.İstedadlı və yaradıcı gənclərə dövlət qayğısı;
4.Gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və məşğulluğun təmin edilməsi;
5.Gənc ailələrə dövlət yardımı;
6.Ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı üçün şəraitin yaradılması. Uşaq və gənclər təşkilatına dövlət yardımı;
7.Gənclərin beynəlxalq əməkdaşlığının və turizmin inkişafı.

Proqramın hər bir bölməsi bir neçə yarımbölməyə bölünərək 2005-2009-cu illərdə həyata keçiriləcək tədbirlər planını özündə əks etdirir. Ayrı-ayrı yarımbölmələrdə Azərbaycan Gəncliyi Dövlət Proqramı üzrə həyata keçiriləcək tədbirlərin adı, məqsədi, icraçıları və icra müddəti dəqiqliklə göstərilmişdir.

Dövlət proqramında həyata keçirilməsi nəzərdə tutulan əsas tədbirlərdən biri Azərbaycan gənclərinin IV forumunun keçirilməsi olmuşdur.[3] 14 oktyabr 2005-ci ildə keçirilən bu möhtəşəm tədbirin əsas məqsədi forumlararası işlər haqqında hesabatların ictimaiyyətə çatdırılması, dövlət gənclər siyasəti sahəsində yeni vəzifələrin müəyyən edilməsi və digər məsələlər təşkil etmişdir.

Qeyd edilməlidir ki, Azərbaycan Gənclərinin III forumundan ötən dövr Azərbaycanın əsaslı iqtisadi inkişafı və siyasi yüksəliş mərhələsi olmuşdur. Bu müddət ərzində respublikamızın Prezidenti İlham Əliyev tərəfindən daxili ictimai-siyasi sabitliyin qorunması, ölkənin iqtisadi qüdrətinin artırılması və xalqın həyat səviyyəsinin yüksəldilməsi, beynəlxalq aləmdə Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilmiş, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına xidmət edən fərmanlar, sərəncamlar imzalanmış, dövlət proqramları təsdiq olunmuşdur.

Azərbaycan Gəncliyi Dövlət Proqramının tərkib hissəsi olan Azərbaycan Gənclərinin IV forumunda çıxış edən ölkə Prezidenti forumlararası müddət ərzində görülən işlərlə yanaşı mövcud problemləri, o cümlədən məşğulluq problemi, məişət problemləri, ev və digər problemlər haqqında məlumat vermiş və onların aradan qaldırılması yollarını göstərmişdir.

Azərbaycan Gəncliyi Dövlət Proqramında bilavasitə Mədəniyyət Nazirliyi tərəfindən icrası nəzərdə tutulan bir sıra məsələlər öz əksini tapıb. Bura daxildir: gənclərin vətənpərvərlik tərbiyəsinin aktual məsələləri üzrə elmi-praktik konfransların, müşavirələrin, dəyirmi masaların, mədəni-kütləvi tədbirlərin keçirilməsi; yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsinə xidmət edən bədii-tərtibat işlərinin aparılması; yeniyetmə və gənclərin



hərbi xidmətə həvəsləndirilməsi məqsədi ilə mədəni-kütləvi tədbirlərin keçirilməsi; gənclərə sağlam həyat tərzi aşılayan bədii tərtibat materiallarının, əyani vəsaitlərin hazırlanması və s. tədbirlərin keçirilməsi.

Dövlət proqramında qarşıya qoyulan bütün bu və digər məsələlərin yerinə yetirilməsində Mədəniyyət Nazirliyinin mühüm tərkib hissəsi olan kitabxanalar mühüm rol oynamalıdırlar. Mədəniyyət Nazirliyinin tərkibində fəaliyyət göstərən bütün kitabxanalar özlərinin fəaliyyət planlarında Azərbaycan Gəncliyi Dövlət Proqramının ayrı-ayrı müddəalarını əsas götürməli və onların yerinə yetirilməsinə səy göstərməlidirlər. Bu cəhətdən Azərbaycan Mədəniyyət Nazirliyinin tərkibində müstəqil qurum kimi fəaliyyət göstərən C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası daha böyük imkanlara malikdir. 1976-cı ildə Azərbaycan Mədəniyyət Nazirliyinin 5 fevral tarixli 54 №-li əmrinə əsasən yaradılmış Respublika Gənclər Kitabxanası universal məzmunlu kitabxana olub, IX sinif şagirdlərindən başlayıb ali məktəb tələbələrinə qədər uşaq və gənclərə xidmət edir.[4] Kitab fondu və bütün iş üsulları gənclərin təhsil sisteminə, onların mənəvi tərbiyəsinə, əmək tərbiyəsinə, peşə yönümünə, elmi-siyasi dünyagörüşünə, bədii-estetik zövqünə xidmət etməyə yönəlmişdir. Eyni zamanda bu kitabxana respublikanın digər gənclər kitabxanasına metodik köməklik edir, onların fəaliyyətini istiqamətləndirir. Bundan əlavə orta ixtisas peşə təmayüllü liseylərin kitabxanaları da gənclər kitabxanası vasitəsi ilə istiqamətləndirilir. Kitabxanada çoxlu sayda mədəni-kütləvi tədbirlər keçirilir: ədəbi-bədii gecələr, şair və yazıçılarla görüşlər, kitab müzakirələri, oxucu konfransları və s.

Azərbaycan Gəncliyi Dövlət Proqramında irəli sürülən bir çox mühüm vəzifələr digər təhsil, tərbiyə, təbliğat və informasiya müəssisələri ilə yanaşı sosial institut kimi formalaşan kitabxanaların, ilk növbədə məhz gənc nəslin nümayəndələri ilə birbaşa iş aparan gənclər kitabxanalarının fəaliyyətində ciddi dönüş yaradılmasını tələb edir. Çünki gənc oxucuların ümumi və elmi dünyagörüşünün genişlənməsində, milli vətənpərvərlik və milli

dövlətçilik duyğularının formalaşmasında, ideya və mənəvi tərbiyəsinin inkişafında, əsl vətəndaş və əsl şəxsiyyət kimi yetkinləşməsində gənclər kitabxanaları mühüm rol oynamaq iqtidarındadırlar. Başqa sözlə, kitaba şüurlu və fəal münasibət bəsləyən, müxtəlif elm sahələrinə dair ədəbiyyatı yaradıcı şəkildə mütaliə edən, oxuduqlarını dərk edən, mənimsəyən, qiymətləndirən, nəticələr çıxaran və ondan faydalanan yüksək səviyyəli oxucunun yetişdirilməsi nəticədə cəmiyyətimizə, müstəqilliyimizə layiq yetkin şəxsiyyətlərin meydana çıxması deməkdir.

Bu baxımdan Azərbaycan gənclərinin ayrı-ayrı təbəqələrinin müəyyən qismi ilə işgüzar əlaqə saxlayan C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası böyük iş təcrübəsinə malikdir. Gənclər kitabxanasının bütün fəaliyyəti ayrıca yaş kateqoriyası olmaqla gənclərin xüsusiyyətlərinin nəzərə alınması əsasında qurulur. Gənclər kitabxanası gənc nəslin müxtəlif kateqoriyaları ilə kitabxanaların işi üçün gənclərin ideya-siyasi, estetik, əxlaqi tərbiyəsinə kömək olaraq elmi cəhətdən əsaslandırılmış tövsiyələr işləyib hazırlayır və həyata keçirir. Bu kitabxananın strukturunda abonomentdən və oxu zallarından əlavə sorğu və tələblərə müvafiq olaraq incəsənət və fonoteka şöbəsi, biblioqrafiya, elmi metodika və digər şöbələr yaradılmışdır.

Kitabxananın əsas şöbələrindən biri «Hərbi vətənpərvərlik və kütləvi işlər» şöbəsidir. Hazırda bu şöbənin əsas vəzifəsi Azərbaycan Gəncliyi Dövlət Proqramının ayrı-ayrı bəndlərini diqqətlə öyrənib gənclər arasında yaymaqdan ibarət olmalıdır. Qeyd edilməlidir ki, «Hərbi vətənpərvərlik və kütləvi işlər» şöbəsinin bu sahədə müəyyən təcrübəsi vardır. Belə ki, şöbə əməkdaşlarının yaxından köməkliyi ilə 90-cı illərdə Beyləqan və Zaqatala rayonlarında keçirilən zona müşavirələrində gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi ilə əlaqədar mədəni-maarif müəssisələri, o cümlədən kitabxanaların qarşısında duran məsələlər müzakirə edilmiş, respublikamızın iqtisadi, siyasi və hərbi qüdrətinin möhkəmləndirilməsi üçün tövsiyələr verilmişdir.

Respublika Gənclər Kitabxanasının 1995-ci ildə «Azərbaycan Ordusu» qəzeti ilə birlikdə Cəlilabad rayonunda «Müasir dövr və gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində kitabxanaların iştirakı» mövzusunda elmi-praktik konfransı da maraqlı keçmişdir. Konfransda «Azərbaycan Ordusu» qəzetinin əməkdaşı K.Aslan «Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində qəzetin rolu», Cəlilabad rayon hərbi komissarı F.Cəfərov «Çağırış yaşlı yeniyetmələrlə iş», C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının direktoru T.Sadıqov «Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində kitabxanaçıların iştirakı» mövzularında çıxış etmişlər. Çıxışlarda müasir dövrdə gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi sahəsində kitabxanalar, hərbi komissarlıqlar, pedaqoji kollektivlər və başqa ictimai təşkilatların birgə fəaliyyətinin aktual məsələlərinə toxunulmuşdur. Konfransda Cəlilabad, Biləsuvar, Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı rayon mədəniyyət şöbə müdirləri, qabaqcıl kitabxana işçiləri və ümumtəhsil məktəblərinin müəllimləri iştirak etmişlər.

Hazırda kitabxana rəhbərliyinin qarşısında duran ən mühüm vəzifə Azərbaycan Gəncliyi Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı tədbirlər planını işləyib hazırlamaqdır. Şübhəsiz ki, tədbirlər planında respublikanın ictimai-siyasi həyatında gənclərin iştirakı, elm, təhsil və mədəniyyət sahələri üzrə dövlət idarəetmə orqanlarında gənclərin məsul işlərə cəlb olunması, Azərbaycan Gəncliyi Dövlət Proqramının ən mühüm məsələləri üzrə təkliflərin hazırlanması, gənclərin sosial problemləri, ordu quruculuğu, hərbi-vətənpərvərlik tərbiyəsi və kitabxananın vəzifələri öz geniş əksini tapmalıdır.

Son illərdə Respublika Gənclər Kitabxanasında aparılan quruculuq işləri qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə tam zəmanət verir. Belə ki, kitabxana 2003-cü ildə Mədəniyyət Nazirliyinin göstərişi ilə tam təmir olunmuş və bu məqsədlə son beş ildə kitabxanaya 90 milyon manat vəsait ayrılmışdır. Kitabxananın girişi, sərgi salonu, dövri mətbuat fondu və oxu zalları yüksək səviyyədə təmir olunmuş, mebellərlə təchiz edilmiş və oxucuların istifadəsinə verilmişdir.

Məlum olduğu kimi, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası ölkəmizdə ən iri kitabxanalardan biridir. Kitabxa-

nanın respublikamızın ayrı-ayrı rayonlarında 50-dən çox filialı fəaliyyət göstərir. Kitabxananın «Elmi metodik şöbəsi» müntəzəm olaraq filial kitabxanaları ilə əlaqə saxlayır, onların fəaliyyətinə nəzarət edir, hesabatları alınır və ildə bir dəfə rayon kitabxanalarına ezamiyyətlər təşkil edilir.

Son 5-6 ildə Mədəniyyət Nazirliyinin kitabxana işinə və onun fondunun lazımi ədəbiyyatla müntəzəm şəkildə komplektləşdirilməsi məsələlərinə xüsusi diqqət verilməsinin nəticəsi olaraq kitabxana fonduna hər il 1000-dən çox ədəbiyyat daxil olur. Təkcə 2005-ci ildə hörmətli prezidentimiz İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli 56 saylı «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» sərəncamına müvafiq olaraq kitabxanaya 7 min nüsxə ədəbiyyat alınmışdır. Kitabxanada fondun komplektləşdirilməsi üçün ayrılan maliyyə vəsaiti ildən-ilə artır. Müqayisə üçün göstərmək olar ki, əgər 2000-ci ildə kitabxana fondunun komplektləşdirilməsi üçün ayrılan maliyyə vəsaiti 800 min manat olmuşdursa, 2005-ci ildə bu rəqəm 55 milyon manat olmuşdur. Nəticədə kitabxananın fondu xeyli artmış və 127785 nüsxəyə çatdırılmışdır. Fondun dil üzrə bölgüsündə ən çox hissəsini-77345 nüsxəsini rus dilində, 50440 nüsxəsini isə Azərbaycan dilində olan ədəbiyyat təşkil edir. Kitabxana fondunda saxlanılan ədəbiyyatın çox hissəsinin rus dilində olmasının əsas səbəbi sovet hakimiyyəti illərində kitabxananın rus abonomenti şöbəsinə daha çox diqqət yetirilməsi olmuşdur.

Kitabxanaya ayrılan maliyyə vəsaitinin bir hissəsi də dövri nəşrlərin alınmasına xərclənir. Məlum olduğu kimi, dövri nəşrlər ən operativ informasiya forması olub oxucular tərəfindən daha çox istifadə olunur. Bunu nəzərə alaraq kitabxananın rəhbərliyi hər il 20-25 dövri və ardı davam edən nəşrlərə abunə yazılırlar. Hazırda kitabxana 16 adda qəzet və 7 adda jurnal alır.

Son illərdə kitabxanada oxuculara xidmət sisteminin modernləşdirilməsi məqsədi ilə yeni informasiya texnologiyasının tətbiqi sahəsində də bəzi işlər görülmüşdür. Kitabxana Soros fondunun yerli Açıq Cəmiyyət İnstitutunun Yardım Fondu ilə



müqavilələr bağlamış və 2003-cü ildə «Puşkin kitabxanası» layihəsi çərçivəsində 88 nüsxə kitab alaraq fonda daxil etmişdir. Ümumiyyətlə, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası son illərdə Soros fonduna iki layihə təqdim etmişdir.

Gənclər kitabxanasının «Soraq biblioqrafiya aparatının yenidən təşkili» adlı layihəsi kitabxanada soraq biblioqrafiya aparatının qısa müddət ərzində yenidən qurulması məqsədilə tərtib edilmişdir. Layihədə biblioqrafiya şöbəsi üçün mebel, kompüter, printer və digər avadanlıqların alınması nəzərdə tutulmuşdur.

2002-ci ilin dekabr ayından başlayaraq Biblioqrafiya şöbəsi kitabxananın öz vəsaiti hesabına əsaslı təmir edilmişdir. Bundan sonra, yəni 2003-cü ilin yanvar ayından layihənin icrasına başlanmış və ilk növbədə şöbə üçün 2.496.000 manat həcmində 3 ədəd kitab şkafı, 3 ədəd kompüter, 1 ədəd printer və surətçıxarma aparatı alınmışdır.

Soros fondu layihənin həyata keçirilməsi üçün 2525 ABŞ dolları məbləğində vəsait ayırmışdır.

Kitabxananın rəhbərliyi mövcud layihə əsasında kitabxananın web səhifəsinn yaradılması və kitabxana fondunda mövcud olan Azərbaycan dilində ədəbiyyatın MS word proqramının köməyi ilə kompüter yaddaşına keçirilməsi prosesinə başlanmışdır. Lakin sonralar maliyyə çatışmazlığından bu iş müvəqqəti olaraq dayandırılmışdır.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası 2003-cü ilin sonunda Soros fondunun yerli Açıq Cəmiyyət İnstitutunun Yardım Fondunun elan etdiyi müsabiqədə yardımçı təşkilat kimi iştirak etmişdir. Müsabiqənin nəticəsinə əsasən ACİYF bu layihənin həyata keçirilməsini məqsədəuyğun hesab etmiş və 2003-cü ilin noyabr ayının 20-dən 2004-cü ilin noyabr ayının 20-dək icrası nəzərdə tutulan bu layihə üçün öz maliyyə dəstəyini elan etmişdir.

Regionların ümumi inkişafına dəstək vermək üçün irəli sürülən bu layihə Azərbaycan Respublikasının Ucar rayon Mərkəzləşmiş Kitabxana Sistemini müasir texniki avadanlıqlarla təmin etməklə, bu kitabxananı kompüterləşdirmək məqsədi daşımışdır.

Bu layihə əsasında kitabxana Soros fondundan 2550 ABŞ dolları məbləğində qrant udmuş və bu məbləğlə Ucar rayon Mərkəzləşmiş Kitabxana Sistemində avtomatlaşdırma və kompüterləşdirmə prosesinə başlamaq məqsədilə aşağıdakı avadanlıqları alaraq kitabxanaya bağışlamışdır.

1. Kompüter. Hp Comrac d220 P4 2.66/
   monitor Hp V7550-1 ədəd
2. Fax-modem 56 robitics ext-1 ədəd
3. UPS MGE 800-1 ədəd
4. Printer Hp LaserJet 1015-1ədəd
5. Copier Canon A4 PC860-1 ədəd
6. Scaner Hp ScanJet 3970-1 ədəd
7. OSR software «Fine reader»-1 ədəd

Hazırda Respublika Gənclər Kitabxanasında yeni informasiya texnologiyasının tətbiqi sahəsində planlı işlər həyata keçirilir. 2005-ci ildə 7254 oxucuya xidmət göstərən kitabxana malik olduğu sənəd-informasiya resursları, kadr potensialı, maddi-texniki bazası və ən başlıcası isə Respublika Mədəniyyət Nazirliyinin rəhbərliyi tərəfindən göstərilən qayğı onun Azərbaycan Gəncliyi Dövlət Proqramının yerinə yetirilməsinə yardımçı olmasına imkanları artırır.

## ƏDƏBİYYAT


*1. «Dövlət gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı // Azərbaycan.-1999.-3 iyul*

*2. Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cü illər) // Azərbaycan.- 2005.-1 sentyabr.-S.3*

*3. Əliyev İ.H. cəmiyyətimizin ən aparıcı hissəsi olan gənclər Azərbaycanın hərtərəfli inkişafında, demokratik proseslərin gücləndirilməsində çox fəal iştirak edirlər// Azərbaycan.- 2005.-15 oktyabr*

*4. Sadıqov T. 70 yaşlı kitabxananın tarixinə və bu gününə bir nəzər // Mədəni – maarif. – 1999.-№2 – S . 30-32*





***Абузар Халафов,***
***Мехманали Мамедов***


# ДЕЯТЕЛЬНОСТЬ РЕСПУБЛИКАНСКОЙ ЮНЕШОСКОЙ БИБЛИОТЕКИ В ОСУЩЕСТВЛЕНИИ ГОСУДАРСТВЕННОЙ ПРОГРАММЫ МОЛОДОСТЬ АЗЕРБАЙДЖАНА


***РЕЗЮМЕ***

*Для социального развития Азербайджанской молодежи*
*особенное значение приобретает «О государственной моло-*
*дежной политике». Этот директивный документ ставит осо-*
*бые задачи и передь библиотеками и другими информационны-*
*ми учреждениями. В статье рассматривается задачи Государ-*
*ственной Юнешоской библиотеки им. Дж. Джаббарлы в свете*
*этой программы и других директивных документов, обознача-*
*ется пути развития и технического перевооружения этой биб-*
*лиотеки для решения насущних задач государственной моло-*
*дежной политике.*

**Xəlil İSMAYILOV**
*Tarix elmləri doktoru, professor*

# KITABXANA STATİSTİKASININ BƏZİ MƏSƏLƏLƏRİ

Kitabxana statistikasının ayrı-ayrı sahələrinin öyrənilməsində sosial-iqtisadi statistikanın nəzəri, təcrübi və metodoloji proqramlarından istifadə olunur. Kitabxana statistikası kitabxana işində bütün proseslərin kəmiyyət baxımından öyrənilməsinə xidmət edir.

Kitabxana işinin həyata keçirilməsi, ona nəzarət edilməsi, statistik ümumiləşmələrin aparılması, rəqəm göstəriciləri əsasında statistik təhlil verilməsi kitabxana statistikasına verilən əsas tələblərdəndir. Kitabxana statistikası vasitəsi ilə kitabxana işinin kəmiyyət göstəriciləri, inkişaf dinamikası, real tapşırıqlarının və normaların yerinə yetirilməsi, miqdarca bölgüsü və müqayisəsi, ümumi miqdarın müəyyənləşdirilməsi, konkret olaraq vaxt və iş şəraitindən asılı olaraq müxtəlif statistik ümumiləşdirmələrin aparılmasından ibarətdir.

Kitabxana statistikasının əsas məqsədi kitabxanalarda toplanmış fondun uçotunu aparmaq, onun vəziyyəti, inkişafı, istifadəsi, ölkənin mədəni səviyyəsinə təsiri; kitabxana şəbəkələri - onların tipinə, növünə görə, əhatəsinə, inzibati tabeçiliyinə görə məsələləri özündə əks etdirir.

Lakin yeri gəlmişkən bir məsələni qeyd etmək lazımdır ki, statistik ümumiləşmələr əsasında əlbəttə kitabxana işi haqqında tam təsəvvür yaratmaq, bitkin fikir söyləmək, hər-hansı prosesə mükəmməl qiymət vermək mümkün deyildir. Ona görə də məsələnin tam mahiyyətini, onun məzmununu təsir dairəsini və s. cəhətlər əhatəli təhlil edilməli, müşahidələr və sorğular əsasında statistik təhlillər nəzərə alınmaqla hadisələri və iş proseslərini qiymətləndirmək olar.



Kitabxana statistikası mətbuat və kitab ticarəti statistikası ilə sıx şəkildə bağlıdır, onlar bütövlükdə mətbuatı və ümumiyyətlə sənəd kütləsinin inkişaf xüsusiyyətlərini xarakterizə edir. Kitabxana statistikasının əsas göstiəriciləri nəinki idarədaxili əhəmiyyət kəsb edir, onlar həm də bütün mədəniyyət işçiləri və geniş ziyalı kütləsi üçün maraq doğurur. Lakin nəzərə almaq lazımdır ki, kitabxana statistikası əsasında toplanmış materiallar xüsusi əhəmiyyət kəsb estə də, kitabxana işinin ümumi inkişaf qanunauyğunluqları və inkişaf perspektivləri haqqında yalnız statistik ümumiləşmələr əsasında fikir yürütmək düzgün olmaz. Bunun üçün kitabxana işinə dair digər materiallar və sənədlərdən də geniş istifadə olunmalıdır. Hər bir kitabxana işçisi statistik biliyə malik olmalı, ümumi statistikadan baş çıxarmalı, elm kimi statistikanın qanunlarını bilməli, onun metodlarından istifadə etməyi bacarmalıdır. Kitabxana statistikasının qarşısında duran əsas vəzifələri yerinə yetirmək üçün kitabxana statistikası ilə məşğul olan əməkdaşlar onun özünün mahiyyətini aydınlaşdırmalı, onun struktur quruluşunu bilməli və onun metodlarını öyrənməlidir. Kitabxana praktikasında statistik işin həyata keçirilməsi əsas etibarilə üç mərhələdə həyata keçirilir: 1. Müşahidə 2. Toplama və qruplaşdırma 3. Materialların təhlili.

Statistik müşahidələr zamanı müxtəlif iş proseslərinə uyğun məlumatlar toplanır, bununla da statistik işin həyata keçirilməsi başlanır. Kitabxanalarda məlumatlar uçot-qeyd üsulu ilə toplanır və bu zaman ilkin uçot meydana gəlir, kitabxana gündəlikləri hazırlanır. Kitabxanalar və digər mədəniyyət orqanları tərəfindən hazırlanan hesabatlarda məhz statistik müşahidələr əsasında aparılır. Statistik müşahidələrin aparılması, statistik məlumatların tamlığına və keyfiyyətinə təsir göstərən başlıca amillərdəndir. Statistik müşahidələr bütün forma və növlərdə düşünülmüş proqram əsasında, müəyyən müddətdə, dəqiq şəkildə işlənib hazırlanmış hesablamalar əsasında həyata keçirilir.

Statistik müşahidələr öyrənilən hadisələrin uçotu baxımından tam və natamam ola bilər.

Kitablar, kitabxanalar və oxucular tədqiq edilib öyrənilirsə, belə müşahidələr tam müşahidələr hesab olunur. Məsələn, fondun hər bir kitabının qeydə alınması ilə kitabxanaya daxil olan və çıxarılan ədəbiyyatın uçotu, kitab verilişi məntəqələrində ümumi kitab verilişinin uçotu və s. tam müşahidə ilə nəzərdən keçirilirsə və bu zaman fondda olan bütün çap məhsulatı haqqında məlumatlar toplanırsa bunları tam müşahidələrin nəticələri adlandırmaq olar.

Bir sıra hesabat xarakterli məlumatların və illik statistik hesabatların hazırlanmasında müşahidələr əsasında hazırlanmış materialların olduqca böyük əhəmiyyəti vardır.

Lakin hesabat məlumatları kitabxanalara rəhbərlik məqsədilə aparılan tədqiqat işlərinin ehtiyacı üçün heç də həmişə kifayət etmir. Belə hallarda xüsusi təşkil edilmiş müşahidələrlə statistik tədqiqatlar həyata keçirilir. Məsələn: "Kitabxana və məlumat", "Kiçik şəhərlərin həyatında kitab və mütaliə", "Azərbaycan kəndinin həyatında kitab və mütaliə" və s. xüsusi tədqiqatlardır.

Kitabxana işində, statistik işin həyata keçirilməsində natamam müşahidələrdən də (seçmə metodundan) istifadə olunur. Bu zaman öyrənilən məlumatların ancaq müəyyən hissəsi qeydə alınır və təhlil edilir. Seçmə metodu tətbiq edilərkən görülən bütün işlərin ancaq bir hissəsini, yəni vacib olanları seçmə yolu ilə təhlil olunur.

Seçmə metodu - tam metodla müqayisədə bir çox üstünlüklərə malikdir - o ucuz başa gəlir və az zəhmət tələb edir. Bundan başqa seçmə metodu zamanı qeydlərin sayı az olur ki, bu da onların işlənilməsini və təhlilini xeyli asanlaşdırır. Əksər hallarda müşahidələr yalnız seçmə metodu vasitəsi ilə həyata keçirilir.

Seçmə metodu cari uçot vasitəsilə alınması mümkün olmayan məlumatları əldə etmək üçün tətbiq edilir. Bu məlumatlara oxucu sorğuları, kitab bağlamalarının işləmə müddəti, tələbnamələrin ödənilməsi vaxtı, açıq rəf üsulunda oxucu tələbatı və s. bu kimi məlumatlar daxildir. Həmçinin bu metoddan kitabxana şə-



bəkələrindən əhalinin istifadə etmə dərəcəsini öyrənmək üçün daha geniş istifadə edilir. Yeri gəlmişkən göstərmək istərdik ki, Azərbaycanda 60-70-ci illərdə bir sıra kitabxanaların iş təcrübəsini özündə əks etdirən statistik ümumiləşmələr aparılsa da, son illərdə statistik ümumiləşmələr və eksperimentlər heç bir kitabxana şəbəkəsi və sistemində həyata keçirilmir. Hətta ayrı-ayrı kitabxanaların təcrübəsində belə statistik müşahidələr və ümumiləşmələr aparılmır. Elə bunun nəticəsidir ki, bu gün kitabxanalar, onların ayrı-ayrı şəbəkələri, iş prosesləri, kadrları, kitabxana fondları haqqında oxucu, kitab verilişi və s. haqqında respublika üzrə heç bir ümumiləşdirilmiş statistik məlumat yoxdur. Halbuki respublika üzrə kitabxanaların sayının dəqiqləşdirilməsinə bu gün olduqca ciddi ehtiyac vardır.

Azərbaycan Respublikasında müstəqillik əldə edildikdən sonra bütün sahələrdə olduğu kimi elm, maarif mədəniyyət, kitabxana işi, informasiya, informasiyalaşdırma və informasiya təminatı haqqında bir sıra qanunlar və digər dövlət sənədləri qəbul edilmişdir ki, həmin sənədlər kitabxana işinin tənzimlənməsində də mühüm əhəmiyyət kəsb endir. Xüsusilə kitabxana işinə dair qəbul edilmiş "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu" (1999) Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 88 №-li qərarı (1996) və s. rəsmi sənədlərdə kitabxana statistikasına, uçot və hesabat sənədlərinin aparılmasına xüsusi yer verilmişdir. 1996-cı ildə qəbul olunmuş Nazirlər Kabinetinin 88 №-li dövlət qərarında çox konkret proqram nəzərdə tutulmasına baxmayaraq bu mühüm dövlət sənədinin müddəaları bu gün də yerinə yetirilməmiş qalmışdır. Məsələn, Qərarın üçüncü bəndində göstərilir ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tabeçiliyində kitabxana müəssisəsi olan nazirlik, idarə, müəssisə və ictimai təşkilatlarla birlikdə bir il müddətində respublika ərazisində fəaliyyət göstərən bütün kitabxanaların pasportlaşdırılmasını həyata keçirsin.[1] Bu bənddə doğrudan da uzun müddət həllini gözləyən bir məsələyə toxunulmuşdur. Bütün idarə müəssi-

[1] Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında.-B., 1996.-№88. -9 iyul

sə və nazirliklər üzrə kitabxanaların sayı haqqında heç bir rəsmi sənəddə son illərdə bitkin məlumat yoxdur. Demək olar ki, 1934-cü ildən üzü bəri respublikada fəaliyyət göstərən bütün kitabxanaların qeydiyyatı, uçotu və ya pasportlaşdırılması aparılmamışdır. Hətta respublika statistika idarəsinin hazırladığı xüsusi buraxılışlarda "Azərbaycan XX əsrdə" I-II hissə, "Azərbaycanın statistik göstəriciləri" 2002, "Müstəqil Azərbaycan" 10 il.2001 və s. statistik məcmuələrdə belə kitabxana statistikası haqqında, onların ümumi sayı, fondu, oxucusu, kitab verilişi, komplektləşdirmə, hətta kitab çapı haqqında geniş məlumat verilmir. Təkcə kütləvi kitabxanaların sayı və fondu bu statistik məcmuələrdə göstərilir ki, bu da lazımi səviyyədə deyil və ya statistik ümumiləşdirmələr tam əks etdirmir. Bu gün Azərbaycan öz müstəqilliyinin 15-ci ilini yaşadığı bir dövrdə respublika əhalisinə xidmət edən bütün kitabxanaların işinə dair statistik məlumatlar, kitabxana işinin ümumi inkişafında kitabxana problemlərinin düzgün həll edilməsində, kitabxana proqramlarının hazırlanmasında, planlaşdırılmasında, müəyyən inkişaf proqnozlarının hazırlanmasında, kitabxanaların statistik məlumatlarının olması və ondan istifadə edilməsi olduqca vacib şərtlərdən biridir. Müstəqil respublikamızın əsas informasiya mənbəyi olan kitabxanaların pasportlaşdırılmaması, sayının dəqiqləşdirilməməsi çox ciddi nöqsandır. Belə olan halda kitabxanaların kadr təminatının bugünkü durumu əşya və avadanlıqlarla təminatı, maliyyələşdirilməsi, planlaşdırılması ümumiyyətlə, respublikada kitabxana quruculuğunun həyata keçirilməsi vəziyyəti sual altında qalır. Son illərdə bir sıra beynəlxalq təminatlar Azərbaycanda xeyirxah missiyalar həyata keçirməklə kitabxanalara yardımlar və qrantlar verməklə onların maliyyə vəziyyətini yaxşılaşdırmağa səy göstərirlər. Bir sıra rayon MKS-lərində eləcə də respublika və şəhər kitabxanalarında bu sahədə işlər aparılır və beynəlxalq təminatların maliyyə dəstəyi nəzərə çarpır. Xüsusilə, əşya və avadanlıqların əldə olunmasında, texniki avadanlıqların təminatı nəzər diqqəti cəlb edir. Həmçinin tədbirlərin yəni kursların (treninqlərin) keçirilməsi, yeni kitabların təqdimetmə mərasimləri, xarici ölkələrin təcrübəsini öyrənmək



məqsədilə kitabxana işçilərinin bir sıra ölkələrə səfərləri ardıcıl olaraq aparılır. Dövlət tərəfindən kitabxana işinin yaxşılaşdırılması məqsədilə son dövrlərdə bir sıra əməli işlər də həyata keçirilmişdir. Lakin bütün bunlar yəni aparılan işlər, bu günkü kitabxana quruluculuğu, kitabxanaların maliyyələşdirilməsi respublika üzrə ümumiləşdirilmir. Yeri gəlmişkən kitabla bağlı bir məsələni qeyd etmək yerinə düşərdi. Bu gün respublikamızda kitab çapı ilə məşğul olan 130-a yaxın mətbəə və nəşriyyatlarda çap olunan kitablar haqqında heç bir ümumiləşdirilmiş məlumat yoxdur. Halbuki respublikamızda çap olunan bütün nəşrlərin uçotu aparılmalı, elm sahələri üzrə ümumiləşmələr, statistik dəqiqləşmələr aparılmaqla aidiyyatı orqanlara təqdim olunmalıdır. Xüsusilə respublika statistika idarəsinə statistik rəqəmlər təqdim olunmalıdır ki, bunlar rəsmi məlumatlar kimi nəşr olunsun və yeri gəldikcə ondan bütün sahələrdə istifadə etmək mümkün olsun. Həmçinin daha geniş statistik məlumatlar kitabxanaların aidiyyatı olan baş idarələrə və nazirliklərə göndərilməlidir. Daha doğrusu yuxarı təşkilatlar vaxtaşırı belə statistik məlumatları tələb etməlidirlər. Bəzi statistik ümumiləşmələr aparılmadığından bir sıra dünya təminatlarının kitab və kitabxana ilə bağlı sorğularına cavab vermək çətinlik yaradır. Məsələn YUNESKO təşkilatı Azərbaycanın bir sıra təşkilatlarına tərcümə ədəbiyyatının nəşri ilə bağlı müraciət etməsinə baxmayaraq lazımi məlumatları əldə etmək mümkün olmamışdır. Bu məsələ xüsusilə kitab çapının uçotunun aparılması, beynəlxalq standart nömrələrinin kitablarda verilməsilə bağlıdır. Halbuki, kitab xalqımızın milli sərvəti və tarixi yaddaşımız kimi daim qorunmalı, uçotu aparılmalı və təbliğ olunmalıdır. Xüsusilə müharibə şəraiti ilə bağlı kitabxanaların fəaliyyəti müasir dövrdə çox aktiv bir müəssisə kimi özünü göstərməlidir. Yəni müharibə dövründə erməni işğalçılarının vəhşilikləri, xalqımıza qarşı yönəldilən soyqırımı, torpaqlarımızın işğalı, o cümlədən kitablarımızın işğal altında qalması 1000-ə yaxın kitabxanaların məhv edilməsi, onların fondunun talan edilməsi kitabxanaların bugünkü fəaliyyətlərinin əsas mövzusu olmalıdır. Həmçinin belə tədbirlər statistik rəqəmlər və diaqramlarla müşa-

hidə edilməlidir. Çox təəssüf hissi ilə qeyd olunmalıdır ki, kitabxanaların bu sahədəki fəaliyyəti o qədər də qənaətbəxş deyildir. Xüsusilə ayrı-ayrı rayonların işğal günləri, həmin rayonlardan olan milli qəhrəmanlar, ayrı-ayrı əsgər və mülki vətəndaşların müharibədə göstərdiyi şücaətlər və s. haqqında müharibə ilə bağlı kitabxanaların fəaliyyəti də öndə durmalıdır. Gənclərlə bağlı bütün tədbirlərdə ən aktual problem Qarabağ problemi olmalı və torpaqlarımızın düşmən tapdağından azad olması üçün güclü tərbiyəvi işlər aparılmalıdır.

Respublikamızda kitabxana şəbəkələrinin yeniləşdirilməsi və qaydaya salınması işində də çoxlu uyğunsuzluqlar mövcuddur. Artıq çoxdan vaxtı çatmışdır ki, ən çox kitabxanaları olan Mədəniyyət Nazirliyi kitabxanaların şəbəkə kimi qaydaya salınması, kadrların seçilməsi və yerləşdirilməsi sahəsində statik ümumiləşmələr aparsın və konkret tədbirlər həyata keçirsin. Yəni kitabxana şəbəkəsinin qaydaya salınması üçün geniş tədbirlərin həyata keçirilməsinə ciddi ehtiyac vardır. Bu zaman ərazi, əhalinin sayı və s. mütləq nəzərə alınmalıdır. Əhalinin hər min və ya 10 min nəfərinə düşən kitabxanalar müəyyənləşdirilməlidir. Xüsusilə, şəhərlərdə kitabxanaların yerləşdirilməsində çox ciddi qüsurlar mövcuddur. Bir sıra kütləvi və mərkəzi kitabxanalar bəzən yan-yana, bəzilərində isə əhalinin seyrək yaşadığı massivlərdə yaradılır. Kitabxanaçı kadrlarının yerləşdirilməsi işində çox ciddi uyğunsuzluqlar vardır. Bu həm ixtisaslı mütəxəssislərin yerləşdirilməsində həm də onların ştat etibarilə hər bir meyar nəzərə alınmadan yerləşdirilməsi ilə bağlıdır. Həmçinin qeyd etməliyik ki, xeyli təsadüfi, kitabxana işi ilə heç bir əlaqəsi və marağı olmayan insanlar kitabxanalarda işlə təmin olunmuşdur. Xüsusilə rayon MKS-lərində belə hallar daha geniş yayılmışdır. Kadrlar yerləşdirilərkən kitabxana müdirləri yeni işçilərin bir sıra şəxsi keyfiyyətlərini, təhsilini, marağını, iş qabiliyyətini, həvəsini, təşkilatçılığını mütləq nəzərə almalıdır. Həm də bu onların vətəndaşlıq borcu və xalqımız qarşısında məsuliyyəti hissindən irəli gəlməlidir, aidiyyəti orqanlar isə bu işə diqqəti artırmalı və tələbkar olmalıdırlar.



Kitabxanaların statistik fəaliyyətindən danışarkən bir məsələni xüsusi vurğulamaq istərdik. Keçmiş Sovet rejimində olduğu kimi bu gun də kitabxanaların işində nəzərə çarpan saxta və şişirdilmiş rəqəmlərin yuxarı təşkilatlara təqdim olunması hələ də davam etdirilir. Əlbəttə bu ciddi nöqsandır və qarşısı alınmalıdır. Doğrudur bu gün oxucuların sayının azalması prosesi gedir, bu azalmanın obyektiv 'və subyektiv səbəbləri vardır. Əlbəttə bu səbəblər araşdırılmalı, təhlil edilməli və izah olunmalıdır. Oxucuların sayı, kitabxanalara gəliş, kitab verilişi, fondun uçotu və s. rəqəmlər respublika səviyyəsində təhlil edilməli perspektiv planlar təhlil edilərkən ondan istifadə olunmalıdır. Bunun üçün statistik blanklar hazırlanmalı və ona uyğun materiallar toplanılıb təhlil edilməlidir. Statistik blanklar hazırlanarkən kitabxana işi təcrübəsində çox geniş yayılmış statistik diaqramlardan geniş istifadə olunmalıdır. Xüsusilə kitabxana işçiləri ilə onların bu gün tədbirlərdə nümayiş etdirilməklə təhlil aparılması olduqca vacibdir. Belə materiallar hazırlanarkan xətti diaqramlardan, sektorlu (dairəvi) diaqramlardan həmçinin sütunlu diaqramlardan istifadə olunması daha məqsədəuyğundur. Diaqramlar kitabxana işinin bütün proseslərini əhatə etməlidir. Diaqramlar ayrı-ayrı kitabxanaların respublika və ayrı-ayrı şəbəkələrin işini özündə əks etdirməlidir. Diaqramlar tərtib edilərkən şərti işarələr əyri xətlər və sütunlarla verilməli, rəngli xətlərlə müşayiət edilməlidir.

Kitabxanaçı kadrların seçilməsi və yerləşdirilməsi prosesində statistik göstəricilərdən geniş istifadə olunmalıdır. Vaxtaşırı attestasiyaların keçirilməsində kitabxana işçilərinin haqqında xüsusilə onların təhsili, stajı, ixtisasartırma kurslarında iştirakı və s. göstəricilər toplanılmalı və təhlil edilməlidir. Statistik göstəricilərin cədvəl və qrafik şəklində tərtib edilmiş mütləq və nisbi göstəricilərin təhlili əsasında, mütləq ölçülərin və statistik əmsalların necə inkişaf etməsi, kitabxana fondunun tərkibinin və kitab verilişinin qiymətləndirilməsi və hər bir kitabxanaçıya düşən yükün necə yerinə yetirildiyi göstəricilərin dəyişmə səbəbləri və onları yaradan amillər haqqında nəticələr çıxarılmalıdır.

## ƏDƏBİYYAT


1. Бочек Л. Секция статистики ИФЛА в 1983-1988 гг. Обзор проблематики //Библиотековедение и библиография за рубежом.-1990.-№ 6.-С.38-17.

2. Дворкина М.Я. Что представляет собой библиотечная услуга//Сов. библиотековедение.-1991.-№1-6.-С.20-26.

3. Зубарев И.Х. Влияние использования читателями нескольких библиотек на искажение показателей библиотечной статистики/ Теория и практика библиотечного дела в период развитого социализма:Межвуз.сб.науч.тр.-М.,1984.- С.21-23.

4. Зубарева М.З. Альтернативы при новых условиях хозяйствования//Сов.библиотековедение.-1991.-№1-6.-С.11-17.

5. Карташов Н.С. Актуальные задачи внедрения НОТ в библиотеках //Сов.библиотековедение.-1983.-№5-6.-С.8-17.

6. Калегова О.Д., Астакович Е.П. Какие показатели нужны библиотекам // Науч.техн.библиотеки СССР.-1990.-№6.-С.13-17.

7. Матульский Р.С. Все ли знает статистика? //Библиотекарь.-1990.-№7.-С.32-33.

8. Матульский Р.С. Основные показатели и единицы учета статистики библиотечного фонда //Сов.библиотековедение.-1991.-№5.-С.76.

9. Моргенштерн И.Н. Пробелы профессионального знания // Науч. и техн.биб-ки СССР.-1986.-№12.-С.15-17.

10. Научная организация в библиотеках: Практ. пособие /А.Н.Ванеев, В.Г.Горев, Л.В.Ковяленок, Н.А.Смирнова.-М.: Книга,1987-С.87

11. Низовой Н.А. Библиотечная статистика и статистика печати //Сов.библиотековедение.-1991.-№5.-С.68-74.

12. Низовой Н.А. О единице учета библиотечных фондов // Библиотекарь.-1978.-№11.-С.73.

13. О мерах по коренному улучшению дела статистики в стране//Совр. постановление правительства СССР.-1987.-№5-6.-С.706-716.





14. Фенелонов Е.А. Организация внедрения передового библиотечного опыта //Сов.библиотековедение.-1983. -№1-6.-С.3


**Халил Исмаилов**

## НЕКОТОРЫЕ АСПЕКТЫ СТАТИСТИЧЕСКОГО ИЗУЧЕНИЯ БИБЛИОТЕЧНОЙ ДЕЯТЕЛЬНОСТИ

### РЕЗЮМЕ


*В статье рассматривается особенности применения статистического метода анализа библиотечной деятельности. Наряду с достижениями отмечаются недостатке библиотечной статистике в Азербайджане за годы независимости. И указаны пути устранения этих недостатков.*

Əli RÜSTƏMOV
*Pedaqoji elmlər namizədi, dosent*
Nuriyə MUSTAFAYEVA
*«Kompüter mərkəzi»nin mühəndisi*

# ELEKTRON KİTABXANA PROBLEMİ

*3-cü məqalə*

## Elektron kitabxanaların komplektləşdirilməsinin bəzi məsələləri

Məlum olduğu kimi, kitabxana fondlarının ənənəvi komplektləşdirilməsində ədəbiyyatın alınması əvvəlcə planlaşdırılır. Belə halda komplektləşdirmə mənbələri kitabxana kollektoru, əlaqədar kitab mağazaları, dövri nəşrlərin əlaqədar abunə agentliyi və əvvəlcədən məlum olmayan ayrı-ayrı şəxslərin və təşkilatların müəyyən kitabxanaya verdiyi kitab hədiyyələridir. Elektron nəşrlərin, sənədlərin və digər bu kimi elektron resursların kitabxanalara komplektləşdirilməsi mənbələri və üsulları xeyli fərqlidir.

Elektron sənədlərin və digər resursların kitabxana fondlarına komplektləşdirilməsi üçün ilk növbədə kitabxananın internetlə geniş əlaqələndirilmiş elektron kitabxanası və ya heç olmasa inkişaf etmiş lokal kompüter şəbəkəsi olmalıdır. Sonuncu deyilən halda kitabxana uzaqlaşdırılmış informasiya resursları ilə komplektləşdirilə bilməz, ancaq optik və digər tip disklərdə yazılan kitablar, jurnallar və profilə uyğun olan məlumat bazaları ilə komplektləşdirilə bilər. Digər tərəfdən, əlaqədar kitabxanada çap sənəd fondunda geniş, dünyəvi maraq kəsb edən nadir və qiymətli nüsxələr (milli ədəbiyyat) rəqəmləşdirilmiş formata keçirilib, yəni «skanirovka» edilib elektron kitabxanaya daxil edilə bilər. Bu da elektron sənədlərlə komplektləşdirmənin daxili mənbəyi hesab edilir. Optik və digər tip disklərdə buraxılan elektron nəşrlər və məlumat bazaları nəşriyyatlardan və digər əlaqədar təşkilatlardan adi çap əsərləri kimi pulköçürmə yolu ilə alına bilər.



Elektron sənədlərin və digər əlaqədar resursların (məsələn: biblioqrafik məlumat bazaları, elektron kataloqlar, web-saytlar və s.) əsas komplektləşdirmə mənbəyi internet resurslarıdır. Bu texnologiyadan istifadə etdikdə tez-tez yeniləşdirilən, əlavələr edilən və pulsuz yayılan elektron sənəd növlərinin komplektləşdirilməsi əlverişli deyil. Belə halda əlaqədar elektron sənəd növünün və massivinin vaxtaşırı aktuallaşdırılmasını həmin resursu istehsal etmiş (hazırlamış) qurumun öz üzərinə qoymaq, resursa dair biblioqrafik və ünvan məlumatlarını isə ya kitabxananın məxsusi elektron kataloquna, ya da xüsusi registrinə (istifadə üçün tövsiyə olunan informasiya resurslarının siyahısı) daxil etmək daha məqsədəuyğundur.

İnternetdə olan pullu informasiya resurslarından kitabxana fondlarının komplektləşdirilməsinin hazırda istifadə edilən ən kütləvi üsulu müraciət (istifadə) üçün lisenziyanın (pulödəmə əsasında bağlanan müqavilə) alınması, istifadə ediləcək elektron sənədlərin biblioqrafik yazılarının (təsvirlərinin) tərtibi və internet şəbəkəsi vasitəsilə kitabxananın oxucularına təqdim olunmasıdır. Bu üsul xeyli maliyyə və əmək sərfi tələb edir. Çünki bu prosesdə bir sıra hüquqi və təcrübi məsələlər [1,2] zaman etibarılə təkmiləşdirilməlidir. Bununla komplektləşdirilən elektron materiallar fiziki olaraq sahibkarın, yəni informasiya təchizatçısının ixtiyarında qalır, kitabxanalar isə alınmış lisenziyanın şərtlərindən asılı olaraq onlardan müvəqqəti və ya daimi istifadə hüququna malik olur.

İstənilən komplektləşdirmə üsulunda sənədlərin profilə uyğun olaraq dəqiq seçilməsi oxucu sorğusunun və tələbatının dərindən öyrənilməsi ilə bağlıdır. Çap və elektron sənədlərin istifadəsi üçün ştrix-kodlaşdırma sistemi tətbiq etmiş, həmçinin registrasiya (qeydiyyat) edilmiş elektron resursları olan avtomatlaşdırılmış kitabxanalarda oxucu sorğularının təhlili çox sadə və asandır. Ştrix-kod sistemi hər bir çap və elektron sənədin istifadəsinin kompleks xarakteristikasını (sənədin adı, növü, tipi, istifadə intensivliyi və s.) aşkarlamağa və ümumiyyətlə fondun istifadəsinin

bütün cəhətlərini müəyyən etməyə imkan verir. Bu prosesdə
üsulu ilə hesablama demək olar ki, yoxdur.

İstər ənənəvi, istərsə də elektron kitabxanaların vacib prob-
lemlərindən biri ədaqədar kitabxananın profilinə uyğun ola
yüksək keyfiyyətli sənədlərin seçilməsidir. Bəzi mütəxəssisləri
fikrincə elektron sənədlərin komplektləşdirilməsində seçmə üsu-
lunun istifadəsi qismən lazımdır. Bu üsul ancaq optik disklərd
buraxılan nəşrlər üçün tətbiq edilməlidir; digər uzaqlaşdırılm
elektron-informasiya resurslarının komplektləşdirilməsində is
seçmə aparmaq gərəksizdir. Çünki həmin resursların tərkibi v
məzmunu tez-tez dəyişir və aktuallaşdırılır, yeniləşdirilir, əlav
edilir və s.

Digər qrup mütəxəssislər komplektləşdirmə üçün çap əsərlə-
rində olduğu kimi elektron nəşrlərin və sənədlərin (resursların
seçilməsini vacib hesab edirlər. Onların arqumentləri aşağıdak
fikirlərlə əsaslandırılır:

1. Müraciət (axtarış, istifadə) üçün çoxlu sayda elektron in-
formasiyalar təqdim olunur, onların adları və sayı sürətlə artır
Buna görə də seçmədə səhvlərin olması ehtimalı artır.

2. Uzaqlaşdırılmış şəbəkə resursları getdikcə daha çox ikinc
növ sənədlərlə təqdim olunur. Məsələn: referatlar, annotasiyalar
tezislər və s. Təcrübələr göstərir ki, referatların çox hissəsi əsasın
da ilkin nəşrin (orijinalların) məzmun keyfiyyətini dəqiq müəyyən
etmək çətindir.

3. Sürətlə artan elektron resurslar tam şəkildə elektron vari-
antda dərc edilir. Onlar üçün referatlaşdırma metodları və mexa-
nizmi işlənməmişdir.

Deyilən səbəblərə görə elektron kitabxanalara açıq web
saytların kəmiyyətini deyil, seçmə yolu ilə onların komplektləş-
dirmə keyfiyyətini artırmağa çalışırlar. Elektron informasiyaların
komplektləşdirmə mənbələrinin seçilməsində peşəkar kitabxana-
çının aparıcı rolunu əvəz edən başqa bir vasitə yoxdur. Qeyd edək
ki, kitabxanaçının vacib funksiyalarından biri təkcə komplek-
tləşdirmə prosesində deyil, həmçinin sənədlərin təkrar komplekt-
ləşdirilməsində, ədəbiyyatın fonddan çıxarılmasında və depozitar



fondun təşkilində [3] seçmə aparmaqdır. Ən böyük kolleksiyaya (115000 adda), yəni fonda malik olan ABŞ-ın Konqres Kitabxanası bir sıra obyektiv və subyektiv amilləri nəzərə alaraq komplektləşdirmə aparır. Elektron resursların formalaşdırılmasına xüsusilə böyük diqqət yetirilir.

Xarici elektron resurslarla elektron kitabxana fondlarının komplektləşdirilməsi və oxuculara xidmət texnologiyası aşağıdakı şəkildə (şəkil 1) verilmişdir [4, c.58].




Şəkil 1. Xarici elektron informasiya resurslarının komplektləşdirilməsinin və onlarla oxuculara xidmətin texnoloji sistemi.

Beləliklə şəkildən görürük ki, bütün mövcud olan elektron informasiya resursları 3 tərkib hissədən ibarətdir:

1. Pulsuz, yəni hamı üçün açıq olan şəbəkə (internet) resursları. Bu resursları istifadə etmək, yəni öz məxsusi serverinə (elektron saxlayıcısına) keçirmək üçün resurs sahiblərindən icazə almaq lazımdır. Çox zaman yalnız birdəfəlik istifadə üçün razılıq almaq da lazım gəlmir. Ancaq kitabxana hər hansı bir web sənədi, yaxud biblioqrafik məlumat bazasını öz elektron fonduna keçirmək və mühafizə etmək istəyirsə, sənəd sahibindən təqribi razılıq almalıdır, yəni onun saytında sadəcə olaraq qeydiyyatdan keçməlidir. Burada heç bir pul tələb olunmur.

2. Portativ informasiya daşıyıcılarında olan kitab, jurnal və digər növ sənədləri komplektləşdirmək kağız sənədlərdə olduğu kimidir. Onları əlaqədar kitab mağazalarından və abunə agentliklərindən pulödəmə yolu ilə alıb elektron kitabxanaya daxil etmək olar. Nəşriyyatlar da birbaşa belə sənədləri satırlar. Baxmayaraq ki, bu komplektləşdirmə üsulu xarici ölkə kitabxanalarında hələ XX əsrin 80-ci illərindən tətbiq edilir, respublikada bu sahədə işlər zəifdir. Çünki nəşriyyatlarımız da belə məhsulları hazırlamır. Xarici ədəbiyyatı deyilən formada almaq isə baha başa gəlir. Əlaqədar kitabxanada çap versiyası əsasında belə elektron kitabları hazırlamaq çoxlu texniki avadanlıq tələb edir, mürəkkəb prosesdir və hazır şəkildə almağa nisbətən daha bahadır.

3. Pullu şəbəkə resurslarına elektron informasiyaların komplektləşdirilməsi ən vacib əhəmiyyət daşıyır. Çünki ən aktual, keyfiyyətli sənədlər məhz bu tip resurslarda mühafizə olunur. Onların çox hissəsinin ümumiyyətlə, çap versiyası olmur. Burada lisenziyalaşdırma üsulu istifadə edilir. Lisenziya müqaviləsi informasiya təchizatçısı (sahibi) ilə onun tələbatçısının əlaqələndirilməsidir. Lisenziyanın hüquqi əsası müəlliflik hüququ haqqında qanundur. Azərbaycan Respublikasında da bu istiqamətdə «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» qanun qəbul edilmişdir. Lakin burada intellektual elektron mülkiyyətin, daha dəqiq desək elektron informasiyaların lisenziyalaşdırılması məsələləri dolğun şəkildə öz əksini tapmamışdır. Elektron informasiyanın lisenziyasının əsas xüsusiyyəti odur ki, o sahiblik hüququ deyil, yalnız istifadə hüququ verir. Lisenziya ilə elektron informa-



siyanın istifadəsinə müxtəlif şərtlər və məhdudiyyətlər qoyulur (məsələn, istifadə yeri, istifadəçi yerinin miqdarı, istifadənin yoxlanması, arxivləşdirmə (ehtiyat surətin yaradılması), arxiv materiallarına müraciət və s.)).

Pullu istifadə üçün hazırlanmış elektron informasiya resurslarının komplektləşdirilməsini təmin etmək üçün konkret lisenziya müqaviləsinin əsas şərtlərini qısıca olaraq göstərək [1, s. 107]:

1. Lisenziya materialları milli və beynəlxalq qanunlarla qorunan müəlliflik və sahiblik obyektidir;

2. Elektron resurslara müraciət hüququ olan istifadəçilərin tərkibi lisenziya müqaviləsi ilə təsdiq edilir. Müraciət hüququ ancaq əlaqədar təşkilatda qoyulmuş kompüterlərə verilir;

3. Əlaqədar təşkilatın kompüterində işləmək şərtilə istifadəçilərə icazə verilir ki, axtarış, baxmaq (oxumaq) və yükləmək əməliyyatları aparsın, şəxsi istifadə məqsədilə alınmış informasiyanı çapa versin, yaxud öz kompüterinin yaddaşında saxlasın və digər informasiya daşıyıcısına keçirsin. Lisenziyası olmayan digər təşkilatların istifadəçiləri elektron jurnallardakı məqalələrin mündəricatına, biblioqrafik təsvirlərinə (referat və məqalələrin tam mətni istisna olmaqla) baxmaq (oxumaq), həmçinin digər axtarış imkanlarını istifadə etmək hüququna malikdirlər;

4. Fərdi qeydiyyat şəraitində müəyyən bir istifadəçinin istifadə etdiyi informasiya digərləri üçün ümumaçıq informasiya ola bilməz. Lisenziya verən təminat verir ki, istifadəçinin razılığı olmadan onun istənilən qeydiyyat materialları reklam vermək məqsədilə istifadə edilə və icazə olmadan üçüncü şəxsə bildirilə bilməz;

5. Əlaqədar lisenziya obyekti olan saytdakı materiallar aşağıdakı hallarda birbaşa, yaxud dolayı yolla istifadə edilə bilməz:

a) geniş yaymaq məqsədilə və sistematik olaraq surətlərin alınması, yaxud nümayiş (qismən jurnalların buraxılışının surətini çıxarmaq qadağandır);

b) kütləvi informasiya vasitələrində dərcetmə, yaxud açıq istifadə üçün internetdə yerləşdirmə;

c) təkrar yayma, satma, yaxud sublisenziyalaşdırma, cümlədən pullu xidmət üçün istifadəetmə, lisenziya almış təşkila tın istifadəçi olmayan istənilən şəxsə istənilən formada sisteml şəkildə xidmət və ya təminat (fasiləsiz xidmət).

Lisenziya əsasında istifadəsinə icazə verilmiş informasiy məhsulunun ilk elektron formatdan forma və məzmunc dəyişmək, hər hansı bir digər elektron sistemə adaptasiya və digə dilə tərcümə edib kütləvi tirajla yaymaq müəllif və digə mülkiyyət hüquqlarının pozulması hesab edilir. Lisenziy müqaviləsi informasiya məhsulunun sahibi (naşir və nəşriyyat tərəfindən çap formasında olan təşkilatın rəhbəri tərəfində imzalandıqdan, möhürlə təsdiq edildikdən və alındıqdan sonr rəsmi qüvvəyə minir.

Kitabxanalarda lisenziyalaşdırma məsələləri ingilis mütə xəssisi T.Xaavistonun rus dilinə də tərcümə edilmiş məqaləsind [1] nisbətən dolğun əks etdirilmişdir.

Qeyd etməliyik ki, lisenziya istifadəçi dairəsinin dəqiq qe diyyatını və uçotunu tələb edir. Lisenziyalaşdırılmış elektron i formasiya məhsullarının istifadəsində aşağıdakı qrup istifadəçil rə qiymətdə güzəşt edilir:

- tələbələr;
- professor-müəllim heyəti;
- universitetin digər əməkdaşları və elmi işçilər;
- universitet tərkibinə daxil olmayan qeyri-kommersiya id rələrinin elmi işçiləri.

Lisenziya müqaviləsində bu hallar da nəzərə alınır:

1. İstifadəçinin avtorizasiyası (həqiqi istifadəçi imtiyazı). B baxımdın bir sıra cavabı mübahisəli olan suallar vardır: istifad çinin avtorizasiyasını necə təmin etmək lazımdır?, yəni lisenzi müqaviləsinə uyğun olaraq şəbəkə resursundan əlaqədar istifad çi kateqoriyası üçün müəyyən edilmiş imtiyazları təyin və onla əməl etmək necə təşkil edilməlidir? Məsələn, ancaq universitet i çilərinə xidmət edilirmi? Buraya ancaq daimi işləyən işçilər (şt vahidləri) aiddirmi, universitetə ezamiyyətə gələn işçilər bura daxildirmi? Universitetin fəxri üzvlərinə (doktorlarına) xidm



edilirmi? Əlaqədar universitetin bütün tələbələrinə, yoxsa lisenziyalaşdırılmış resursun tematikasına uyğun olan fakültələrin tələbələrinə xidmət edilir? İstifadə yerinə görə məhdudiyyət qoyulurmu? İstifadəçilərin avtomatlaşdırılmış işçi yerləri ərazi üzrə necə yerləşdirilmişdir və avadanlıqlarla necə təchiz edilmişdir? Kitabxananın qeydiyyatdan keçmiş işçilərinə necə xidmət etməli?

2. İstifadə yerinə görə məhdudiyyət. Ən məqsədəuyğun variant ancaq kitabxananın binası daxilində istifadədir. Lakin bu tədbir tələbələr və əməkdaşlar üçün heç də həmişə əlverişli deyil. Buna görə də əlaqədar universitetin bütün ərazisindən elektron resursa müraciət etmək üçün imkan yaradılmalıdır. Tələbə yataqxanalarından, müəyyən ərazidən elektron resurslara müraciətin təşkil edilməsi lisenziya müqaviləsində nəzərə alınmalıdır.

3. Lisenziya müqaviləsinin mətnində yazılmış xüsusi şərtlər və qeydlər. Müqavilədə lisenziya resursunun istifadə qaydalarının müəyyən edilməsi mürəkkəb məsələdir. Mütəxəssislərin fikrinə görə mövcud lisenziyalarda mənfi cəhət xüsusi şərtlərin çoxunun naşirə, yəni onun hüququnun təmin edilməsinə yönəlməsidir. Əyani olmaq üçün nümunəvi lisenziyanın [1] «xüsusi şərtlər» bölməsinin bir hissəsini qeyd edək. Bu hissə müəyyən məqalənin hər hansı bir hissəsini mühafizə etmək üçün icazə almaq məsələsinə aiddir: Fotosurətlərin, cədvəllərin, məqalə siyahılarının istifadəsinin yuxarıda verilən hallar istisna olmaqla naşirin razılığı olmadan məqalənin heç bir hissəsi kompüter sistemində nümayiş və mühafizə edilə bilməz və ya hər hansı digər üsullarla yayıla bilməz.

4. Texniki problemlər. Elektron resursun istifadəsinə dair müəyyən kitabxana ilə lisenziya müqaviləsi bağlamış naşiri hətta kitabxananın icazəsi olsa da, texniki vasitələri qaydasında olmayan istifadəçiyə həmin resursdan istifadəyə icazə vermir. Elektron resurslardan istifadənin müxtəlif tipli və məzmunlu lisenziya müqavilələrinin olmasına baxmayaraq onlar getdikcə vahid formaya gətirilir və sayca ixtisar olunur. Aparat-proqram vasitələri də vahidləşmə istiqamətində inkişaf edir. Hazırda istifadəçinin

marağını və naşirlərin imkanlarını nəzərə alan 4 tip standart li-senziya müqaviləsinin modeli işlənmişdir:

1. Ayrıca tədris və elmi idarələr üçün; 2. Elmi idarələr kon-sorsiumu üçün; 3. Ümumi, kütləvi və xüsusi dövlət kitabxanaları üçün; 4. Kommersiya, şirkət, kompaniya və digər sahibkar qu-rumların kitabxanaları üçün.

Hazırda əsas problem kitabxanaların, yaxud digər istifadə-çilərin naşirlərlə müəlliflik hüququ baxımından münasibətləri tən-zim etmək deyil, müəlliflərlə naşirlərin münasibətlərinin səmərəl-i təşkili problemidir.

Elektron kitabların və bu növə daxil edilən digər birdəfəlik nəşrlərin (soraq kitabları, lüğətlər və s.)kitabxana fondlarına alınması həm qiymət, həm də komplektləşdirmə mexanizmi ba-xımından xüsusi problem yaratmır. Çünki onların komplektləşdi-rilməsi çap kitablarının komplektləşdirilməsi prosedurasına ya-xındır. Lakin elektron kitabların qiymətləri nisbətən bahadır. Elektron kitabların formaları və alınması haqda yuxarıda qısaca deyildi.

Nisbətən mürəkkəb və hələlik tam araşdırılmamış, həll edilməmiş problem elektron jurnallara qiymətqoyma problemi-dir. Bu istiqamətdə naşirlər müxtəlif modelləri təcrübədən keçirir. Məsələn: elektron versiyanın çap versiyası ilə əlaqələndirilməsi, birləşdirilməsi; jurnalların mümkün istifadə yerinin lisenziyalaşdı-rılması; kitabxana konsorsiumları üçün xüsusi qiymətlər qoyul-ması [5] və s.

Elektron jurnallara abunə qiymətini müəyyən edərkən əla-qədar naşir bir qayda olaraq, informasiya bazarında öz yerini qo-ruyub saxlamağa və ənənəvi (çap) nəşrlərdən gəlir əldə etməyə çalışır. Belə ki, elektron jurnalların abunə qiymətləri çap jurnalla-rına nisbətən bahadır, lakin onlar vasitəsilə operativ və daha ge-niş dairədə yəni uzaq məsafədən şəbəkə vasitəsilə müraciət etmək və bazar rəqabətində davam gətirmək mümkündür. Bazarda isə iqtisadi vəziyyət getdikcə çətinləşir: jurnallar getdikcə bahalaşır, kitabxanaların lazımi abunə vəsaiti çatmır və buna görə də abu-nəçilərin çayı getdikcə azalır. Bütün bunlara görə bir sıra yeni



qiymətqoyma strategiyası işlənib tətbiq edilir. Bunlar əsasən aşağıdakılardır:

1. Elektron və çap jurnallarının ayrılmaz kombinasiyası. Belə halda elektron versiyasının qiyməti qəsdən ayrılmır. Bu stra-tegiyanı kitabxanalar daha çox dəstəkləyir;

2. Elektron və çap versiyasının kombinasiyası. Belə halda elektron versiyanın abunəsi üçün 1 çap vahidinin qiymətinə 10%-dən 20%-ə qədər əlavə edilir.

3. Jurnalın elektron versiyasına ayrıca abunə yazılışı. Belə halda çap versiyasına abunə qiymətindən 90-95% artıq qiymət əlavə edilir. Bu strategiya nəşriyyatlar və abunə agentlikləri tərəfindən bəyənilir, kitabxanalarda isə dəstəklənmir.

4. Kitabxana konsorsiumlarına elektron jurnallara abunə üçün xüsusi qiymətlər müəyyən etməyə çalışırlar. Bu istiqamətdə bir neçə ümumi cəhətləri qeyd etmək olar:

a) çap versiyasının qiymətinə əlavələr konsorsiumun üzvlə-rinə müqavilədə müəyyən edilmiş əlaqədar jurnalın elektron ver-siyalarına, bəzən də həmin nəşriyyatın bütün elektron publikasiy-alarından istifadə hüququ vardır;

b) çap versiyasına abunə qiyməti baza qiyməti kimi götürülür, elektron versiyaya 15-20% əlavə edilir;

c) müqavilə 3 il müddətinə bağlanılır;

d) bəzən konsorsiumun üzvü olan kitabxanaların sayına münasib olaraq abunə qiymətində güzəştlər edilir;

e) bəzən jurnalın elektron versiyasına abunə qiyməti baza qiyməti kimi götürülür və bununla çap versiyasının abunə qiymə-tində xeyli güzəşt edilir, yəni ancaq alıcının istəyi nəzərə alınır;

5. Ayrıca məsələlərlə təchizetmə metodu (metod «Plati za prosmotr»). Bu metoddan istifadə etdikdə abunə qiyməti 16-20 dollar arasında dəyişir.

6. Müəyyən jurnal məqaləsinin dərc edilməsi üçün kitabxa-nadan və oxuculardan deyil, müəllifdən (müəlliflərdən) pul al-maq. Bir sıra naşirlər bu metoddan istifadə edir. Belə halda abu-nə üçün verilmiş pullardan 15-20%-i müəllifə (müəlliflərə) verilir. Məsələn, 1998-ci ildən buraxılan "New Journal physics"-in (Yeni

fizika jurnalı) çapında bu metod tətbiq edilir [4, c.132]. Bu jurna ABŞ Fizika İnstitutu və Almaniya Fiziklər Cəmiyyəti tərəfində nəşr edilir. Müəlliflərin sayından asılı olmayaraq 1 məqaləni dərci üçün 500 dollar pul ödənilir. Jurnalın abunəçilərinin sayın dan asılı olaraq satışdan müəlliflərə 10-12% pul ödənilir.

7. Digər qiymətqoyma metodları da vardır. Məsələn:

- müəyyən naşirin bütün jurnallarından əlaqədar mövzuda seçilmiş məqalələr toplusuna (paketinə) qoyulan qiymət. Bununla sifarişə uyğun olaraq ya elektron, ya da çap versiyası, yaxud hə iki versiya abunəçiyə verilə bilər.

- abunəçi olan müəyyən idarədə ştatda olan əməkdaşların sayını ya elektron materiallardan eyni vaxtda (paralel) istifadə edən şəxslərin sayını, ya da həmin idarədən internetə müraciət edən işçi stansiyaların ümumi sayını nəzərə alaraq qoyulan abunə qiyməti.

- proqram təminatına abunəçinin əlavə ödənişi. Bu qiymət də abunə qiymətinə əlavə edilir.

Elektron jurnala abunə yazılan kitabxana və ya hər hansı bir şəxs ona baxa (oxuya), axtarış apara və ehtiyacına uyğun olaraq öz kompüterinə köçürə bilər. Kitabxanalar üçün əhəmiyyətli olan digər cəhətlər də vardır. Məsələn, əlaqədar kitabxana abunə yazıldığı elektron jurnalları pullu kitabxanalararası abonement üçün istifadə edə bilər. Abunə müddəti qurtardıqdan sonra da həmin jurnallardan istifadə edə bilər, öz elektron kitabxanasında onların arxivini yarada bilər. və s.

Elektron nəşrlərin və sənədlərin, ümumiyyətlə elektron resursların kitabxanalarda mühafizəsindən danışarkən qeyd etməliyik ki, burada müxtəlif üsullar tətbiq edilir:

Optik disklərdə (məsələn: CD-ROM) olan elektron kitablar, jurnallar və digər belə sənədlərin çap əsərləri kimi biblioqrafik təsviri verilir [6], əlaqədar kitabxananın kartoçka və elektron kataloquna qoyulur. Bu növ sənədlərin özləri isə xüsusi qutularda mühafizə edilir. Hər bir optik diskin üzərinə etiket yapışdırılır və nəşrin adı buraya yazılır. Digər elektron resurslar (şəbəkə resursları) elektron kitabxanada ayrı-ayrı fayllar formasında mühafizə



edilir. Kitabxananın elektron kataloqunda əlaqədar faylın ünvanı, adı, ona müraciət rejimi qeyd edilir [7]. Bəzən elə olur ki, müəyyən kitabxananın komplektləşdirdiyi elektron sənədlər əlaqədar informasiya təchizatçısının elektron kitabxanasında saxlanılır, onların axtarış əlamətləri isə əlaqədar kitabxananın elektron kataloqunda mühafizə edilir.

## ƏDƏBİYYAT


*1. Хаависто Т. Лицензирование и публичные библиотеки// Науч. и техн. б-ки, 2001.-№3.-С.107-113;*

*2. Серго А. Лицензионное соглащение библиотеки// Науч. и техн. б-ки.- 2002.-№3.-С. 17-23.*

*3. Евстигнеева Г.А., А.И. Электронные версии депозитарных фондов научных библиотек// Науч. и техн. б-ки.- 2003.-№7.-С.5-21.*

*4. Шрайберг Я.Л., Земсков А.И. Электронные библиотеки: Учебник.-М., 2003.-352 с.*

*5. Мэррей Р. Компоненты цифровой библиотеки и их взаимодействие// Науч. и. техн. б-ки.-2000.-№ 6.-С.56-68.*

*6. ГОСТ 7.1.2003. Система стандартов по информации, библиотечному и издательскому делу. библиографическая запись. Библиографическое описание. Введ. 01.01.2004.-М., 2004.-47с.*

*7. ГОСТ 7.1.2001. Система стандартов по информации, библиотечному и издательскому делу. Электронные издания. Основные виды и выходные сведения. Введ. 01.01.2002.-М., 2002.-26с.*

*Али Рустамов*
*Нурия Мустафаева*

# ПРОБЛЕМЫ ЭЛЕКТРОННЫХ БИБЛИОТЕК

## *(Третая статья)*

## *Некоторые вопросы комплектования электронных библиотек*

## *РЕЗЮМЕ*

*В статье описываются основные источники комплектования электронных библиотек. Выделяются следующие ресурсы: портативные, удаленные и оцифицированные в самой библиотеке. Приводится методы и технологии комплектования этих ресурсов. Особое внимания уделяется лицензированному доступу электронных журналов, типам и структурам лицензионных соглашений.*

**Xəlil İSMAYILOV**
*Tarix elmləri doktoru,*
*professor*

## KİTABXANA İŞÇİLƏRİNİN FASİLƏSİZ TƏHSİLƏ CƏLB EDİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

XX əsrin 60-cı illərindən başlayaraq bir çox ixtisas sahibləri o cümlədən kitabxana-informasiya müəssisələrinin işçiləri fasiləsiz təhsil sisteminin onların fəaliyyətində zəruri olduğunu, ixtisas vərdişlərinin və ixtisasartırmanın onların fəaliyyətinə müsbət təsir edəcəyi qənaətinə gəlmişlər. Dünyanın bir sıra inkişaf etmiş ölkələrində o cümlədən keçmiş SSRİ-də həmçinin respublikamızda fasiləsiz təhsil sisteminin yeni konsepsiyası yaranmağa və inkişaf etməyə başlamışdır. Fasiləsiz təhsil konsepsiyası hazırda hərtərəfli nəzəri əsaslara söykənərək bir çox ölkələrdə tətbiq olunmağa başlamışdır.

Kitabxana-informasiya işçilərinin fasiləsiz təhsil sisteminə cəlb olunması ayrı-ayrı tədqiqatlarda və dərc olunmuş materiallarda müxtəlif variantlar və fikirlər səslənir. Xüsusilə "fasiləsiz təhsil"də termin kimi fikir müxtəlifliyi mövcuddur. Kitabxana informasiya müəssisələrinin işçiləri üçün (Guidelines for Quality in Continuing Education for Information, Library and Media Personnel) fasiləsiz təhsil sisteminə rəhbərlik, Amerika Kitabxanaçılar Assosiasiyası (ABA) tərəfindən 1988-ci ildə xüsusi təlimatla hazırlanmış və nəşr edilmişdir.

Hazırlanmış bu sənəddə aşağıdakı təsəvvür müəyyənləşdirilmiş və onun izahı verilmişdir. Fasiləsiz təhsil özündə təlim prosesi haqqında təsəvvür yaradır, hansı ki, əvvəl əldə edilən bilik, bacarıq və şəxsi təsəvvür əsasında formalaşmış ixtisas biliklərinin müasir tələblər baxımından mənimsənilməsi kimi başa düşülür. Fasiləsiz təhsil zamanı ixtisas təhsili əsas götürülməklə onların kitabxana-informasiya işində iştirakı nəzərə alınacaq kitabxana

informasiya, xüsusilə yeni kitabxana texnologiyaları baxımınd
öyrənilməlidir.

Qabaqcıl ölkələrdə kitabaxana-informasiya işçilərinin ixt
sasının artırılması adətən hər bir fərdin şəxsi təşəbbüsü ilə ay
ayrı yeni texnologiyalar və proqramlar üzrə həyata keçirilir. B
ixtisasartırmalar əksər ölkələrdə ödənişli əsaslarla həyata keçiril
Bir sıra ölkələrdə xüsusilə ABŞ-da, Fransada bu sahəyə xüsu
diqqət yetirilir, dövlət səvyyəsində bu işə nəzarət edilir və diqq
yetirilir.

Amerikada Karneqi fondu (Kitabxana informasiya pr
blemləri üzrə elmi mərkəz) bu sahədə çox böyük işlər həyata ke
rir, onun müxtəlif ştatlarda filialları fəaliyyət göstərir, yeni texn
logiyaların tətbiqi sahəsində sayılan aparıcı müəssisələrdən bi
dir. Bu təşkilatın külli miqdarda vəsaiti var. Karneqi fondu "İ
LA-nın" Amerika hökumətinin və konqresin qərarına uyğun o
raq kitabxana-informasiya problemlərinin həllində, texnol
proseslərin tənzimlənməsində aparıcı mövqeyə malikdir. İnkiş
etmiş ölkələrdə bu mərkəzlər ayrı-ayrı idarə, müəssisə və təşkil
ların təşəbbüsü və sifarişi ilə dinləyiciləri qəbul edir. Bu təh
formasına bizim ölkəmizdəki təhsil formasından fərqli olar
müəssisələrin və mütəxəssislərin özləri təşəbbüs göstərirlər. H
də müəssisə və mütəxəssisin təşəbbüsü ilə aparılan öyrətmə form
sı mütəxəssisin ixtisasını artırmasından daha geniş məvhumd
Belə təhsil artırma mütəxəssisin professional səviyyəsini artırm
məqsədilə aparılan və xüsusi bir proqramın öyrənilməsinə h
olunur. Belə təhsil formaları 3-5 illik və daha çox müddətə nəz
də tutula bilər. Amerikada bu təhsil forması (staff developme
proqramı çərçivəsində və çox geniş və əhatəli aparılır.

Bu proqramda təkcə kitabxana informasiya məsələl
yox, işçilərin mütəxəssis kimi peşəkarlıq səviyyəsinin yüksəldilm
sində xüsusi peşəkarlığa malik mütəxəssislərin bilik və bacarığı
əsaslanan vərdişlərin mənimsənilməsi kimi başa düşülür. Fasilə
təhsil proqramlarında müntəzəm olaraq iştirak etmək mütəxəss
lərə özlərinin professional hazırlıqlarını təkmilləşdirməyə imk
verir. Yeni biliklərin, vərdişlərin və ideyaların əldə edilmə



mütəxəssislərin öz vəzifə borclarını yeni və mötəbər elmi əsaslarla qurmağa imkan verir, kitabxana-informasiya fəaliyyətində ixtisaslaşmasına kömək edir, əldə olunmuş yeni bilik və bacarıq ona zövq verir.

Beləliklə fasiləsiz təhsil təkcə mühazirə və seminarların dinlənilməsi deyil, əsasən yeni avadanlıqların, texnika və texnologiyaların iş metodlarının mənimsənilməsi, bilik və bacarıqların təcrübədə tətbiq edilməsi kimi başa düşülməlidir.

Görkəmli kitabxanaşünas, tanınmış amerika mütəxəssisi "fasiləsiz təhsil"lə bağlı bir çox məqalələrin müəllifi daha başqa bir təklif irəli sürür. Bu fikir belə bir nöqteyi-nəzərdən irəli sürülür ki, "fasiləsiz təhsil işinə maraq" ("continuing education for the profession") çərçivəsində onun əhəmiyyəti bütün mütəxəssislər üçün həyatı boyu olmalıdır. Kitabxana işçilərinin fasiləsiz təhsilə cəlb olunması yeni şəraitdə onların professionallıq və peşəkarlıq səviyyəsinin artırılması deməkdir.

Müasir cəmiyyətdə baş verən texniki tərəqqi siyasi iqtisadi dəyişikliklər, ictimai həyatımıza xüsusi təsir göstərir. Mütəxəssislərin fikrincə işçilərin peşəkarlıq səviyyəsinin saxlanılması və daha da təkmilləşdirilməsi belə, yeni bir şəraitdə daha da çətinləşir.

İndiki şəraitdə fəaliyyət sahələrində peşəkarlıq səviyyəsində köhnəlmə olduğu üçün bütün işçilər yeniləşmə və təkmilləşməyə can atırlar. Bu yeniləşmə informasiya sahəsində daha çox tələb olunur, ona görə ki, bütün informasiya daşıyıcılarının saxlanılması və tələbatçılara çatdırılması çox yüksək templə inkişaf edir.

Uzun illər belə bir fikir formalaşmışdır ki, mütəxəssislərin təhsil dövründə aldıqları biliklər onlara bütün fəaliyyəti boyu kifayətdir və onların normal əmək fəaliyyəti üçün bəs edər.

Görkəmli Amerikan alimi fasiləsiz təhsil xidməti üzrə, ABŞ Viskonsin Universitetinin Kitabxanaşünaslıq və informatika məktəbinin rəhbəri, Kitabxanaşünaslığın aktual problemləri üzrə bir çox kitabların və məqalələrin müəllifi Darlin E. Ueynqand belə bir fikrin düzgün olmadığını təsdiq edir və göstə-

rir ki, belə bir fikir əvvəllər də düzgün hesab edilmirdi, informasiyanın sürətli inkişafı dövründə xüsusilə bu səhv fikirdir.

İnformasiya texnologiyalarının sürətlə inkişaf etdiyi və kitabxanalarda tətbiq edildiyi bir dövrdə hər bir məzun dərk etməlidir ki, təhsil dövründə əldə edilən biliklər müəyyən müddətdən sonra köhnəlir və yeni biliklərin əldə edilməsinə ciddi ehtiyac vardır.

İxtisasartırma proqramlarında iştirak etməkdə məqsəd öz işini peşəkarlıqla yerinə yetirmək üçün nəzəri biliklərlə yanaşı təcrübü biliklərin sintezi əsasında ümumi tələbata cavab verən mütəxəssislərin formalaşması kimi başa düşülməlidir.

İndiki elektronika əsrində fasiləsiz kitabxanaçılar təhsilinin əhəmiyyəti daha da artır, dəyişən əmək şəraitinə uyğun olaraq yeni texnika və texnologiyaların mənimsənilməsi mühüm tələblərinə çevrilir.

Mötəbər kitabxanaçılıq mətbuatının səhifələrində belə bir fikir müzakirə olunur ki, kitabxanaların inkişafında ənənəvi kitabxana fəaliyyəti dəyişərək elektron və virtual ("divarsız kitabxanalar") kitabxanalar, hansı ki, telekommunikasiya vasitələrilə internet şəbəkə daxilində bütün dünya kitabxanalarından istifadə etmək imkanı mümkün olacaq. Kopenhagendəki (Danimarka) Korolev kitabxanaçılıq məktəbinin məsləhətləşmə şurasının rəhbəri Yens Torxauqe göstərir ki, virtual kitabxanaların yaradılması hərəkatı bir sıra tarixi dəyişikliklərlə yanaşı, həm də yerli və milli xüsusiyyətlər nəzərə alınmaqla müxtəlif ölkələrdə yerinə yetirilə bilər. Mütəxəssislərin fikrincə XXI əsrin əvvəllərindən daha müasir texnologiyalardan istifadə etməklə dünyada ən yeni kompüter xidmətindən istifadə edəcəklər. Qeyd etmək lazımdır ki, bütün inkişaf etmiş ölkələrdə hazırda bu şərait və imkan o qədər də geniş inkişaf etməmişdir. Göstərmək lazımdır ki, hazırda Danimarkada 40 faizdən çox ailələrdə şəxsi kompüterlərdən istifadə edilir. Lakin bunların da hamısının şəbəkəyə qoşulmaq üçün modemləri yoxdur. Şərqi Avropa ölkələrində əhalinin çox cüzi bir hissəsi yeni kitabxana texnologiyaları ilə tanışdırlar, başqa dünya



ölkələri isə milli kitabxanaların məlumatları ilə ümumiyyətlə tanış deyillər və buna imkanları da çatmır.

Doğrudur kitabxana işçilərinin peşəkarlıq səviyyəsi əvvəlki ənənəvi fəaliyyətlərindən ciddi surətdə fərqlənir. Y.Torxauqe təsdiqləyir ki, elektron texnologiyalarını mənimsəmək baxımından peşəkar kitabxanaçıların bu işə hazır olmasını tələb edir. O, İFLA-nın (İstanbul Türkiyə, 1995-ci il) baş konfransında etdiyi məruzədə göstərir ki, mütəxəssislərin peşə fəaliyyətlərinin rolunun dəyişməsində kitabxana işi və informasiya mütəxəssislərinin bir neçə yeni funksiyalarının müəyyənləşdirdiyini qeyd edir.

Kitabxana işlərinin ənənəvi vəzifələrindən biri fondun saxlanılması olmuşdur. Bu zaman kitablar olduqca az, informasiyadan istifadə lazımi səviyyədə deyildi. İndiki zamanda isə kitablar və informasiya bolluğu dövründə kitabxana işçilərinin yeni vəzifələri müəyyənləşmişdir. Belə ki, Y.Torxauqe göstərir ki, indiki elektron kitabxanaların əməkdaşları kitabxana işçiləri yeni vəzifələri informasiya üzrə məsləhətçilər, (information consuetont) və sistem üzrə menecer (sistem manaqer) və s. bu kimi vəzifələr də yerinə yetirməlidirlər.

Virtual kitabxana sistemləri formalaşdığı bir şəraitdə kitabxanaçılar, tələbatçılar və informasiya mənbələri arasında vasitəçi roluna malik olmalı, yeni informasiya texnologiyalarının mənimsənilməsində onlara yardımçı olmalıdırlar. Bu zamanın tələbidir. Yeni kitabxana texnologiyalarının tətbiq olunduğu bir zamanda hər bir kitabxanaçı bu texnologiyaları öyrənməli, bilməli və onlardan istifadəni bacarmalıdır.

Bir çox görkəmli kitabxanaşünas alimlər məqalələrində gələcək kitabxanaların hansı keyfiyyətlərə malik olmasını göstərirlər. Onların demək olar hamısı göstərir ki, XXI əsrin kitabxanaçıları bu mühüm keyfiyyətlərdən fərqli olaraq yeni biliklərə və bacarıqlara malik olmaqla çap olunmuş materiallarla yanaşı informasiya ehtiyatlarından rəqəmli formada istifadə etməyi bacaran mütəxəssislər olmalıdır. Hazırda Azərbaycanda kitabxana işçilərinin fasiləsiz təhsil sisteminə cəlb olunması sahəsində müəyyən işlər görülür. Demək olar ki, ayrı-ayrı şəbəkələr və na-

zirliklər üzrə kitabxanaçıların ixtisasartırma sistemi yaradılıt Vaxtaşırı bütün kitabxana işçiləri ixtisasartırma kurslarına cəl edilirlər. Son illərdə Respublikamızda yaradılan Azərbaycan Ki tabxana İşinin İnkişafı Assosiasiyası Soros və Avrasiya beynə xalq təşkilatları maliyyə yardımı ilə yeni kitabxana texnologiyalı rına həsr olunmuş 15 günlük kurs "Treninq" keçirilmiş, onlar beynəlxalq dərəcəli sertifikatlar verilmişdir. Bu ixtisasartırm kursları Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiy fakültəsində kompüter sinfində aparılmışdır.

Yeni tipli kurslar uzun müddətdir ki, beynəlxalq təşkila ların maliyyə dəstəyi ilə M.F.Axundov adına Milli Kitabxanad ardıcıl olaraq aparılır. Mütəxəssislər xüsusi proqram əsasınd menecment, Kitabxana proqramları, internet və kitabxana, yeı kitabxana texnologiyaları və s. mövzular üzrə öz ixtisaslarını art rırlar.

Amerika Səfirliyinin Region Kitabxanaları inkişaf proqra mının əməkdaşları bir sıra rayonlarda yeni mərkəzlər yaratmış yeni biliklərin öyrədilməsi və təbliğ edilməsində xeyli işlər görmü şlər. Aparılan bu kimi tədbirlər çox müsbət nəticə vermişdir.

Bundan başqa Amerika Səfirliyi tərəfindən kitabxana işçi lərinin ixtisasının artırılması ardıcıl olaraq aparılır, MKS-ləri nəzdində xüsusi mərkəzlər yaradılaraq onlara yeni texnologiya ların mənimsənilməsində yardım göstərilir.

Respublikamızda Mədəniyyət Nazirliyi Sistemində olaı kitabxana işçiləri üçün xüsusi ixtisasartırma kursu fəaliyyət göstə rir və ardıcıl olaraq kitabxana işçiləri 3-5 ildən bir bu kursa cəl edilirlər. Bundan başqa bir sıra kitabxana şəbəkələri və sistemlə rinin işçiləri üçün kurslar, qısa müddətli Treninqlər və praktikun da aparılır. Lakin bütün bunlar bizə belə gəlir ki, kitabxanaları bu mühüm tələbatını ödəyə bilməz. Bunun dünya təcrübəsini özündə birləşdirən yeni kitabxana texnologiyalarına uyğun kurs lar, ixtisaslaşmalar üzrə aparılmalıdır. Xüsusilə kompüter texno logiyalarının və kitabxana proqramlarından baş çıxaran mütəxəs sislər tədrisin təşkilində yaxından iştirak etməlidirlər.



Respublikamızın Milli Kitabxanasının qabaqcıl və aparıcı işçiləri həm də müxtəlif ölkələrdə xüsusi "Treninq" keçmiş mütəxəssislər, aparıcı mütəxəssislər BDU-nun professor və müəllimləri və s. mütəxəssislər bu işə cəlb olunmalıdır.

Respublika səviyyəli aparıcı kitabxanaların elmi-metodiki şöbələrinin işçiləri bu sahədə aparıcı mövqeyə malik olmalı bu işdə fəallıq göstərməlidirlər.

Bu həm də elmi-metodiki şöbənin vəzifə borcudur. Bütün yeniliklər və qabaqcıl iş təcrübəsi bu şöbə vasitəsilə ümumiləşdirilməli və yayılmalıdır. Son illərdə bu sahədə beynəlxalq təşkilatların da rolunu xüsusi qeyd etməliyik. Soros fondu, Avrasiya fondu, Aysar cəmiyyəti, beynəlxalq bank və s. bu kimi təşkilatlar Azərbaycanda kitabxana işinin inkişafına yardım göstərirlər. Amerika səfirliyi onun elmi mərkəzi bu sahədə xüsusi fəallıq göstərirlər. Bu fəaliyyətin həyata keçirilməsində AKİİA-nın rolu böyükdür. İstər Respublikamızda istərsə də kənarda yeni bilik və vərdişlərin yiyələnməsində Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının vasitəçilik və təşkilatçılıq missiyası böyükdür. Xüsusilə İFLA-nın beynəlxalq konfranslarında, Litva, Gürcüstan və digər MDB məkanında Azərbaycan Kitabxana işçilərinin iş təcrübəsi ilə tanışlığı Assosiasiyanın aparıcı işlərinin nəticələrindəndir.

Bizə belə gəlir ki, Azərbaycanda kitabxana işinin inkişafı konsepsiyası hazırlanmalı və bütün kitabxana şəbəkələri və sistemlərinin gələcək fəaliyyətini proqnozlaşdıran sənəd kimi qəbul olunmalıdır. Respublika Nazirlər Kabineti və Mədəniyyət Nazirliyi bu işi öz üzərinə götürməlidir.

Dünyada kitabxana işi sahəsində çox güclü tərəqqi, irəliləyiş və yeniliklər çox sürətlə inkişaf edir. Dünyada baş verən bu proseslərdən qətiyyən kənarda qalmaq olmaz.

Xarici ölkələrin kitabxana-informasiya mütəxəssisləri kitabxana müəssisələrinin fəaliyyətinə və vəzifələrinə tamamilə yeni prizmadan informasiya müəssisəsi kimi baxır.

Xarici mütəxəssislər ənənəvi kitabxana müəssisələrinin yeni modelini, kitabxana kimi fəaliyyətini (bina kimi) kitabxana

informasiya xidmətinin yeniləşməsini nəzərə almaqla yeni kitab xana peşəsini yeniləşdirərək – kiberprofessor (cyberprofession kimi mövcudluğunu təklif edirlər. Əlbəttə, bu o demək deyil ki bizim təsəvvür etdiyimiz kitabxana müəssisəsi yaxın gələcəkd yox olur, lakin elektron və rəqəmli informasiyaların yazılması, el bir mərhələyə çatmalıdır ki, yeni tipli «elektron və virtual» kitab xanaların yaradılmasına yəni internet ehtiyatlarından istifadəy imkan versin.

Bütün bunlar kitabxana sahəsində baş verən yeniliklər ki mi ixtisasartırma kurslarının başlıca mövzularından olmalıdır.

Görkəmli kitabxanaşünas alim Y.Torxauqe və Amerik kitabxanaçılar Assosiasiyasının icraçı direktoru Elizabet Mart nez öz məqalələrində qeyd edirlər ki, XXI əsrdə kitabxana işçilə rinin rus və ingilis dillərində «kiberotekari» (cubrarians), «inter navtı» (internauts) və ya kibernavtı (cubernauts) kimi yeni peş vəzifələrinin müəyyənləşdirilməsi gözlənilir.

Ona görə də kitabxanaçılıq ixtisası üzrə məzunlar yeni pe şə xüsusiyyətlərinə malik kadrlar kimi formalaşmalı tədris prose sində onlar müvafiq peşələrə yiyələnməlidirlər. Kitabxanaçılı sahəsində oxuyan tələbələr xüsusi kompüter savadına, təşkilatçı lıq qabiliyyətinə malik olmalı, kitabxanaçılar isə bu keyfiyyətlə müntəzəm öyrənməlidirlər.

## ƏDƏBİYYAT


*1. Библиотечно-библиографическое образование // "Биб лиотечное дело на пороге XXI века": Тез. докл. и сообщ. межд народной науч. конф. (Москва, 15-16 апр. 1998 г.). –М.: МГУК 1998.– Ч. 2. разд. VII.– С. 68 – 132*

*2. Дрешер Ю.Н. Повышение квалификации библиотечны кадров за рубежом // Науч. и техн. б-ки. – 1996.- № 9. – С. 38-4*

*3. Пушкова С.В. Непрерывное образование библиотечны работников в США // Библиотековедение и библиогр. за рубе жом. – М.: Книжная палата, 1991. – Вып. 128. – С. 60-71*





*4. İsmayılov. X. Azərbaycan Respublikasında Kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000-ci illər): Monoqrafiya.-B.: Bakı Universiteti Nəşriyyatı, 2000.-450 s.*

*5. Martinez E. The education of librarians: What is ALA's role //Amer. libr.-1997.-Vol.27, №1.-P.28*

*6. Thorhauge J. The changing role of the library and information professional.-1995.-7p.-(171-LTR(WS)-10/PUB-16-E)*


**_Халил Исмаилов_**

## НЕКОТОРЫЕ ВОПРОСЫ ПРИВЛЕЧЕНИЯ БИБЛИОТЕЧНЫХ РАБОТНИКОВ НА НЕПРЕРЫВНОЕ ОБРАЗОВАНИЕ

### *РЕЗЮМЕ*


***Статья посвящена проблеме непрерывного профессионального образования библиотечных специалистов в современных условиях. Особенное внимание уделено опыту библиотечных организации США и стран Западной Европы. В статье также подробно рассмотрены рекомендации ИФЛА по этому вопросу и обозначены основные задачи непрерывного образования библиотечных специалистов в нашей Республике.***

**Knyaz ASLAN**
*Pedaqoji elmlər namizədi, dosent*

## OXUCULARIN ESTETİK TƏRBİYƏSİNDƏ KİTAB VƏ MÜTALİƏNİN ROLU

Estetik tərbiyə problemi ən qədim zamanlardan filosofların diqqət məkəzində dayanmış, cəmiyyəti daim düşündürən bu vacib məsələyə dair çoxlu elmi əsərlər yazılmışdır. Bununla belə, sivilizasiyanın inkişafı bütün dövrlərdə bu mövzuya zaman-zaman yeni-yeni çalarlar əlavə etmiş, bəşəriyyətin tərəqqisində onun müasirləşən roluilə bağlı müxtəlif elmi nəzəriyyələr yaradılmış, gənc nəslin mənəvi-estetik tərbiyəsi, bədii zövqlərinin formalaşması, mədəni-əxlaqi vərdişlərə yiyələnməsi prosesinə təsir göstərən amillərlə əlaqədar bir çox mülahizələr irəli sürülmüşdür.

Estetik tərbiyə mahiyyət etibarilə ümumi tərbiyə işi ilə sıx surətdə əlaqədardır və insan tərbiyəsini tamamlayan bir sahədir. Ailədə, bağçada, məktəbdə və kitabxanada aparılan estetik tərbiyə ümumi tərbiyə işinin bünövrəsidir.

Azərbaycanın müstəqilliyi, milli dövlətçiliyimizin dirçəldiyi bir şəraitdə mənəvi-estetik dəyərlərin yeni məna və məzmun daşıması bu problemin aktuallığını bir daha təsdiqləyir. Çünki uşaq və gənclərin yetkin mənəvi simasını formalaşdırmadan, onları fəal həyat mövqeyinə çıxarmadan, cəmiyyətin ləyaqətli qurucusu kimi yetişdirmədən, kamil şəxsiyyətlərə çevirmədən suveren dövlətin inkişafına və beynəlxalq aləmdə nüfuz qazanmasına nail olmaq mümkün deyil. Bununla yanaşı, düzgün həyat yolu seçmək, qüvvəsini, bacarığını, istedadını və qabiliyyətini nəcib əməllər uğrunda mübarizəyə həsr edə bilmək ilk növbədə insanın öz əxlaqi borcunu necə başa düşməsindən, mənəvi-estetik tərbiyəsinin səviyyəsindən asılıdır.

İlk növbədə belə bir suala qısaca cavab verək: «Müasir oxucuların estetik tərbiyəsi sahəsində kitabxanaların əsas vəzifələri hansılardır?» Cavabı bu cür quplaşdırmaq və ifadə etmək məqsədəuyğundur: oxucuları keçmiş və müasir dövrlərin zəngin



bədii sərvətləri ilə tanış etmək; milli və xarici incəsənətin humanist və beynəlmiləl ənənələrini aşkara çıxarmaq və təbliğ etmək; ədəbi-bədii tənqidin, ədəbiyyatşünaslığın, sənətşünaslığın, estetikanın ən yaxşı nümunələrini geniş şəkildə təbliğ etmək; incəsənətin ayrı-ayrı növlərinin və janrlarının komleks təbliği və onların qarşılıqlı əlaqəsi, qarşılıqlı təsiri, qarşılıqlı zənginləşməsi yolu ilə oxucuların estetik səviyyəsini və bədii qavrayış mədəniyyətini yüksəltmək.

Elmi-nəzəri ədəbiyyatda göstərildiyi kimi, kitabxana işində oxucuların estetik tərbiyəsi üzrə əsasən iki cəhət ayrılmaz şəkildə bir-biri ilə bağlıdır. Onlardan birincisini estetik təhsil və ya maarifləndirmə, ikincisini isə estetik zövqün tərbiyəsi adlandırmaq olar.

Estetik təhsil estetika sahəsində konkret biliklərin qazanılması vasitəsilə oxuculara kömək göstərilməsidir. Burada söhbət, hər şeydən əvvəl, bədii mədəniyyət tarixi haqqında, o cümlədən bədii ədəbiyyat, təsviri incəsənət, teatr, musiqi, kino və s. kimi incəsənət növlərinin tarixi haqqında, həmçinin incəsənətin əsas inkişaf qanunlarını, istiqamətlərini, məktəblərini, üslublarını və s. dərindən bilməkdən gedir. Estetik maarifləndirmə oxucuların estetika sahəsində elə konkret biliklər qazanmasına kömək etmək deməkdir ki, onlarsız gözəllik qanunları ilə dünyaya və yaradıcılığa estetik münasibətin tərbiyə edilməsi aglasığılmazdır.

Lakin diqqəti yalnız oxucuların estetik biliklərinin zənginləşdirilməsinə yönəltmək, estetik tərbiyədə oxucuları yalnız estetik biliklə zənginləşdirməklə kifayətlənmək olmaz. Burada ikinci bir cəhətə – insanların estetik zövqünün tərbiyəsinə, onların estetik hisslərinin formalaşmasına və estetik duygu mədəniyyətinin inkişafına da fikir vermək lazımdır. Çünki estetik tərbiyə ikinci istiqamətlə – oxucularda estetik zövq tərbiyəsi ilə tamamlanır.

Estetik zövq ətraf aləmdə, incəsənətdə və bədii əsərlərdə gözəlliyi görmək, duymaq, qiymətləndirmək bacarığı, yaxşını pisdən, gözəlliyi çirkinlikdən fərqləndirmək qabiliyyətidir. Gerçəkliyin estetik dərki, sənət əsərlərinin qavranılması və qiymət-

ləndirilməsi adətən onların ideya istiqamətlərinin ya təsdiq, ya d
inkar olunması ilə bu və ya digər estetik zövq əsasında meydan
gəlir. Estetik zövq estetikliyi başa düşmək, gözəlliyi və çirkinli
bir-birindən fərqləndirmək, estetik təzahürlərə qiymət verm
qabiliyyətidir.

Məhz buna görə də hazırda respublikamızdakı kitabxana
ların qarşısında duran mühüm məsələlərdən biri də gənclər
estetik tərbiyəsinin, yəni estetik təhsillə estetik zövq tərbiyəsin
kompleks şəkildə həyata keçirilməsidir. Çünki cəmiyyət üzvlər
nin, ilk növbədə gənc nəslin dünya incəsənəti və mədəniyy
xəzinəsinin zəngin bədii-mənəvi sərvətlərini öyrənib dərk etməsi
nail olmaq vəzifəsini müvəffəqiyyətlə yerinə yetirmədən ahəngd
və hərtərəfli inkişaf etmiş yetkin insanın tərbiyəsi mümkü
deyildir.

Kitabxanaçılar nəzərdə tutmalıdırlar ki, ədəbiyyat və inc
sənət əsərləri ilə müntəzəm təmasda olmamaq, onla
qavramamaq, bir tərəfdən, insanın həmin əsərlərdən mənə
zövq, həzz və sevinc ala bilməməsinə, digər tərəfdən isə ahəngd
inkişaf etmiş şəxsiyyətin tam yetkinliyə malik olmamasına gətir
çıxarır. Buna görə də yeni insan tərbiyəsində son dərəcə zəruri v
hökmən vacib olan ədəbiyyat və incəsənəti heç bir texniki tərəq
və yaxud elmi nailiyyət əvəz edə bilməz.

Ayrı-ayrı oxucuların estetik zövqləri ictimai estetik norm
lar anlayışı ilə tam şəkildə üst-üstə düşməyə bə bilər. Cəmiyyət
müxtəlif estetik zövqlər mövcuddur. Onların müxtəlifliyi bir sı
amillərə bağlıdır: həm milli, həm psixoloji, həm peşə (ixtisas
həm təhsil, həm də fərdi fərqlər və ya xüsusiyyətlər öz izini qoy
və hər bir oxucunun estetik zövqünün özünəməxsusluğunu şər
ləndirir.

Estetik tərbiyə problemini araşdıran bəzi mütəxəssislər b
fikirdədirlər ki, estetik zövqlərin sonsuz müxtəlifliyinə xüsusi di
qət yetirmək, onların formalaşmasına təsir etmək üçün cəhd g
stərmək qətiyyən lazım deyil. Əlbəttə, biz bu cür mövqe ilə razıl
şa bilmərik.



Kitabxanaçı estetik zövqlərin müxtəlifliyinin hüdudlarını dəqiq müəyyənləşdirməyi, onların məziyyətlərinin sərhəddən kənara çıxdığını və səviyyəsizliyə yuvarlandığını görməyi, özünün istifadəsində olan bütün vasitələrlə həyatda, incəsənətdə və məişətdə olan gözəlliklərə formal aludəçiliklə və ya zəif təsəvvürlər şəklində təzahür edən zövqsüzlüklə mübarizə aparmağı bacarmalıdır.

Məlumdur ki, hazırda bir çox oxucular, xüsusilə gənc nəsil klassik bədii ədəbiyyatla, ciddi musiqi əsərləri ilə, incəsənətin bir çox janrları ilə maraqlanmır, yalnız detektiv, kriminal, macəra və ya fantastika janrında yazılmış sönük məzmunlu kitablara həvəs göstərir, bayağı caz, rok, rep və digər estrada musiqisini dinləməyi üstün tuturlar. Bütün bu qeyri-normal münasibət təlim-tərğiyə prosesi ilə məşğul olan digər mütəxəssislərlə yanaşı, kitabxanaçıları da narahat etməlidir. Kitabxanaçılar hər hansı bir bədii əsərin müsbət məziyyətlərini və çatışmazlıqlarını aşkara çıxarmaqda oxuculara kömək göstərməli, onlara ciddi mütaliə zövqü aşılamalıdırlar. Bunlar ona görə vacibdir ki, oxucuların təkcə estetik zövqləri deyil, həm də mənəvi simaları, dünyagörüşləri məhz bu yolla formalaşır.

Azərbaycanın keşməkeşli tarixi keçmişini, xalqımızın yadelli işbalçılara qarşı mübarizəsini, azadlıq və müstəqillik ideyalarını, Böyük Vətən müharibəsi illərində işğalçı alman faşistləri ilə, indiki dövrdə isə Dağlıq Qarabağı və onun ətrafındakı bölgələrimizi zəbt etmiş erməni təcavüzkarları ilə ölüm-dirim savaşını, doğma Vətənin xoşbəxt gələcəyi naminə öz ömürlərini girov qoymuş mətin insanların taleyini yüksək səviyyədə əks etdirən bədii əsərlərin təbliği kitabxanaçıların həmişə diqqət mərkəzində dayanmalıdır.

Estetik tərbiyə yalnız incəsənətə və bədii ədəbityyata marağın və onu dərk etmək qabiliyyətinin inkişafı ilə başa çatmır. İnsan təkcə incəsənətdəki gözəlliklərin tələbatçısı deyil, həm də həmin gözəlliyin yaradıcısıdır. Bədiilik insanı həyatda qurub-yaratmağa, faydalı işlər görməyə ruhlandırır, hər bir kəsi nəcibləşdirir. Müasir cəmiyyət müstəqil Azərbaycan dövlətinin qurucusunun qarşısında gözəlliklər yaratmaq qabiliyyətini formalaşdır-

maq vəzifəsini qoymuşdur. Kitabxanalar oxuculara həyatımızdakı gözəllikləri tapmağa, əsl gözəlliyi saxta gözəllikdən, eybəcərlikdən, çirkinlikdən, yaramazlıqdan, kifirlikdən seçməyə kömək göstərir.

Oxucuların estetik qabiliyyətlərinin inkişafına təsir göstərilməsi mühüm əhəmiyyət kəsb dir. Qavrayış, başqasının dərdinə şərik olmaq və həyatın bütün sahələrində gözəlliyi qiymətləndirmək qabiliyyətlərinin formalaşdırılmasına yönəldilimş fəaliyyət növləri bu qrupa daxildir. Bədii əsərlərin müzakirəsi, oxucu konfransı kimi ənənəvi kitabxana işi formaları iki və daha artıq incəsənət növünün sintezinə əsaslandığından get-gedə kitabxanaların fəaliyyətində daha geniş şəkildə yayılmağa başlamışdır.

Estetik tərbiyə yalnız bədii ədəbiyyata və incəsənətə marağın tərbiyəsi ilə, onu başa düşmək qabiliyyətinin inkişafı ilə məhdudlaşmır.

Estetik tərbiyənin əsas məqsədi bir-biri ilə sıx bağlı olan iki mühüm vəzifənin həyata keçirilməsində ibarətdir.

Birinci vəzifə hər bir insanın estetik təhsil yiyələnməsinə nail olmaq və onu estetik-bədii sərvətlərin tərbiyəli tələbatçısına çevirməkdir.

İkinci vəzifə isə hər bir oxucunu estetik mədəniyyət subyektinə çevirmək, onu bədii-estetik qorunmasını tələb edir.

Başqa sözlə, akademik D.Lixaçovun obrazlı şəkildə «mədəniyyətin ekologiyası» adlandırdığı əlverişli mədəni-psixoloji mühitin mühafizə edilməsi və ona qayğı göstərilməsi aktual məsələ kimi meydana çıxır. Belə ki, insan məhz həmin mühitdə yaşayır və işləyir. Buraya həm keçmiş abidələrin qorunub saxlanması, həm də yüksək mədəniyyət ünsiyyətinin tərbiyəsi (o cümlədən mehribanlıq, qayğıkeşlik, nəzakət, ədəb, mərhəmət, rəhmdillik, mərifət və s. kimi keyfiyyətlər) daxildir.

Oxucuların bədii-estetik tərbiyəsinin bir sıra səviyyələrə və pillələrə ayrılması meodoloji və təcrübi münasibətdə mühüm əhəmiyyət kəsb edir. Bu fərqlənmənin (təbəqələşmənin) əsasında oxucunun estetik sərvətlər sistemini mənimsəməsi dərəcəsi,



oxucunun estetik və bədii inkişafın həqiqi subyektinə çevrilməsinə dərəcəsi dayanır.

Tərbiyəliliyin ilkin (başlanğıc) səviyyəsi (mərhələsi) estetik və bədii sərvətlərdən istifadənin, onların yenidən təkrarlanmasının üstünlüyü ilə bağlıdır. O, eyni zamanda qarşısıalınmaz təbiiliyin çox böyük xüsusi çəkisi və hətta bədii-estetik zövqün meydana çıxması və formalaşması sahəsində müəyyən ölçüdə qarmaqarışıqlıqla əlaqədardır. Bu mərhələdə şəxsiyyətin hələlik ayrı-ayrı cəhətlərinin estetik baxımdan inkişaf etməməsi, bədii təhsildə çatışmazlıq müşahidə olunur, bədii qarışıqlıq, estetik zövqsüzlük, dəyişkən dəbə aludəçilik, həyatda davranışın estetik üslubunu tapa bilməmək bacarıqsızlığı faktlarına rast gəlinir.

Tərbiyəliliyin orta səviyyəsi (mərhələsi) səmərəli bədii təhsillə, keçmiş estetik və bədii irsin mənimsənilməsi ilə, gözəllik qanunlarının və onların təsir mexanizminin dərk olunması ilə, estetik geriliyin və pis bədii zövqün təsadüfi təzahürlərinin təsirli, sistemli və özünətənqid şəraitində aradan qaldırılması ilə xarakterizə edilir.

Tərbiyəliliyin yüksək səviyyəsinə (mərhələsinə) tam şəkildə incəsənətə və gözəllik qanunları üzrə yaradıcılıq ustalığına dərindən yiyələnməyə, həqiqi bədii azadlıq, incəsənətin bütün növlərindən və janrlarından yaxşı xəbərdar olmağa imkan yaradan mühüm bədii məlumata malik olmaq (bədii erudisiya), yaradıcı şəkildə inkişaf etmiş şəxsiyyətin universal qaydada ahəngdar formalaşması, həyati davranışın özünəxas üslubunun işlənilməsi, ahəngdar həyat tərzinin vərdiş və ənənələrinin aşkara çıxarılması xasdır.

Ən yüksək səviyyə (mərhələ) bütün tərəflərin tamlığını və şəxsiyyətin bədii-estetik inkişafının bütün tərəflərinin və cəhətlərinin tamlığını nəzərdə tutur.

Məlumdur ki, insan ilk uşaqlıq çağlarından ta ömrünün sonuna qədər çox müxtəlif amillərin estetik təsirinə məruz qalır. Oyuncaqlar və oyunlar, ailə, uşaq bağçası, məktəb və digər uşaq təlim-tərbiyə ocaqları, məişət, təbiət, kənd və ya şəhər mühiti, ali və orta ixtisas məktəbləri, müxtəlif mədəni-maarif müəssisələri

şəbəkəsi, o cümlədən kitabxanalar, kütləvi informasiya vasitələri, daha sonra əmək fəaliyyəti, idman və nəhayət, incəsənətin ayrı-ayrı növlərinin vəhdətindən ibarət olan bədii yaradıcılıq aləmi – bütün bunlar insanın gerçəkliyə estetik münasibətinin, zövq və mədəniyyətinin formalaşmasında iştirak edir, bir-birini tamamlayır və zənginləşdirir. Bu sistemə daxil olan ünsürlərdən hər biri estetik tərbiyənin ümumi qayəsinin reallaşmasına xidmət edən spesifik funksiya yerinə yetirir.

İncəsənətin özünəməxsusluğu öz ifadəsini hər şeydən öncə bizi əhatə edən həyatın hissi və obrazlı şəkildə mənimsənilməsində tapır. İncəsənətlə ünsiyyət insanı estetik cəhətdən zənginləşdirir, yaradıcı fəaliyyət üçün son dərəcə zəruri olan estetik zövq və hissləri inkişaf etdirir. Bu isə öz növbəsində, insanın intellektual fəaliyyətinin təkmilləşməsinə təsir göstərir. Təxəyyülün inkişafında da incəsənətin rolu böyükdür, çünki o, həyatı bədii obrazlarla ifadə edərək, fantaziyaların, zəkanın işini fəallaşdırır.

Əsl incəsənət xalqın zövqünü ifadə etməklə yanaşı, həm də onu inkişaf etdirib daha da təkmilləşdirmək vəzifəsini qarşıya qoyur. Sənət əsərləri insan qəlbində yatıb qalan gizli hissləri oyatmaqla onu öz-özünə daha dərindən diqqət yetirməyə vadar edir. Biz incəsənətin ecazkar təsiri altında ötən günlərin sevincli və kədərli anlarında, ilk təəssüratın doğurduğu xoş həyəcanları sanki yenidən yaşayır, özümüzü daha yaxşı tanımağa, yenidən kəşf etməyə başlayırıq. İncəsənətin ən başlıca tərbiyəvi vəzifəsi müəyyən mənada məhz bundan ibarətdir.

## ƏDƏBİYYAT


1. *Aslanov A. Estetika aləmində (Estetik-tarixi-nəzəri problemlər).-B.: Yazıçı, 1988.- 248 s.*

2. *Aslanov A. İncəsənət və tərbiyə.- B.: 1967.- 204 s.*

3. *Azərbaycan Respublikasının Konstitusiyası.-B.: Qanun, 1999.- 60 s.*





4. *Cəfər M. Estetik zövq haqqında.-B.: Azərnəşr, 1965.- 72 s.*

5. *Cəfərov M.C. Estetik tərbiyə, ailə və məktəb.-B., 1967.- 110 s.*

6. *Əhmədov Ə. Mənəviyyat, gözəllik, tərbiyə.-B.: Maarif, 1993.- 280 s.*

7. *Əhmədov T. Gənclərin mənəvi-estetik tərbiyəsində bədii ədəbiyyatın rolu // İncəsənətin sosial-mənəvi-estetik mahiyyəti.-B.: 1986.-S.16-23.*

8. *Əhmədov T. Gənclik mənəvi aləm, estetika (Şəxsiyyətin mənəvi inkişafı amilləri).-B.: Gənclik, 1987.- 222 s.*

9. *Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik.-B.: Bakı Universiteti Nəşriyyatı, 2001.- 400 s.*

10. *Xələfov A. Müasir kitabxanaların sosial funksiyaları // Kitabxanaşünaslıq və biblioqrafiya.- 1999.- №2.- S.3-32.*

11. *Xələfov A., Kazımov R., Bədəlov E. Kitabxana işçisinin məlumat kitabı.- B.: Azərnəşr, 1986.- 286 s.*

12. *"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya.-1999.-№ 1.-S. 3-20.*

13. *Qasımzadə F. Estetik zövqün tərbiyə edilməsi.- B.: Azərnəşr, 1961.- 24 s.*

14. *Məmmədov M. Estetika haqqında söhbətlər.- B.: 1978.- 110 s.*

15. *Məmmədov Z. Estetika və yeni insan tərbiyəsi, B.: Azərnəşr, 1978.- 110 s.*

16. *Rzayev S. Uşaqların estetik tərbiyəsi sahəsində uşaq və məktəb kitabxanalarının vəzifələri // Zəhmətkeşlərin kommunist tərbiyəsi işinə kitabxanaların köməyi.- B.: Azərbaycan Universiteti Nəşriyyatı, 1989.-S.26-33.*

*Князь Аслан*

## РОЛЬ КНИГИ И ЧТЕНИЯ В ЭСТЕТИЧЕСКОМ ВОСПИТАНИИ ЧИТАТЕЛЕЙ

***РЕЗЮМЕ***

*В статье проанализировано особенности эстетического воспитания читателей. Здесь же излагается основные задачи работы разных универсальных библиотек Азербайджана в области пропаганды художественной литературы.*

*Vəfa Məmmədova*
*Magistrant*

# UNİVERSAL ONLUQ TƏSNİFAT (UOT) VƏ KİTABXANA-BİBLİOQRAFİYA TƏSNİFATLARININ (KBT) KÖMƏKÇİ CƏDVƏLLƏRİNİN QISA MÜQAYİSƏLİ TƏHLİLİ

Müstəqillik şəraitində respublikamızın sosial-iqtisadi inkişafı, Azərbaycan xalqının elmi-texniki və mənəvi potensialının güclənməsi, milli mədəniyyətimizin hərtərəfli tərəqqisi üçün geniş imkanlar açılmışdır.

Cəmiyyətin mühüm mədəni təsisatı, mədəni sərvəti və informasiya bazası olan kitabxanalar müasir dövrdə olduqca mürəkkəb sosial funksiyaları yerinə yetirməklə əhalinin mütaliə mədəniyyətinin formalaşmasına səmərəli təsir göstərirlər.

Müasir dövrdə heç bir cəmiyyətdə elm, texnika və mədəniyyətin inkişafı kitabxana-informasiya sərvətlərindən səmərəli istifadə edilmədən mümkün ola bilməz.

"Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu"nda göstərilir ki, "Kitabxana - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur" (1).

Kitabxanalarda fondun tərkibini müxtəlif cəhətlərdən açma tələbi əsasən, oxucu sorğularının müxtəlifliyindən və məqsəd istiqamətlərindən irəli gəlir. Ona görə də, kitabxanalarda müxtəlif növ kataloqlar yaradılır. Bu kataloqlar içərisində sistemli kataloq mühüm yer tutur.

Kitabxanalarda kitabların sistemləşdirilməsi, yəni onların müəyyən bilik sahələri üzrə qruplaşdırılması kitabxana təsnifatı əsasında aparılır. Kitabxana təsnifatı elmlər təsnifatına əsaslanır, çünki burada elmlərin bölgüsü və ardıcıllığı faktiki səviyyəyə

uyğun olaraq verilir. Elmlərin ardıcıllığı, onların hüdudu və digər elmlərlə qarşılıqlı əlaqəsi elmlər təsnifatı əsasında müəyyən edilir.

Kitabxana təsnifatının fərqləndirici xüsusiyyətlərindən biri – hər bir şöbə üçün müəyyən bir yer ayrılmasından, yəni şöbələrin xətti sırada yerləşdirilməsinin vacib olmasından ibarətdir. Çoxlu bilik sahələri və elmin ayrı-ayrı məsələləri bir-biri ilə sıx əlaqədardır.

Kitabxana təsnifatı sxeminin təcrübi vəzifəsi onun elə tərtib edilməsini tələb edir ki, kitabxanaçının gündəlik işində sxemdən əlverişli istifadə etməyi təmin etmiş olur. Bu məqsədlə, adətən, sxemləri çap olunmuş cədvəllər şəklində nəşr edirlər. Bunlar iki hissədən ibarət olur: əsas cədvəllər və təyinedici cədvəllər (nümunəvi bölgülər). "Əsas cədvəllər rubrikalardan ibarətdir ki, onların da hər biri kitabxana təsnifatı sxeminin bölmələrindən birini təşkil edir. Bu rubrikalara uyğun olaraq sistemli kataloqda şöbələr, yarımşöbələr və bölmələr əmələ gəlir. Bütün rubrikalar cədvəllərdə məntiqi ardıcıllıqla verilir" (3).

Qeyd etmək lazımdır ki, XX əsrin əvvəlindən başlayaraq dünya kitabxanalarında əsasən Universal Onluq Təsnifat sistemi tətbiq edilmişdir. XX əsrin ikinci yarısında isə keçmiş SSRİ məkanında, bir sıra sosialist ölkələrində kitabxanalar Kitabxana-Biblioqrafiya Təsnifat cədvəlləri əsasında işləmişlər və bu proses indi də Rusiya, MDB ölkələri, o cümlədən Azərbaycan kitabxanalarında davam etməkdədir.

UOT və KBT cədvəlləri arasındakı fərqli cəhətlər özünü bu təsnifat sistemlərinin ümumi quruluşu ilə yanaşı, xüsusən hər iki təsnifatda istifadə edilən köməkçi cədvəllərdə də göstərir.

Əgər əsas anlayışlar cədvəlləri bu və ya digər sənədin təsnifləşdirilməsi prosesində onun məzmun əlamətini elmi baxımdan açıb, müvafiq təsnifat cədvəllərindən məzmun indeksini müəyyənləşdirmək üçün istifadə edilirsə, köməkçi cədvəllər isə sənədin digər əlamətlərinin, o cümlədən nəşr formasının, xronoloji çərçivəsinin, nəşr dilinin, coğrafi məzmununun digər xüsusiyyətlərinin aşkar edilib müvafiq



qaydada təsnifləşdirilməsi və indeksləşdirilməsi üçün istifadə edilir.

Universal Onluq Təsnifatda köməkçi cədvəllər ***ümumi*** və ***xüsusi*** təyinedicilərdir. Kitabxanalarda əsasən ümumi təyinedicilərdən istifadə edilir. Bu təyinedicilər bütün sənədlərə xas olan əlamətləri indeksləşdirmək üçün istifadə edilir.

UOT-da hər bir ümumi təyinedicinin öz işarəsi var. Bu işarələrin hər biri məzmun indekslərini qarışdırmamaq üçün özünəməxsus riyazi rəqəmlər və başqa işarələrdən ibarətdir.

Bu işarələr aşağıdakılardır:

1.**Forma** təyinedicilərinin işarəsi mötərizə içərisində sıfır işarəsi ilə başlanan rəqəmlərdir. Məsələn: (03) Ensiklopediyalar. Məlumat kitabları; (05) Dövri nəşrlər; (07) Dərsliklər və dərs vəsaitləri; (09) Tarixi və mənbəşünaslıq xarakteri daşıyan sənədlər və s. (4).

2.**Dil** təyinedicilərinin işarəsi bərabərlik xətti ilə başlanan rəqəmlərdən ibarətdir. Məsələn: =82 Rus dili; =20 İngilis dili; =943.62 Azərbaycan dili və s.

"Riyaziyyata dair ingilis dilində məlumat kitabı"nın indeksi UOT təsnifatı üzrə belə olmalıdır: 51(031)=20; burada Riyaziyyat – 51, məlumat kitabı – (031), İngilis dili isə - =20 indeksləridir.

3.**Xalqlar və ya etnik** təyinedicilər işarələrin mötərizəyə alınmasından yaranır. Məsələn: (=82); (=20) və s.

Məsələn, UOT-da Azərbaycan dilinin indeksi =943.62 olduğu halda Azərbaycan xalqının indeksi həmin indeksin mötərizəyə alınmasından yaranır. Yəni – (=943.62). Deməli "Azərbaycanda bədii keramika" kitabının indeksi belə olmalıdır: 738(=943.62). Burada 738 – bədii keramika, (=943.62) işarəsi isə Azərbaycan xalqının UOT-dakı indeksidir. (4).

4.**Coğrafi** təyinedicilərin işarələri mötərizə içərisindəki rəqəmlərdən ibarətdir. Məsələn: (4) - Avropa, (5) - Asiya, (6) - Afrika, (479.24) - Azərbaycan və s. (4)

5.**Zaman** təyinediciləri (xronoloji təyinedicilər) dırnaq içərisində yazılan rəqəmlərdən ibarət olur. Məsələn: Bizim eramıza

qədərki dövr – " - "; Bizim era - "+"; əsrlər: "XII", "XIII", "XX" və s.

Daha sonra burada illər, aylar, fəsillər və s. xronoloji anlayışların indeksləri verilmişdir. Məsələn, "Azərbaycan antik dövrdə" kitabının tam indeksi belə olmalıdır: (479.24) "- ".

6.**Nöqteyi - nəzər** təyinediciləri nöqtə və sıfırla başlanan rəqəmlərdən alınır. Məsələn: Nəzəri baxımdan –.001; İqtisadi baxımdan - 003.1 və s.

Məsələn "İqtisadi nəzəriyyə" kitabının indeksi belə olmalıdır: 3.003.

Burada - 3 iqtisadiyyat, .003 işarəsi isə nəzəriyyə anlayışını göstərir.

Qeyd etmək lazımdır ki, UOT cədvəllərində yuxarıda göstərilən ümumi təyinedicilərdən əlavə bir sıra xüsusi təyinedicilər də vardır ki, bunların ümumi miqdarı 2 minə qədərdir, məsələn, şəxsi təyinediciləri, materiallar təyinediciləri, əlifba təyinediciləri və s. Lakin, bunlar yalnız ayrı-ayrı şöbələrin daxilində istifadə edilir və UOT-un bütün şöbələrinə aid edilmir. Bundan əlavə, həmin təyinedicilər əsasən elmi-texniki informasiya orqanlarında istifadə edilir. Kitabxanalarda ədəbiyyatı təsnifləşdirərkən demək olar ki, bu təyinedicilərdən istifadə edilmir.

UOT cədvəllərindəki mövcud təyinedicilər, yəni köməkçi cədvəllər sisteminin KBT cədvəllərinin quruluşu ilə elə bir oxşarlığı yoxdur. Kitabxana-biblioqrafiya təsnifatında köməkçi cədvəllər tamamilə başqa qaydada tərtib edilmişdir. KBT-də köməkçi cədvəllər UOT-da olduğu kimi təyinedicilər deyil, **"nümunəvi bölgülər"** adlanır. (2, s.295). KBT- də ***ümumi*** nümunəvi bölgülər, ***ərazi*** nümunəvi bölgüləri və yalnız bir şöbə daxilində tətbiq edilən ***xüsusi*** nümunəvi bölgülər vardır.

KBT-nin tam variantındakı əsas anlayışlar cədvəlində olduğu kimi, bu təsnifat sisteminin köməkçi cədvəllərində də rus əlifbası işarələrindən istifadə edilmişdir. Belə ki, ümumi nümunəvi bölgülərdə Rus (kiril) qrafikası ilə işarələnmiş aşağıdakı ümumi nümunəvi bölgülər vardır:

б Qanunvericilik materilları



в Elmin fəlsəfi məsələləri
г Elmin və ya mövzunun tarixi
е/н Elmin təşkili və s.
я 1 Biblioqrafik vəsaitlər
я 2 Məlumat nəşrləri
я 5 Dövri nəşrlər
я 7 Tədris materialları
я 9 Kütləvi nəşrlər və s. (2, s.295-300)

Beləliklə, KBT- nin ümumi nümunəvi bölgüləri bir növ UOT- un ümumi forma təyinedicilərinə bənzəyir. Lakin, burada bütün anlayışlar UOT-dan fərqli olaraq 10 bölməyə deyil, 20 bölməyə ayrılmışdır. Bölgülərin belə geniş verilməsi, şübhəsiz ki, sənədlərin daha dəqiq təsnifləşdirilməsinə imkan yaradır.

KBT- də dəqiq işlənmiş köməkçi cədvəllərdən biri də yuxarıda qeyd edildiyi kimi, "Ərazi nümunəvi bölgüləri"dir. Bu nümunəvi bölgülər özündə dünyanın coğrafi xəritəsini əhatə edir. Burada keçən əsrin 70-ci illərində dünyanın coğrafi məkanının təsnifatı verilir və onların indeksləri göstərilir. Burada əsas bölgülər aşağıdakılardır:

(0) Bütün ölkələr
(2) SSRİ
(3) Xarici ölkələr bütövlükdə
(4) Avropa
(5) Asiya
(6) Afrika
(7) Amerika
(8) Avstraliya. Arktika. Antarktida.
(9) Okeanlar və dənizlər (2, s.300-310).

Azərbaycan Respublikasının indeksi – 2(A). Bu təsnifat sistemi SSRİ dövründə tərtib edildiyindən burada:

2 – SSRİ

(A)- Azərbaycandır.

KBT-nin ərazi nümunəvi bölgülərində hər bir bölgü daxilində anlayışlar, daha doğrusu ölkələr Rus əlifba sırası ilə düzülmüşlər.

Məsələn, Asiya (05) ərazi bölgüləri Rus dilindəki adlarına görə əlifba sırası ilə düzülmüşlər:

(5 Аф) – Əfqanıstan

(5 Бан) – Banqladeş və s. (2, s.304-305)

UOT cədvəllərindən fərqli olaraq, KBT-də xüsusi təyinedicilər bilavasitə hər bir şöbənin əvvəlində verilmiş və yalnız həmin şöbəyə dair sənədləri təsnifləşdirdikdə istifadə edilə bilər. UOT-dan fərqli olaraq onların özünəməxsus müstəqil indeksləri yoxdur. Onlar bilavasitə məzmun indekslərinə birləşirlər.

Məsələn, KBT-nin kütləvi kitabxanalar üçün tərtib edilmiş cədvəllərinin "3 - Texnika" şöbəsində aşağıdakı xüsusi nümunəvi bölgülər vardır:

- 1 Nəzəri əsasları. Tədqiqatlar.
- 2 Layihələşdirmə.
- 3 Xammal. Materiallar və s. (2, s.56-60).

UOT-dan fərqli olaraq KBT-nin hər bir xüsusi nümunəvi bölgüsünün məzmunu açılmış, müvafiq indeksin məzmun baxımdan hansı sənədlərə aid edilməsi aydınlaşdırılmışdır. Bu xüsusiyyət KBT-də xüsusi nümunəvi bölgülərin UOT-dakı təyinedicilərə nisbətən daha təkmil olmasını göstərir.

Məsələn, KBT- nin "3 - Texnika" şöbəsində xüsusi nümunəvi bölgüdə – 4 (sənaye müəssisələri) bölgüsündə aşağıdakı izahat verilir:

- 4 Sənaye müəssisələri.

Zavodlar, fabriklər, kombinatlar, sexlər, şöbələr, zavod laboratoriyaları, enerji, nəqliyyat, alətlər təsərrüfatı, anbarlar, qaldırıcı-nəqliyyat və sanitar-texniki avadanlıq.

KBT-də UOT cədvəllərindən fərqli olaraq hər bir şöbənin məzmununa dair geniş izahat verilir və həmin şöbəyə məzmun baxımından hansı sənədlərin (kitabların) daxil edilməsi aydınlaşdırılır, həmin şöbənin KBT-nin digər şöbələri ilə əlaqələri açıqlanır.

KBT-də köməkçi cədvəllərin UOT-dan fərqli cəhəti və eyni zamanda nöqsanlı sahəsi ondan ibarətdir ki, burada rəqəmlərlə yanaşı kiril əlifbasından da istifadə edilmişdir. Bu da müxtəlif ölkələrdə, o cümlədən keçmiş SSRİ respublikalarında və ümumiyyətlə kiril əlifbası tətbiq edilməyən ölkələrdə onun istifadəsini qeyri-mümkün edir.



UOT-da və KBT-də bir sıra hallarda riyazi rəqəmlər tamamilə eynidir. Məsələn:

| UOT-da: | | KBT-də: |
|---|---|---|
| Dövri nəşrlər- | (05) | (Я5) |
| Dərs vəsaitləri- | (07) | (Я7) |

Belə oxşarlıq UOT-da mövcud coğrafi təyinedicilərlə KBT-dəki ərazi nümunəvi bölgülər arasında da özünü göstərir:

| UOT: | KBT: |
|---|---|
| Bütün ölkələr (100) | Bütün ölkələr – (0) |
| Avropa – (4) | Avropa - (4) |
| Asiya – (5) | Asiya- (5) |
| Afrika – (6) | Afrika- (6) |
| Amerika – (7) | Amerika- (7) |
| Okeaniya- (9) | Okeanlar və dənizlər – (9) |

UOT və KBT cədvəllərinin hər iksindəki yardımçı cədvəllər sisteminə **"Əlifba-predmet göstəriciləri"** də daxildir. Məlum olduğu kimi, təsnifat cədvəllərində bölgülərin məntiqi ardıcıllığına baxmayaraq kitabxanaçı onlardan istifadə edərkən bəzən konkret bölgünü axtarıb tapmaqda çətinlik çəkir. Kitabxanaçıya cədvəllərdən baş çıxarmasını asanlaşdırmaq üçün, onlara, bir qayda olaraq, əlifba-predmet göstəricisi əlavə olunur. Cədvəllərin bütün bölgüləri, habelə onların məzmununa aid olan mühüm predmet və anlayışlar onda ümumi əlifba qaydası ilə yerləşir və hər adın qarşısında cədvəlin müvafiq bölgüsünün indeksi göstərilir. Əgər həmin predmet bir neçə bölgüyə dəlalət edirsə, bütün bu bölgülərin indeksi gətirilir (onların hər birində predmetin hansı aspektdə nəzərdən keçirilməsi göstərilməklə). Məsələn, vilayət kitabxanaları üçün UOT cədvəllərində predmet göstərici rubrikası verilir:

Arxeoqrafiya - 902.93

Arxeologiya - 902.6

Arxivşünaslıq- 902.93

KBT-nin kütləvi kitabxanalar cədvəllərində "Avtomatlaşdırma" anlayışı aşağıdakı aspektlərdə açılır:

Avtomatlaşdırma:

Kitabxana proseslərinin – 78.38

İstehsalatda – 39.965

Kənd təsərrüfatında – 40.7 və s. (15, s.313).

İstər UOT-da və istərsə də, KBT-də əlifba-predmet göstəriciləri ümumi metodikaya əsaslanır və onlar müvafiq təsnifat cədvəllərinin struktur quruluşuna uyğunlaşdırılmışdır.

UOT və KBT cədvəllərində mövcud köməkçi cədvəllərin müqayisəli təhlilini yekunlaşdırarkən qeyd etmək lazımdır ki, UOT cədvəlləri KBT-yə nisbətən daha təkmil və təcrübi cəhətdən məqsədyönlü tərtib edilmişdir. Burada tətbiq edilən çoxsaylı ümumi və xüsusi təyinedicilər təsnifləşdirmə və indeksləşdirmə prosesində hər bir sənədin bütün əlamətlərini hərtərəfli açmaq və tələbatçılara operativ şəkildə çatdırmaq imkanı verir.

UOT sisteminin köməkçi cədvəllərində riyazi rəqəmlər və digər riyazi işarələrdən istifadə edilməsi kitabxanalarda təsnifləşdirmə işlərinin kompüterləşdirilməsi üçün geniş imkanlar açır və bu işi asanlıqla həyata keçirməyə şərait yaradır. Bundan əlavə UOT cədvəllərində 2 mindən artıq xüsusi təyinedicilərin mövcudluğu bu təsnifat sisteminin kitabxanalarla yanaşı informasiya müəssisələrində də tətbiq edilməsini mümkün edir. Müasir dövrdə kitabxanaların informasiya funksiyalarının genişlənməsi mühitində bunun son dərəcə əhəmiyyətli olması şübhə doğurmur.

KBT sistemində isə köməkçi cədvəllər UOT cədvəllərində olduğu kimi geniş funksiyalara malik deyillər. Bu cədvəllər sistemində əsasən kiril əlifbasının tətbiqi onun dünya miqyasında istifadə edilməsini məhdudlaşdırır və bu cədvəllərin köməyi ilə dünya informasiya məkanına daxil olub sənəd və informasiya mübadiləsini təşkil etmək üçün ciddi problemlər yaradır. Beləliklə, tanınmış Rusiya kitabxanaşünası V.Y.Eydelmanın qeyd etdiyi kimi, "Dünya tədqiqatçılarının fikrinə əsaslanaraq təsdiq etmək olar ki, UOT iyerarxiya sistemi kimi sənədlərin məzmununu təbii dildən informasiya axtarışı dilinə çox böyük dəqiqliklə çevirmək üçün daha əlverişlidir" (5, s.185).



## ƏDƏBİYYAT

*1. Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu // Azərbaycan.-1999.- 14 mart.*

*2. Библиотечно-библиографическая классификация: Таблицы для массовых библиотек.-Изд.2-ое.-М.: Книга,1986.-540 с.*

*3. Систематический каталог.-М.,1990.-175 с.*

*4. Универсальная десятичная классификация: Таблицы на русском языке: В двух томах.-М.,1974.*

*5. Эйдельман Б. Библиотечная классификация и систематический каталог.-М.: Книга,1973.-311 с.*

***Вафа Мамедова***

## КРАТКАЯ СРАВНИТЕЛЬНАЯ ХАРАКТЕРИСТИКА ВСПОМОГАТЕЛЬНЫХ ТАБЛИЦ УДК И ББК

### *РЕЗЮМЕ*

***В статье дана краткая сравнительная характеристика** вспомогательных таблиц Универсальной десятичной классификации (УДК) и Библиотечно-библиографической классификации (ББК), используемые в библиотеках республики в настоящее время и сформулирован ряд аналогичных и отличающихся особенностей данных классификационных систем.*

**Zöhrab ƏLİYEV**
*Əməkdar Mədəniyyət İşçisi, professor*

## AZƏRBAYCAN CƏMİYYƏTİNİN İNFORMASİYA TƏLƏBATÇILARI VƏ ONLARIN BİBLİOQRAFİK İNFORMASİYA TƏMİNATININ ƏSAS AMİLLƏRİ

Azərbaycanda biblioqrafik fəaliyyətin tarixini, müasir vəziyyətini, inkişafı perspektivlərini konkret dövrün sosial- iqtisadi şəraitindən, elmi- mədəni səviyyəsindən təcrid olunmuş şəkildə tədqiq etmək və düzgün elmi qiymətini vermək mümkün deyil. Əgər nəzərə alsaq ki, biblioqrafik informasiyada ikimeyllilik biblioqrafiyaşünaslıqda həlledici əhəmiyyət kəsb edir, bunun əsaslı olduğunu aydın görərik. İkimeyllilliyin səbəbi isə məlum olduğu kimi (9, s.43) «sənəd- informasiya istifadəçisi» münasibətindən irəli gəlir. Bu o deməkdir ki, biblioqrafiyanın əməli bir fəaliyyət sahəsi kimi obyekti sənəd kommunikasiyaları sistemidir, yəni sənədlər və informasiya istifadəçiləridir, kitabxana- biblioqrafiya terminləri ilə ifadə etsək çap əsərləri və oxucularıdır. Bu iki «qütb» arasındakı münasibət biblioqrafik fəaliyyət və onun nəzəri şərhi üçün mühüm əhəmiyyətə malikdir. Biblioqrafiyanın tarixinə dair tədqiqatlarda qeyd olunan ikimeyllilik bir qədər başqa baxımdan nəzərə alınmış və münasibətlər bildirilmişdir (9, s.43-44). Bəziləri belə hesab edirdilər ki, biblioqrafiya yalnız kitabla və ya bütünlükdə çap əsərləri ilə məşğul olur, onları öyrənir dolğunluqla qeydini aparır, dəqiq şəkildə təsvir edir və təsnifləşdirir. Göründüyü kimi ikinci tərəf – oxucular, informasiya istifadəçiləri demək olar ki, tamamilə diqqətdən yayınır. Biblioqrafiya tarixində bu mövqedə duranları «Akademik» adlandırırdılar. Buna əks olan başqa bir mövqe də meydana gəlir və formalaşır ki, onların da əsas konsepsiyası sistemin ikinci tərəfinin mövcudluğunun qəti



və elmi şəkildə əsaslandırılması ilə bağlıdır. Bu mövqedə duranlar «ictimaiyyətçi» adlanırdılar. Beləliklə biblioqrafik fikirdə akademik və demokratik axın mövcud olur. Birinci axının nümayəndələrinə xas olan əsas xüsusiyyət ictimai həyatın real problemlərindən uzaq düşməkdən, biblioqrafik informasiyanın sosial mahiyyətini dərk etməməkdən, kitab-oxucu sisteminin yalnız birinci tərəfinə əsaslanmalarından ibarətdir. Bu da onların kitabla biblioqrafiya arasındakı münasibətlərin əsas mahiyyətini istənilən səviyyədə dərk edə bilməmələrindən irəli gəlirdi.

Kitab, ümumilikdə çap əsərləri, sənədlər özü-özlüklərində deyil, oxucular, informasiya istifadəçiləri üçün yerinə yetirdikləri funksiyalarına görə biblioqrafiyanın maraq dairəsinə daxil olur. Deməli biblioqrafiya sənədləri xüsusi bir hadisə kimi deyil, müəyyən ictimai tələbata nə dərəcədə uyğun gəlməsi nöqteyinəzərdən öyrənir və bu tələbatın biblioqrafik təminatının optimal yollarının və vasitələrinin nəzəri-metodiki şərhini verir. Kitaba biblioqrafik münasibətin əsas xüsusiyyəti məhz bundan ibarətdir və bu zaman hər şeyi kitabla, çap əsərlərilə, sənədlərlə oxucular-informasiya istifadəçiləri arasındakı əlaqə həll edir. Əgər məlum olursa ki, kitab bir sosial informasiya mənbəyi kimi informasiya istifadəçisini- oxucunu məzmununa görə maraqlandırır, onda biblioqrafiyada kitabı məzmununa görə öyrənmək əsas problem olacaqdır və burada da başlıca mövqe informasiya istifadəçisi ilə bağlıdır və biblioqrafiya hər hansı bir sənədin məzmununa onun ehtiyacı baxımından münasibətini bildirib qərar qəbul etməlidir. Nəticə budur ki, biblioqrafik fəaliyyət sənədlərlə informasiya istifadəçilərini həmişə vəhdətdə nəzərə alır və onların arasındakı münasibətləri həll edir, sənəd kommunikasiyaları sistemindəki müxtəlif maneələri aradan qaldırır və uyğunluqları həyata keçirir. Bu özünə məxsus cəhətləri ilə fərqlənən insan fəaliyyəti qarşısında duran vəzifələri zamanın sosial- iqtisadi şəraitinə uyğun tələblərə cavab verən səviyyədə yerinə yetirilməsində əsas şərtlərdən biri həmin dövr cəmiyyət üzvlərinin informasiya ehtiyatlarını hərtərəfli öyrənilməsi, fərqləndirilməsi ilə əlaqədardır. Dövrün informasiya tələbatlarının ayrı-ayrı istiqamətləri onların məqsəd və

məzmunu biblioqrafik fəaliyyət subyektləri tərəfindən aydın təsəvvür edilməsə, təbiidir ki, biblioqrafik informasiya təminatının səmərəliliyindən bəhs oluna bilməz. Məhz buna görə də müstəqilliyinə yenidən qovuşmuş Azərbaycan cəmiyyətinin informasiya istifadəçiləri və onların biblioqrafik təminatının mühüm amillərinin müasir baxımdan tədqiqi biblioqrafiyaşünaslıqda həll olunması vacib olan problemlərdəndir.

Elmi-texniki tərəqqi və cəmiyyətimizdə baş verən çox dərin sosial- iqtisadi dəyişikliklər cəmiyyətin müxtəlif fəaliyyət sahələri ilə məşğul olan üzvlərinin informasiya ehtiyaclarına, onların xarakterinə, məqsədinə, istiqamətinə ciddi təsir göstərir. Eyni zamanda bu əməyin xarakterinin dəyişməsinə, onun daha da intellektuallaşmasına, diferensiasiyalaşmasına səbəb olur, peşə ixtisası təhsilinin səviyyəcə yüksəldilməsinə tələbatı artırır. Bir qayda olaraq informasiya istifadəçilərinin sənəd tələbatlarının məqsədləri belə ümumiləşdirilirdi: elmi- tədqiqat, iqtisadi, təsərrüfat, təhsil, mənəvi- əxlaqi tərbiyə məqsədi və başqa məqsədlər. Müstəqillik yenidən bərpa olunduqdan, bazar iqtisadiyyatına keçildikdən sonra yeni məqsədli tələbat obyektləri yaranmış və formalaşmışdır. Sahibkarlıq, fermer təsərrüfatları, biznes fəaliyyəti biblioqrafik xidmətin yeni obyektləri kimi özlərinə məxsus biblioqrafik informasiya tələbatlarını irəli sürür.

Sahibkarlığın inkişafı artıq mühüm dövlət siyasətinə çevrilmişdir. Müstəqillik illərində demokratik vətəndaş cəmiyyətinin formalaşmasının mühüm göstəricilərindən biri ölkəmizdə müstəqil demokratik institutların, o cümlədən azad sahibkarlıq subyektlərinin normal fəaliyyət göstərməsi üçün şəraitin yaradılmasıdır. Bütün bunlar cəmiyyətin informasiya istifadəçilərini tərkibcə dəyişməsinə, tələbatların məzmun dairəsinin genişlənməsinə və mürəkkəbləşməsinə təsir göstərən mühüm amildir. Artıq cəmiyyətimizin informasiya tələbatçıları alimlərlə, gənc tədqiqatçılarla, tələbələrlə, şagirdlərlə, təsərrüfatçılarla məhdudlaşmır. Buraya iri, orta, xırda sahibkarlar, qapalı və ya məhdud səviyyəli (məsuliyyətli) müəssisə, əməkdaşlar, fermer təsərrüfatlarının işçiləri, biznes müəssisələrinin əməkdaşları da əlavə olunur və onların hər



birinin özünəməxsus informasiya maraqları mövcuddur. Bu maraq və tələbatlar biblioqrafik fəaliyyət qarşısında tamamilə yeni tələbatlar qoyur və onların müasir dövrün tələblərinə, beynəlxalq standartlara uyğun həyata keçirilməsini zəruriləşdirir.

Cəmiyyətimizin informasiya tələbatçılarını tərkib hissəsinə görə fərqləndirsək yenə elmi işçilər, mütəxəssislər ön sırada duracaqdır. İndi ölkəmizdə 9892 nəfərdən çox elmlər doktoru, professor fəaliyyət göstərir (5,s.163). Onları təkcə elmi dərəcələrinə görə fərqləndirməklə kifayətlənmək olmaz. Onların müxtəlif elmi müəssisələrdə mövqelərini təyin etmək biblioqrafik xidmətdə böyük şərtdir. Elmi müəssisə, ali məktəb rəhbərliyindən başlamış laboratoriya müdirlərinə qədər ümumiləşdirmək və buna görə onların informasiya ehtiyaclarını müəyyənləşdirmək biblioqrafik fəaliyyətlə məşğul olanın vacib vəzifəsidir.

Elmin inkişafında baş verən diferensasiya və inteqrasiya prosesləri ənənəsi, elmin bəzi sahələrinin qarşılıqlı əlaqələri nəticəsində müstəqil və həm də qovuşuq bilik sahələrinin yaranması, bununla bərabər informasiyanın yeni texnologiya ilə işlənməsinə keçidlə əlaqədar olaraq sənədlərin daha geniş və dərin məzmun fərqləndirilməsinin zəruriliyi keçmiş sovet məkanında təsnifat sxeminin belə dəyişdirilməsinə (dövlət biblioqrafiyası orqanları üçün) gətirib çıxarmışdır. Təsnifat sxeminin cərgələrində aparılan sıra dəyişikliyi iyerarxiya prinsiplərinin pozulması hallarını aradan qaldırır və elmi fəaliyyət sahəsinin informasiya tələbatının daha dəqiq və ardıcıl təminatına şərait yaradır. Məsələn, dövlət biblioqrafiyası orqanlarında 1977-ci ilə qədər tətbiq olunan təsnifat sistemində ictimai elmlər onun əsas cərgələrində verilirdisə, təbiət elmləri kompleksi, texnika və sənaye, kənd təsərrüfatı bölgünün ikinci pilləsinə – 15,16 və 17-ci bölməyə düşürdü. Beləliklə, fizika-riyaziyyat, kimya, biologiya, geologiya- coğrafiya kimi əsaslı elm sahələri həmin təsnifatın bir pilləsində əks olunurdu. 1978-ci ildən tətbiq olunmağa başlayan təsnifat sistemində əsaslı elmlərin biblioqrafik informasiya təminatının səmərəliliyini artırmaq naminə daha da dəqiqləşdirmə aparılmış və bunun sayəsində əsas cərgənin sayı 19 şöbə artmışdır. Bu da təbiət, texnika

və kənd təsərrüfatı elmlərinin xüsusi şöbələrdə verilməsilə əlaqədardır. Belə ki, təbiət elmləri kompleksi beş xüsusi şöbədə (16-20), texnika sahələri (sənayenin müxtəlif sahələri ilə birlikdə on bir xüsusi şöbədə (21-31), kənd təsərrüfatı, kənd təsərrüfatı elmləri 38-ci şöbədə nəzərdə tutulur (8).

Haqqında bəhs olunan təsnifat üzərində dayanmaqda həmin sxemin elmi işçilərin biblioqrafik informasiya təminatında özünəməxsus yeri olduğunu göstərmək məqsədi güdülür. Təsnifat sxemi xüsusi metodiki göstərişlərlə, əlifba- predmet göstəricisilə və kod albomları ilə müşayiət olunur. Kod albomlarından ümumi mövzu planlaşdırılmasının və əlaqələndirilməsinin avtomatlaşdırılmış sistemində tətbiqinə imkan yaradır. Onun köməyilə çap məhsulunun uçotunu, qeydini mövzu bölgülərinə deyil, həm də formal və başqa əlamətlərə görə aparmaq mümkün olur. Bu zaman ədəbiyyatı məqsəd və oxucu istiqamətinə görə tiplərinin müəyyənləşdirilməsi elmi mütəxəssislərə biblioqrafik informasiya xidməti baxımından xüsusilə əhəmiyyətlidir. Ədəbiyyatın mövzu üzrə keyfiyyət uçotunun aparılması da nəzərə alınmış və bu da dəqiq metodikaya əsaslanırdı.

Təsnifatda 11700 rubrikadan (yarımrubrikalar daxil olmaqla) ibarət əlifba- predmet göstəricisi mövcuddur və bu da ondan müxtəlif problem, mövzu üzrə axtarış aparılması üçün istifadə olunmasını xeyli asanlaşdırır. Əlifba ilə verilmiş əsas elmi terminlər fikrimizi bir daha təsdiq edir. Rubrikalar təsnifatın bölmələrinə verilən isnadlarla, maşın rəqəm kodları ilə müşayiət olunur. Göstərici ümumi qəbul olunmuş norma ilə tərtib edilmişdir. Əvvəl predmet, sonra bölmə və maşın kodu verilir (6).

Təsnifatın indeksləşdirilməsi onun bölmə və yarımbölmələrinin ardıcıllığını, iyerarxiyasını və qarşılıqlı əlaqələrini nizama salır, istənilən pillədə meydana gələn yeni anlayışların əlavə olunmasına imkan verir. Hər indeksin yanında bölmənin, yarımbölmənin, başqa daha kiçik bölgülərin məzmununu ifa edən onluq maşın kodları qoyulur. Bütün bunlar elm adamlarının və mütəxəssislərin öz ixtisaslarına dair müxtəlif mövzular və problemlər haqqında biblioqrafik informasiya almalarına olduqca müsbət təsir göstərirdi.



Sənədlərin maddi obyekt kimi yayılması prosesində onların səpələnməsi və bununla da daxili məzmun əlaqələrinin və ardıcıllıqlarının müəyyənləşdirilməsinin çətinləşməsi ayrı-ayrı sənədlərin axtarışlarının optimallaşdırılmasına mənfi təsir göstərir. Lakin bu səpələnmə kortəbiliyilə yanaşı son anında məqsədyönlü hal alır, müəyyən məkanda toplanmasına, mühafizə olunmasına və ictimai istifadəsinə imkan yaranır. Çap əsərlərinin və sosial informasiyanı əks etdirən başqa sənədlərin səpələnmə prosesində düşdüyü, toplandığı, mühafizə olunduğu və ictimai istifadəsinin təmin edildiyi ən mühüm və səmərəli məkan kimi birinci növbədə kitabxanalar nəzərə alınmalıdır. Kitabxana sosial kommunikasiyalar sistemində sənədlərin toplanma mütəşəkkilliyində, mühafizəsində, ictimai istifadəsində çox böyük əhəmiyyət kəsb edən, misli olmayan bir sosial institutdur. «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununda deyildiyi kimi «Kitabxana elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur» (2,s.139).

Sənəd kommunikasiyaları sistemində baş verən daxili çətinliklərin, müxtəlif səbəblərdən irəli gələn obyektiv və subyektiv maneələrin aradan qaldırılmasını, ümumi, xüsusi və fərdi uyğunluqların həyata keçirilməsini təmin etməklə həmin sistemin optimal inkişafına təsir göstərən mühüm vasitələrdən biri olan biblioqrafik fəaliyyət, onun məhsulu kimi formalaşmış biblioqrafik informasiya kitabxanalarla eyni vaxtda, həm də bilavasitə onların daxilində baş vermiş, təşəkkül tapmış, formalaşmış və kitabxanada həyata keçirilən işlərin mühüm tərkib hissəsinə çevrilmişdir. Məhz ona görə də biblioqrafik fəaliyyətin həyata keçirilməsində əhəmiyyətli olan təşkilati qurumlardan söhbət gedəndə ilk növbədə kitabxanaların adı çəkilir. Müxtəlif məqsədlərlə istifadə olunan, elmin, istehsalın, təhsilin, tərbiyə işinin biblioqrafik infor-

masiya təminatında əhəmiyyətli olan biblioqrafik ehtiyatların əsasını da, demək olar ki, kitabxanaların biblioqrafik informasiya nəşrləri təşkil edir.

Kitabxana cəmiyyətin müasir dövrün tələblərinə, beynəlxalq standartlara uyğun səviyyədə informasiyalaşmasında bərabəri olmayan bir mərkəzdir və qarşısına qoyduğu son məqsədə çatmaqda əsaslandığı sənəd bazası forma müxtəlifliyi ilə bərabər informasiya məzmununa və istiqamətinə görə də fərqlənir. Bunlardan birincisi sosial informasiyanı, biliyi əks etdirən ilkin, ədəbi, ikincisi isə biblioqrafik informasiya, ikinci dərəcəli hesab edilən mənbələrdən ibarətdir. Kitabxanalarda informasiya istifadəçilərilə aparılan işdə hər iki informasiya sənədləri özlərinə görə xüsusi əhəmiyyət kəsb edir. İnformasiya istifadəçiləri maraq dairələrinə uyğun məqsədlərlə, o cümlədən elmi axtarışlar, istehsalatla, idarəetmə, fərdi və kollektiv sahibkarlıq, biznes, ümumi, şəxsi, fasiləsiz təhsil, mənəvi- əxlaqi tərbiyə və başqa məqsədlərlə ilkin sənədlərə ehtiyac duyur və bu da onların həmin məqsədlərinə uyğun sənədlər haqqında informasiya almalarına vasitəçilik edən biblioqrafik informasiya mənbələrinə müraciət etmələrini zəruriləşdirir. Biblioqrafik informasiya nəşrlərindən ibarət olan ikinci sənədlər informasiya istifadəçilərinə əməli fəaliyyət sahələrinə relevant olan sənədlərin nə dərəcədə mövcudluqlarını və onların ünvanlarını müəyyənləşdirməkdə yardımçı olur. Məhz buna görə də kitabxanalarda informasiya istifadəçilərinə (və ya oxuculara) edilən xidməti yardımın səmərəliliyi, keyfiyyəti orada biblioqrafik işin məqsədyönlülüyündən, təşkili səviyyəsindən çox asılıdır. İnformasiya istifadəçilərinin əksəriyyəti, peşə istiqamətlərindən, hazırlıq səviyyələrindən, ədəbiyyatla, biblioqrafik mənbələrlə müstəqil işləmək səriştələrindən asılı olmayaraq kitabxanalara müraciət etmək zərurətilə qarşılaşırlar. Bu həmişə belə olmuş və indi də əsasən belədir. Bəzən belə hesab edilir ki, yeni informasiya texnologiyasının tətbiqi kitabxanaların getdikcə əhəmiyyətini azalda bilər. Amma yaddan çıxarmaq olmaz ki, elektron informasiya bazaları hansısa fonda əsaslanır və belə fond daimi reallığına görə əvəz olunmazdır.



Azərbaycanda fəaliyyət göstərən kitabxanaların əksəriyyəti xeyli dərəcədə biblioqrafik informasiya ehtiyatları sisteminə malikdir. Doğrudur bu sistemin əsasını hələlik ənənəvi biblioqrafik vəsaitlər təşkil edir və onlar oxucuların maraq dairəsinin təminatında, konkret sorğularının ödənilməsində böyük əhəmiyyətə malik olurlar.

Kitabxanalarımıza müraciət edən, informasiyalaşmaq baxımından bəhrələnmək istəyənlərin tərkibi xeyli genişlənmişdir. Şagird, tələbə, gənc elmi-tədqiqatçı, müxtəlif bilik və əməli fəaliyyət sahələrinin alimləri, yüksək səviyyəli mütəxəssislərlə bərabər sahibkarlar, biznesmenlər öz informasiyalarını təkmilləşdirmək, biliklərini artırmaq məqsədilə kitabxanalara müraciət edirlər. Yüksək ixtisaslı mütəxəssislər dedikdə Azərbaycan Respublikasının əsas elmi ocağı hesab edilən Milli Elmlər Akademiyasının, ali təhsil müəssisələrinin alimləri, elmi-tədqiqatla məşğul olan başqa əməkdaşları ilk növbədə nəzərdə tutulur. Azərbaycan Milli Elmlər Akademiyasının 2005-ci ilin oktyabr ayında keçirilən yubiley təntənəsində Akademiyanın prezidenti akademik M.Kərimovun məruzəsində qeyd edildiyi kimi Akademiyanın «yarandığı vaxtdan indiyədək onun idarələrində alınmış 1000-dən artıq elmi nəticə dünya elminin ən mühüm nailiyyətləri kimi qəbul olunmuşdur (4,s.3).Bu Azərbaycan elminin tarixində çox böyük hadisədir və mühüm kitabxanalarımızın, o cümlədən AMEA-nın Mərkəzi Elmi Kitabxanasının da belə möhtəşəm nailiyyətin əldə olunmasında xidməti az olmamışdır. Respublikamızın ali məktəblərində 81 istiqamət və 270-dən çox ixtisas üzrə mütəxəssis hazırlanır. Tələbələrin təlim- tərbiyəsi ilə 650-dək kafedrada çalışan 11 min nəfərdən çox professor- müəllim məşğul olur (3). Bunların hamısı öz informasiya bazalarını genişləndirmək və təkmilləşdirmək üçün kitabxanalara, onların biblioqrafik informasiya ehtiyatlarına müraciət edirlər.

2003-cü ilin məlumatına görə ölkəmizdə 3687 kommersiya qurumu, o cümlədən 243 xarici investisiyalı təşkilat qeydiyyatdan keçib (1). Hal-hazırda 200 min fərdi sahibkar fəaliyyət göstərir. Onların təxminən 50-55% -i ticarətçidir, nəqliyyatla məşğul olan

sahibkarlar ikinci yerdə gedir. İstehsalla məşğul olan fərdi sahibkarların sayı artmaqdadır. Artıq bunlar da kitabxanalarımızın abonentləridir, biblioqrafik xidmət prosesinin təsir obyekti kimi diqqət mərkəzində olmalıdırlar.

Kitabxanalarda müxtəlif elm, mədəniyyət sahələrinin elmi mütəxəssislərinə, ümumi, xüsusi peşə mənsublarına biblioqrafik təsirin relevantlığının, dolğunluğunun, kompleksliliyinin təmin olunmasında əsas amil, orada biblioqrafik informasiya ehtiyatlarının yetkinliyidir. Biblioqrafik informasiya ehtiyatları dedikdə birinci növbədə soraq-biblioqrafiya aparatı, o cümlədən, kataloq-kartoteka sistemi, soraq və biblioqrafik nəşrlər fondu nəzərdə tutulur. Bu aparat haqqında burada geniş bəhs olunmasına ehtiyac yoxdur. Onların tərkibi, quruluşu və funksiyaları aydındır. Lakin soraq və biblioqrafik nəşrlər fondunun komplektləşdirilməsi üçün nəzərdə tutulan soraq nəşrlərində bazar iqtisadiyyatına keçidlə əlaqədar xeyli əlavə materialları seçmək və onları komplektləşdirmə prosesində diqqət mərkəzində saxlamaq lazımdır. Belə sənədlər sahibkarlar, biznesmenlər üçün xüsusilə maraqlı ola bilər. Məsələn, auditor fəaliyyəti formalaşır, müvafiq qanunlar qəbul edilir, audit, mühasibat uçotu, maliyyə fəaliyyətləri, vergilər üzrə müxtəlif normativ sənədlər meydana gəlir. Kitabxanaların soraq- məlumat nəşrləri fondu formalaşdırılan zaman bu qəbildən olan və başqa sənədlər nəzərə alınmalıdır.Fond belə normativ aktlarla, onlarda gedən dəyişikliklərlə, əlavələrlə, rəsmi mənbələrdə, dövri və ardı davam edən nəşrlərdə dərc olunan izahat sənədlərilə təkmilləşdirilməlidir.

Əsas amillərdən biri də kitabxanalarımızın, onlarda gedən biblioqrafik proseslərin maddi- texniki bazasını möhkəmləndirməkdən ibarətdir. Texniki tərəqqinin indiki səviyyəsi müstəqilliyimizlə əlaqədar olaraq beynəlxalq iqtisadi, elmi, mədəni əlaqələrin getdikcə genişlənməsi, tamamilə yeni iqtisadi sistemin formalaşması kitabxana- informasiya xidməti sistemində köklü dəyişiklik aparılmasını, biblioqrafik proseslərin, o cümlədən biblioqrafik axtarışda yeni texnologiyanın tətbiqini zəruriləşdirir. Biblioqrafik xidmətdə təcili həllini gözləyən problem kompüter texnikasının



geniş imkanlarından bacarıqla və sərriştəli istifadəyə nail olmaqdır. Avtomatlaşdırılmış axtarış sistemləri nəinki informasiya istifadəçilərinin müxtəlif kitabxana fondlarından dövrün tələbləri səviyyəsində istifadəsini təmin edər, həm də ölkədaxili və beynəlxalq informasiya əlaqələrinə o müsbət təsir göstərər. Bunun üçün əsas şərtlərdən biri Azərbaycan Respublikasına məxsus alqoritm proqramının işlənməsi və ya beynəlxalq aləmdə mövcud olan proqramların Azərbaycan versiyasına nail olmaqdır.

Kiabxanada göstərilən xidmət zamanı oxucular, xüsusilə elmi- tədqiqatçılar informasiya tələbatlarının ödənilməsində biblioqrafik informasiya ilə bərabər elmi informasiya da almaq marağında olur. Geniş imkanlı terminala malik olan elektron biblioqrafik məlumat bazaları, elektron kataloqlar, İNTERNET sistemi onların istədikləri mətnlərlə təmin olunmalarını həyata keçirər və hər bir informasiya istifadəçisinin axtarışa sərf etdiyi vaxtı minimuma endirər.Nə deməkdir İNTERNET? İNTERNET vahid qaydalarla işləyən çox sayda kompüter şəbəkələrini birləşdirən ümumdünya şəbəkəsidir. Ümumdünya VEB şəbəkəsi (www) İNTERNET-in inkişafında mühüm mərhələdəir. VEB-ə qədər İNTERNET-in istifadəçiləri çox məhdud olduğu halda, bu yeni altsistemi (VEB) və xidmət növü meydana gəldikdən sonra ümumdünya kompüter şəbəkələri sisteminə qoşulanların, ondan istifadə edənlərin tərkibi xeyli artır, genişlənir. Bu xidmətdən biznesdə, sahibkarlıq təsisatlarında, siyasi fəaliyyətdə, dövlət idarələrində, mədəniyyətdə, kütləvi informasiya vasitələrində istifadə olunmağa başlayır. VEB sisteminin əsasında hepermətn, yəni isnad əlaqələri ilə bağlı mətnlər çoxluğu durur. Həmin mətnləri «məqalə»,«sənəd» və ya «səhifə» də adlandırırlar.

Azərbaycanın mühüm kitabxanaları, o cümlədən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, Naxçıvan Müxtar Respublikasının Dövlət Kitabxanası, xüsusi elmi kitabxanalar,ali məktəb kitabxanaları öz fəaliyyətlərini yeni tələblərə uyğunlaşdırmaq üçün müxtəlif bilik və fəaliyyət sahələrinin informasiya istifadəçilərinin biblioqrafik informasiya təminatının kompleksliliyini, səmərə-

liliyini, keyfiyyətini yüksəldilməsi yuxarıda qeyd olunan amillərdən asılı olduğunu əsas götürərək təşəbbüskarlıqlarını ciddi şəkildə artırmalıdırlar.

Kitabxana mühitində biblioqrafiyalaşdırma prosesi həyata keçirilən zaman müvafiq kitabxanada informasiya tələbatını yaradan səbəblər həm ölkə, həm də məhəlli baxımdın araşdırılmalı, öyrənilməli, onlara uyğun biblioqrafik informasiya mənbələri üçün mövzular müəyyənləşdirilməlidir. Təsadüfi, hər hansı bilik və fəaliyyət sahələrinin biblioqrafik informasiya təminatında səmərəsi olmayan mövzulardan imtina etmək lazımdır.

## ƏDƏBİYYAT

*Azərbaycan dilində*

1. *Elmanoğlu S. Sahibkarlığın inkişafı mühüm dövlət siyasətidir //Azərbaycan.-2004.-16 aprel.*
2. *«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının qanunu //İsmayılov X.Kitabxana menecmentinin əsasları:Dərs vəsaiti.-B.: 2005.-S.138-159.*
3. *Mərdanov M. Azərbaycan Respublikasında milli təhsilin inkişafı sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr: Azərbaycan müəllimlərinin qurultayında məruzə // Azərbaycan müəllimi.-1998.- 10 oktyabr.*
4. *Milli Elmlər Akademiyasının prezidenti akademik Mahmud Kərimovun məruzəsi:Akademiyanın 60 illik yubileyi münasibətilə //Respublika.-2005.-15 dekabr.*
5. *Müstəqil Azərbaycan –10 il.-B.,2001.-S.163.*

*Rus dilində*

6. *Азерская Н.Я. Единая схема классификации литературы для книгоиздания в СССР //Сов.библиогр.-1978.-№2.-*
7. *Бугрова Т. Что может кабинет деловой информации //Библиотека.-1997.-№12.-С.15.*
8. *Единая схема классификации литературы для книгоиздания в СССР.-М.,1971.-467 с.;1986.-599 с.*
9. *Коршунов О.П. Библиография: теория, методология, методика.-М.: «Книга»,1986.-286 с.*



*Зохраб Алиев*

# ИНФОРМАЦИОННЫЕ ПОТРЕБНОСТИ АЗЕРБАЙДЖАНСКОГО ОБЩЕСТВА И ОСНОВНЫЕ ФАКТОРЫ ИХ БИБЛИОГРАФИЧЕСКОГО ИНФОРМАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ

***РЕЗЮМЕ***

*В современных социально-экономических условиях независимой Азербайджанской республике появились новые потребители информации, как бизнес, предприниматели.*

*В статье освещаются вопросы библиографического обеспечения разных информационных потребностей отдельных групп потребителей, также бизнес, предпринимателей и др.*

**Solmaz SADIQOVA**
*Müəllim*

# GƏNCLƏRİN MİLLİ RUHDA TƏRBİYƏ OLUNMASINDA «HEYDƏR ƏLİYEV: BİBLİOQRAFİK MƏLUMAT KİTABI»NIN ƏHƏMİYYƏTİ

Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır. Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər.

*HEYDƏR ƏLİYEV*

Şəxsi biblioqrafiyanın özünəməxsus obyekti müəyyən şəxsin əsərlərindən və onun haqqında ədəbiyyatdan ibarətdir. Birinci halda universal biblioqrafiyada olduğu kimi biblioqrafiyalaşdırma obyektlərinin forma əlaməti, yəni məlum şəxsə məxsusluğu əsas götürülür və məzmun həddi həmin müəllifin yazdığı əsərlərdən asılı olur (4, s.105).

Siyasi dövlət xadiminə həsr olunan biblioqrafik informasiya mənbələri həm də həmin şəxsin dünyagörüşünün, çoxcəhətli, ictimai-siyasi, ideoloji fəaliyyətinin cəmiyyətin inkişafında və dövlətçiliyin möhkəmləndirilməsində, beynəlxalq iqtisadi, elmi və mədəni əlaqələrin genişlənməsindəki misilsiz rolunun təbliğində və yayılmasında mühüm vasitədir. Nüfuzlu biblioqrafiyaşünas alimlər biblioqrafik informasiya nəşrlərinin tarixin ayrı-ayrı mərhələlərində tədqiqatçılar və kitab həvəskarları üçün nadir və qiymətli çap əsərlərinə dair «Qırmızı kitab» rolu oynadığını iddia etməkdə yanılmırlar. Bu baxımdan, Azərbaycan Respublikasının prezidenti, milli dövlətçiliyimizin memarı, dünya şöhrətli siyasi xadim, xalqımızın iftixarı cənab Heydər Əlirza oğlu Əliyevə həsr olunan geniş əhatəli, mükəmməl biblioqrafik informasiya nəşrləri də cəmiyyətimizin indisi və gələcəyi üçün çox ciddi informasiya qaynağı olaraq onun yaradıcı irsinin araşdırılmasında və öyrənilməsində istiqamətləndirici məşəl rolunu oynaya bilər (11, s.25).



Azərbaycan Respublikasının memarı və qurucusu olan Azərbaycan xalqının Ümummilli lideri cənab Heydər Əliyevin yeni nəslin tərbiyəsində göstərdiyi misilsiz xidmətlərini və atalıq qayğısını yaddaşlarda daimi yaşatmaq, Azərbaycan gəncliyinə verdiyi dəyərli tövsiyələrini təbliğ etməkdə kitabın rolu çox böyükdür.

Nəşr olunmuş kitablardan biri və demək olar ki, birincisi – müasir Azərbaycan Respublikasının memarı və qurucusu olan Ümummilli Liderimiz cənab Hedər Əlirza oğlu Əliyevin 80 illik yubileyi münasibətilə yüksək poliqrafik səviyyədə çap olunmuş biblioqrafik məlumat kitabıdır.

Bakı Dövlət Universiteti Elmi Şurasının qərarı ilə ilk dəfə olaraq «Dünyanın görkəmli dövlət xadimləri» seriyasından olan bu kitab müstəqil Azərbaycan dövlətçiliyinin inkişafında və möhkəmləndirilməsində misilsiz rolu olan Heydər Əliyev irsinin biblioqrafiyalaşdırılması sahəsində atılan ilk addımdır. 434 səhifləik Azərbaycan dilində, 446 səhifəlik rus dilində, 455 səhifəlik ingilis dilində çap olunmuş bu sanballı biblioqrafik əsər (7; 8; 9) BDU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor Abel Məhərrəmovun rəhbərliyi və ümumi redaktəsi ilə nəşr edilmişdir. Kitabın tərtibçi-müəllifləri əməkdar elm xadimi, BDU-nun kitabxanaşünaslıq kafedrasının müdiri, professor Abuzər Xələfov və biblioqrafiyaşünaslıq kafedrasının müəllimi, bu sətirlərin müəllifi Solmaz Sadıqovadır.

Kitabın Bakı Dövlət Universitetində təqdimat mərasimi olmuş (7 may 2003-cü il), mərasimdə Azərbaycan Respubikası təhsil naziri Misir Mərdanov Heydər Əliyev irsinə həsr olunmuş belə bir biblioqrafik vəsaitin ilk dəfə çap olunduğunu qeyd etdi. M.Mərdanov xaricdə olarkən oradakı kitabxanalarda Azərbaycan və onun rəhbəri Heydər Əliyev haqqında çox az kitab olduğunu təəssüf hissi ilə mərasim iştirakçılarının nəzərinə çatdıraraq onu da bildirdi ki, belə bir kitabın xarici ölkə kitabxanalarına göndərilməsi çox vacib və təqdirəlayiqdir.

Elm və təhsil komissiyasının sədri, millət vəkili Ş.Əsgərov Heydər Əliyevin həyat və fəaliyyətinə tarixi faktlarla qısa bir nə-

zər salaraq belə şəxsiyyətləri zaman çox nadir hallarda yetişdirdiyini vurğuladı. Söz Qara Dəniz İqtisadi Əməkdaşlıq Şurasının sədri V.Çeqiaşviliyə verildi. O, Heydər Əliyev şəxsiyyəti və irsindən söhbət açaraq onu Tanrının Azərbaycan xalqına göndərdiyi dəyərli töhfə kimi qiymətləndirdi.

Millət vəkili Nizami Cəfərov biblioqrafik məlumat kitabının yaradıcılarının işini yüksək qiymətləndirdi və bu kitabı indiyə qədər Heydər Əliyevə həsr olunmuş bütün kitablardan ən yaxşısı kimi dəyərləndirdi.

Qeyd etmək lazımdır ki, kitab haqqında dövri mətbuat səhifələrində bu qiymətli vəsaitin əhəmiyyətindən bəhs edən yazılar dərc olunmuşdur (1; 2; 3; 5; 6; 10).

Professor Abel Məhərrəmovun kitaba yazdığı «Azərbaycan intibahının böyük memarı» adlı ön sözdə Heydər Əliyev şəxsiyyəti haqqında obyektiv fikirlər söyləmiş, əsrin təxminən üçdən birini əhatə edən Heydər Əliyev erasını çox yüksək qiymətləndirmişdir (11).

4 hissə, 8 bölmədə qruplaşdırılmış mənbələr xronoloji ardıcıllıqla düzülmüşdür.

«Heydər Əliyev şəxsiyyəti» adlandırılan I hissədə Azərbaycan prezidentinin həyat və fəaliyyətinin qısa salnaməsi verilmişdir. Bu müdrik insanın siyasət, iqtisadiyyat, elm, təhsil, mədəniyyət, incəsənət, ədəbiyyat, həmçinin ayrı-ayrı görkəmli şəxsiyyətlər haqqında söylədiyi fikirləri özündə əks etdirən «Heydər Əliyevin fikir dünyasından seçmələr» bölməsində öz əksini tapmışdır. Biblioqrafik məlumat kitabının II hissəsi «Heydər Əliyevin kitab şəklində nəşr edilmiş əsərləri» adlanır. Sovetlər birliyi dövründə «Azərbaycanın tərəqqisi və inkişafına yönəlmiş siyasət (1969-1990-cı illər)» bölməsində verilmiş kitabları izlədikdə məlum olur ki, hələ o dövrdə, 1977-ci ilin avqustun 27-də Heydər Əliyev Bakının ali məktəb tələbələrinin nümayəndələri ilə Moskvanın, Leninqradın və digər şəhərlərin ali məktəblərində oxuyan azərbaycanlılarla respublikanın fəalları ilə görüşündə nitq söyləmişdir (S.156, mənbə 14). 1978-ci il mayın 18-də Azərbaycan müəllimlərinin VI qurultayındakı nitqi (S.158, mənbə 25); 1979-cu ilin aprelin 25-də «Fəal həyat mövqeyinin formalaşdırılması: Mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri: Ümumittifaq elmi-praktik konfransda məruzə» (S.159, mənbə 32); 1979-cu il iyulun 17-də «İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında (S.160, mənbə 33); «Vicdanımızın normaları ilə» (S.160, mənbə 35); 1980-ci il mayın 28-də Azərbaycan ali məktəblərinin işini partiyanın yüksək tələbləri səviyyəsinə qaldıraq: Ali məktəb işçilərinin respublika müşavirəsində nitqi (S.160, mənbə 36); Xalqların dostluğu ədəbiyyatların dostluğudur; Yazıçıların ümumittifaq yaradıcılıq konfransında məruzə (S.161, mənbə 41); 1981-ci il sentyabrın 3-də «Gənclərin birlik, dostluq və əməkdaşlığının möhkəmləndirilməsi, sülh və sosial tərəqqi uğrunda» «Gənclər, inkişaf və sülh» mövzusunda Beynəlxalq gənclər konfransında nitq söyləmişdir (S.163, mənbə 57). Hələ o dövrdə «Qoy ədalət zəfər çalsın» sərlövhəli kitabı daha çox diqqəti cəlb edir (S.163, mənbə 52).

Gənclərin əmək, əxlaq və ideya siyasi tərbiyəsini hər vasitə ilə gücləndirməli (S.164, mənbə 57) və s. belə mənbələri daha da artırmaq olar.

Müstəqillik yollarında (1991-2003-cü illər) adlanan bölmədə Heydər Əliyevin Azərbaycan, rus və xarici dillərdə nəşr edilmiş kitablarının, əsərlərinin və çoxcildliklərin biblioqrafik təsviri xronoloji ardıcıllıqla öz əksini tapmışdır. Əvvəlcə 10 cildlik əsərlərin («Müstəqilliyimiz əbədidir»), sonra 4 cildlik («Müsəqillik yollarında»), nəhayət 2 cildlik («Müstəqillik yollarında») əsərlərin biblioqrafik təsviri verilməklə, ayrı-ayrı cildlərin məzmununun açılmasına xüsusi diqqət yetirilmişdir. Bu isə kitabın əhəmiyyətini bir daha artırır.

«Müstəqilliyimiz əbədidir» adlı 10 cildlikdə böyük tarixi şəxsiyyət, dünya şöhrətli siyasi xadim, müdrik xalq rəhbəri Heydər Əliyevin 1993-cü ilin iyunundan sonrakı siyasi fəaliyyətinin salnaməsi olan bu çoxcildlikdə Azərbaycanda son illərdə baş vermiş ictimai-siyasi proseslər, mürəkkəb, çoxşaxəli hadisələr, milli dövlət quruculuğunun ayrı-ayrı mərhələləri və əsasları, bu işdə mövcud ziddiyyətlər və problemlər, daxili və xarici siyasəti-

nin başlıca istiqamətləri dərindən təhlil edilir və bu dövr tarixi-siyasi baxımdan tam obyektivlik və həqiqət meyarları ilə qiymətləndirilir.

Məsələn, YUNİSEF təşkilatında uşaqların həyatı, müdafiəsi və inkişafına dair BMT Bəyannaməsinin imzalanması mərasimində çıxış (27 sentyabr 1994-cü il); Tələbə qəbulu respublikanın həyatında mühüm hadisədir (Ali və orta ixtisas məktəblərinə qəbulla əlaqədar Prezident aparatında keçirilmiş müşavirədə giriş və yekun sözü - 2 avqust 1994-cü il), Mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq; Təhsilin inkişafında dövlət qayğısı, Müstəqilliyimizi qoruyub saxlamaq üçün xalqımızın milli və mənəvi birliyini təmin etməliyik, Dövlət dili milli-mənəvi sərvətimizdir və s.

Ayrı-ayrılıqda çap olunmuş əsərlərini nəzərdən keçirdikdə gənclərimizin mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsi ilə əlaqədar «Allahın yolunda hamımız bir olaq» (1993), «Azərbaycan xalqının hünəri əbədi yaşayacaqdır» (1995), «Müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi» (1996), «Azərbaycan prezidentinin gənclərlə görüşü (1 fevral 1997-ci il)» (1997), «Biz öz yurdumuza qayıdacağıq: Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Xocalı, Kəlbəcər, Şuşa, Laçın, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları ictimaiyyəti nümayəndələri ilə görüşlərinin materialları» (1997), «Azərbaycanlıların soyqırımı haqqında» (1998), «Dünya azərbaycanlılarına» (1998), «Dinimiz xalqımızın milli-mənəvi sərvətidir» (1999), «Ədəbiyyatın yüksək borcu və amalı» (1999), «Yeni Azərbaycan Partiyasının hər bir üzvü dövlətimizin, Azərbaycan prezidentinin siyasətinin həyata keçirilməsində mübariz insan, mübariz əsgər olmalıdır» (1999), «Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayırıcında» (2001), «Yeni Müstəqil Azərbaycan uğrunda!» (2001), «Azərbaycançılıq – birliyimizin əsasıdır» (2002) və s. diqqətimizi cəlb edir.

Tərtibçi-müəlliflərin araşdırmaları nəticəsində məlum olmuşdur ki, 1969-2003-cü illər ərzində H.Əliyevin 209 adda kitabı



nəşr edilmişdir. Onlardan 118-i Azərbaycan, 83-ü rus, qalanları isə müxtəlif xarici dillərdədir. Müstəqillik dövründə Azərbaycan dilində çap olunmuş 50 adda kitabın 16-nı çoxcildli əsərlər təşkil edir.

Biblioqrafik məlumat kitabının «Heydər Əliyev haqqında ədəbiyyat» adlanan III hissəsində 8 yarımbölmənin verilməsi onun dəyərini daha da artırır. Bu bölmələr: «Böyük həyat yolundan səhifələr», «Heydər Əliyev Azərbaycan dövlətçiliyinin memarıdır», «Azərbaycanın sosial-iqtisadi inkişafında Heydər Əliyev mərhələsi», «Heydər Əliyev və Azərbaycan Respublikasının neft strategiyası», «Heydər Əliyev irsində Azərbaycan dili və ədəbiyyatı məsələləri», «Heydər Əliyev və Azərbaycanda elm, təhsil, mədəniyyət və incəsənətin inkişafı», «Azərbaycan ədəbiyyatında Heydər Əliyev surəti», «Heydər Əliyev beynəlxalq aləmdə» adlanır ki, bu da gənclərimizin mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsində, Heydər Əliyev irsinin öyrənilməsində əhəmiyyətini artırır.

«Böyük həyat yolundan səhifələr» bölməsində cəmi 65 adda: 51 adda Azərbaycan dilində, 9 adda rus dilində, 3 adda ingilis dilində, 2 adda türk dilində;

«Heydər Əliyev Azərbaycan dövlətçiliyinin memarıdır» bölməsində cəmi 95 adda: 80 adda Azərbaycan dilində, 9 adda rus dilində, 4 adda ingilis dilində, 1 adda türk dilində, 1 adda fars dilində;

«Azərbaycanın sosial-iqtisadi inkişafında Heydər Əliyev mərhələsi» bölməsində 27 adda Azərbaycan dilində;

«Heydər Əliyev və Azərbaycan Respublikasının neft strategiyası» bölməsində cəmi 29 adda: 15 adda Azərbaycan dilində, 6 adda rus dilində, 8 adda ingilis dilində;

«Heydər Əliyev irsində Azərbaycan dili və ədəbiyyatı məsələləri» bölməsində 5 adda Azərbaycan dilində;

«Heydər Əliyev və Azərbaycanda elm, təhsil, mədəniyyət və incəsənətin inkişafı» bölməsində cəmi 26 adda: 25 adda Azərbaycan dilində, 1 adda rus dilində;

«Azərbaycan ədəbiyyatında Heydər Əliyev surəti» bölməsində cəmi 23 adda: 22 ada Azərbaycan dilində, 1 adda türk dilində.

Bu bölmədə Heydər Əliyev haqqında yazılmış şerlər, poemalardan parçalar və ayrı-ayrı şəxslərin ürək sözləri adlanan «Tale ulduzu» adlı kitabın təsviri verilmişdir. Burada 83 nəfər müəllifin əsərlərinin sərlövhələri açılmışdır ki, bu da sahə mütəxəssislərinin informasiya təminatında çox mühüm əhəmiyyətə malikdir (S. 390, mənbə 475).

«Heydər Əliyev beynəlxalq aləmdə» bölməsində cəmi 64 adda: 44 adda Azərbayan dilində, 11 adda rus dilində, 6 adda ingilis dilində, 1 adda türk dilində, 1 adda gürcü dilində olan ədəbiyyat öz əksini tapmışdır.

IV hissədə verilmiş «Heydər Əliyevin əsərlərinin əlifba göstəricisi» və «Müəlliflərin əlifba göstəricisi» adlı yardımçı göstəricilər biblioqrafik məlumat kitabından istifadəni asanlaşdırır və istənilən ədəbiyyatın tez bir zamanda müəyyənləşdirilməsinə kömək göstərir.

544 mənbəni özündə birləşdirən məlumat kitabında «Dünyanın və Azərbaycanın görkəmli siyasətçiləri, elm və mədəniyyət xadimlərinin Heydər Əliyev haqqında fikirləri»nin də verilməsi diqqətəlayiqdir.

Biblioqrafiyaşünas alim, professor Zöhrab Əliyevin qeyd etdiyi kimi «Heydər Əliyev: Biblioqrafik məlumat kitabı» universal xarakterli biblioqrafik informasiya mənbələri silsiləsinə aiddir. Yəni kitab biblioqrafik informasiya ilə yanaşı, elmi-publisistik informasiyanı da özündə birləşdirir və bu da onun informasiya potensialını gücləndirir (5).

«Ön söz»ün müəllifi professor A.Məhərrəmovun qeyd etdiyi kimi, möhtərəm prezidentimiz haqqında diqqətinizə çatdırılan bu biblioqrafik məlumat kitabı digər analoji nümunələrdən kəskin surətdə fərqlənir. Hər hansı yazıçı, alim, incəsənət xadimindən yazılan biblioqrafiyalardan həmin sahə ilə bilavasitə bağlı olan insanlar istifadə edirlər. Heydər Əliyev haqqında olan bu məlumat kitabı isə hamının istifadə edəcəyi bir topludur. Çünki



möhtərəm prezidentmizin ömür yolu və yaradıcılığı həyatın bütün sferalarını əhatə edir və o, zaman-zaman ədəbiyyatdan ədəbiyyatçı qədər, elmdən alim qədər, sənətdən sənətşünas qədər xəbərdar olan, həm də cəmiyyətin inkişafında roluna görə bu sənət bilicilərindən xeyli irəlidə olan şəxsiyyətdir. Odur ki, bu əsər hamının, bütün oxucuların, xüsusən də gənclərin stolüstü kitabına çevriləcək və bundan sonra neçə-neçə nəsillər Heydər Əliyevin zəngin irsindən bəhrələnəcəkdir (11, s. 23).

Yekun olaraq qeyd etmək lazımdır ki, müstəqil Azərbaycan dövlətçiliyinin inkişafında və möhkəmləndiril-məsində misilsiz rolu olan Heydər Əliyev irsinin biblioqrafiyalaşdırıması sahəsində ilk addım olan «Heydər Əliyev: Biblioqrafik məlumat kitabı»nın Azərbaycan, rus və ingilis dillərində elektron diski də hazırlanmışdır.

## ƏDƏBİYYAT


1. *Aslan K. Heydər Əliyev irsi maraqla öyrənilir // Azərbaycan. – 2003. – 9 noyabr. – S.2.*

2. *Azərbaycanın özü kimi əbədi («Heydər Əliyev: Biblioqrafik məlumat kitabı» haqqında) // Bakı Universiteti. – 2003. – 19 dekabr. – S.8.*

3. *BDU dünya şöhrətli məzununun yubileyini qeyd etdi / «Heydər Əliyev: Biblioqrafik məlumat kitabı»nın təqdimat mərasimi keçirildi // Bakı Universiteti. – 2003. – 14 iyun. – S.2.*

4. *Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsati.- B.:Bakı Universiteti nəşriyyatı,2001.- 145 s.*

5. *Əliyev Z., İsmayılov N. Azərbaycan biblioqrafiyasını zənginləşdirən dəyərli töhfə: Dünyanın görkəmli dövlət xadimləri // Respublika. – 2003. – 13 iyun. – S.1; 2.*

6. *Əsədzadə Ü. «Heydər Əliyev: Bibiloqrafik məlumat kitabı» / BDU-da prezidentin yubileyi münasibətilə yeni kitab nəşr olunub // Yeni Azərbaycan. – 2003. – 8 may. – S.8.*

7. *Heydar Aliyev: Biblioqrafik refernce book / Compiled by: A.A.Khalafov, S.A.Sadiqova; Editor and preface A.M.Maharramov. – B.: Baku University Press, 2003. – 455 p.*

8. Heydər Əliyev: Biblioqrafik məlumat kitabı / Tərt. edənlər: A.A.Xələfov, S.A.Sadıqova; Red. və ön sözün müəllifi A.M.Məhərrəmov. – B.: Bakı Universiteti nəşriyyatı, 2003. – 434 s.

9. Гейдар Алиев: Библиографический справочник / Составители: А.А.Халафов, С.А.Садыгова; Ред. и автор выступ. слова А.М.Магеррамов. – Б.: Издательство Бакинского Университета, 2003. – 446s.

10. Qocayeva A. Dəyərli töhfə / Heydər Əliyev: Biblioqrafik məlumat kitabı haqqında // İki sahil. – 2003. – 9 may. – S.5.

11. Məhərrəmov A.M. Azərbaycan intibahının böyük memarı // Heydər Əliyev: Biblioqrafik məlumat kitabı. – B.: Bakı Universiteti nəşriyyatı, 2003. – S. 5-28.

***Солмаз Садыгова***

## ЗНАЧЕНИЕ КНИГИ «ГЕЙДАР АЛИЕВ: БИБЛИОГРАФИЧЕСКИЙ СПРАВОЧНИК» В ВОСПИТАНИИ МОЛОДЕЖЬ В НАЦИОНАЛЬНОМ ДУХЕ

### *РЕЗЮМЕ*

*В статье отмечается значение библиографического справочника, которая издана в высшем полиграфическом уровне к 80-летию общенационального лидера Азербайджана Гейдара Алиева, что впервые это книга из серии «Видные государственные деятели мира» первый шаг в области библиографировании наследие сыгравшего бесподобную роль в развитии и в укреплении государство независимого Азербайджана Гейдара Алиева. Говорится о значении этого фундаментального пособия в изучении наследие Гейдара Алиева.*

Qəmzə HACIYEVA
*Baş müəllim*

# NAZİM AXUNDOVUN BİBLİOQRAFİK FƏALİYYƏTİ

Filologiya elmləri doktoru, professor Nazim Axundov elmi-pedaqoji fəaliyyətlə yanaşı, milli biblioqrafiyanın inkişafında da yaxından iştirak etmişdir. Onun apardığı tədqiqatlar Azərbaycan dövri mətbuatının, xüsusilə, satira jurnallarının nəşri tarixilə, ədəbiyyatşünaslığın müxtəlif problemləri ilə bağlı olmuş və bu, özünü alimin biblioqrafik fəaliyyətində də büruzə vermişdir. Onun biblioqrafik fəaliyyəti çoxcəhətli olub, elmi işçilərin biblioqrafik təminatında mühüm əhəmiyyət kəsb edir.

Nazim Axundovun 20-dən çox kitabı çap olunmuşdur ki, bunlardan da 11-i bilavasitə biblioqrafik göstəricilərdir. İlk göstəricisini 1947-ci ildə (Cəfər Cabbarlı: Qısa ədəbiyyat göstəricisi) çap etdirən alim ömrünün sonuna kimi bu işi peşəkar biblioqraf səviyyəsində davam etdirmiş və Azərbaycan biblioqrafiyasının inkişafına öz təsirini göstərmişdir. Onun tərtib etdiyi elmi-köməkçi və tövsiyə xarakterli göstəricilər bədii ədəbiyyat və ədəbiyyatşünaslığa, Azərbaycan dövri mətbuatına həsr olunmuş biblioqrafik vəsaitlərdir. Bu vəsaitləri üç qrupa bölmək olar: şəxsi göstəricilər; ədəbiyyatşünaslığa dair sahəvi göstəricilər; dövri mətbuata dair biblioqrafik göstəricilər.

«Cəfər Cabbarlı» adlı qısa ədəbiyyat göstəricisi 1947-ci ildə nəşr edilmişdir. Bu əsər eyni zamanda müəllifin ilk mətbu əsəridir. Göstərici yazıçı haqqında qısa məlumatla başlayır və sonra onun 1932-1946-cı illər arasında nəşr olunmuş əsərləri haqqında biblioqrafik məlumatları əks etdirir. Burada C.Cabbarlının Azərbaycan dilində olan əsərləri, tərcümələri və onun haqqındakı ədəbiyyat verilmişdir.

«Mirzə Fətəli Axundov» adlı müxtəsər ədəbiyyat göstəricisi 1948-ci ildə çapdan çıxmışdır(11). Quruluş etibarilə əvvəlki göstəricini xatırladan bu biblioqrafik vəsaitdə əvvəlcə ədibin Azər-

baycan dilində olan əsərləri və haqqında ədəbiyyat, daha sonra isə rus dilinə tərcümə olunmuş əsərləri verilmişdir. Lakin vəsaitdə «Xəbərlər»də, «Elmi əsərlər»də çap olunmuş materialların verilməsi, annotasiyanın tətbiq edilməməsi göstəricinin metodikasına, məqsədinə, oxucu istiqamətinə uyğun deyildir (6, s.13).

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Səməd Vurğuna həsr edilmiş göstərici (12) əvvəlkilərə nisbətən həcm etibarilə daha böyük vəsaitdir. Burada şairin həm kitab şəklində çıxmış əsərləri, həm də dövri mətbuat səhifələrində dərc olunmuş əsərləri əhatə olunmuşdur. Tərtibçi tərəfindən yazılmış qısa girişdən sonra S.Vurğunun tərcümeyi-halına aid tarixi məlumatlar verilmişdir. «Əsərləri» hissəsində əvvəlcə kitab şəklində çıxmış 10 adda əsərinin təsviri verilmiş, daha sonra material ədəbi janrlara görə qruplaşdırılmışdır. Bundan sonra həyat və yaradıcılığı haqqındakı ədəbiyyat göstərilir ki, bu da iki hissəyə ayrılmışdır. I. Həyatı ; II. Yaradıcılığı.

Göstəricidəki bütün bölmələrdə biblioqrafik yazıların düzülüşündə xronoloji prinsipə riayət olunmuşdur. Bu şairin əsərlərinin nəşri tarixini izləməyə imkan verməklə yanaşı, onun yaradıcılığının inkişaf mərhələlərini də öyrənməyə şərait yaratmış olur. Ayrı-ayrı əsərlərinin nəşrini göstərən analitik təsvirdə bu daha aydın diqqəti cəlb edir.

Bu göstərici haqqında müxtəlif rəylər çıxmışdır (9;10). Həmin rəylərə münasibətini bildirən Ə.Xələfov qeyd edir ki, göstərici haqqında fikir söyləyərkən onun növünü, oxucu istiqamətini nəzərə almaq lazımdır. Bir göstəricidə müxtəlif dillərdə çap edilmiş materialların əhatə edilməsini tələb etmək düzgün deyildir və bunu vəsaitin ciddi qüsuru hesab etmək olmaz. Çünki həmin biblioqrafik göstəricinin tərtibində ədibin bir dildə olan əsərlərini və haqqında materialları əhatə etmək məqsədi güdülmüşdür (7, s.3-8).

Bu göstərici biblioqrafiyalaşdırmanın metodikası nöqteyi-nəzərincə düzgün tərtib olunmuş, şairin yaradıcılığının öyrənilməsində öz böyük rolunu oynamış və indi də əhəmiyyətini itirməmişdir (4, s.56).



S.Vurğun əsərlərinin nəşr tarixinin öyrənilməsində həqiqətən də böyük əhəmiyyəti olan göstəricidə köməkçi aparat kimi, sonda S.Vurğun əsərlərinin əlifba göstəricisi (janrlar üzrə) və haqqında yazmış müəlliflərin əlifba göstəricisi tərtib olunmuşdur ki, bu da müvafiq axtarışın aparılmasını, göstəricidən istifadəni xeyli asanlaşdırır.

N.Axundovun S.Vurğun haqqında tərtib etdiyi digər biblioqrafik göstərici 1965-ci ildə «Azərbaycanın elm və mədəniyyət xadimləri» seriyası ilə Milli Elmlər Akademiyasının Mərkəzi Elmi kitabxanası tərəfindən buraxılmışdır. Həmin nəşrin redaktorları akademik M.A.Dadaşzadə və xalq şairi B.Vahabzadə olmuşlar.

Əvvəlki göstəricidən 16 il sonra çap olunmuş bu biblioqrafik əsər daha mükəmməldir. O, quruluş etibarilə, demək olar ki, əvvəlki göstəricini xatırladır. Bununla belə bir sıra fərqli cəhətləri də vardır. Burada əvvəlcə Səməd Vurğunun həyat və yaradıcılığı haqqında məlumat verilmiş, daha sonra onun həyat və fəaliyyətinin əsas tarixləri göstərilmişdir. Fikrimizcə, bunlar biri-digərini təkrarladığından, onlardan birini vermək daha məqsədəuyğun idi.

Göstəricidə əsərləri yenə də janrlara görə ayrılmış (şeirləri, poemaları, dram əsərləri, tərcümələri və s.) və daxildə nəşr tarixinə görə ardıcıl şəkildə qruplaşdırılmışdır. Qeyd etdiyimiz kimi, belə düzülüş şairin əsərlərinin nəşr tarixini izləmək baxımından olduqca məqsədəuyğundur.

Burada yalnız «Ədəbi tənqidi məqalələri və publisistikası» və «Səməd Vurğun yaradıcılığına dair ədəbiyyat» bölmələrində, nədənsə, Azərbaycan dilində olan materiallarla yanaşı, rus dilində olan ədəbiyyat da verilmişdir. Başqa bölmələrdə rus dilində əsərlərin əks olunmadığı halda, yalnız bu iki bölmədə belə ədəbiyyatın nə məqsədlə verildiyi tərtibçi tərəfindən izah edilməmişdir. Çox düzgün olaraq Ə.Xələfov məsələnin belə yarımçıq qaldığını və əvvəlki gös-təricidən fərqli cəhətlərinin oxucuların nəzər diqqətinə çatdırılmamasını biblioqrafik vəsaitin başlıca nöqsanı hesab edir (7-.s.7).

Biblioqrafik göstəricinin sonunda ondan istifadəni asanlaşdırmaq məqsədilə «Səməd Vurğun əsərlərinin əlifba göstəricisi» (Azərbaycan və rus dillərində) və «Adlar göstəricisi» tərtib olunmuşdur. Qeyd edək ki, şairin həyat və yaradıcılığı haqqında yazılmış ədəbiyyatın əlifba prinsipi əsasında düzüldüyünü nəzərə alsaq, sonuncu köməkçi aparatın da verilməsinin məqsədəuyğun olmadığını görə bilərik.

Bütün bunlara baxmayaraq, hər iki göstərici Səməd Vurğun əsərlərinin nəşri tarixinin öyrənilməsində, oxucuların S.Vurğun yaradıcılığı ilə bağlı müxtəlif sorğularının öyrənilməsində böyük əhəmiyyət kəsb edirlər.

N.Axundov C.Cabbarlı haqqında qısa ədəbiyyat göstricisindən başqa ədibə həsr olunmuş daha iki biblioqrafik göstərici (1; 2) tərtib etmişdir. 1950-ci ildə M.F.Axundov adına Dövlət kitabxanası tərəfindən çap edilmiş göstəricinin redaktoru K.Məmmədovdur. Göstərici həm Azərbaycan, həm də rus dilində olan materialları əhatə edir. Kiçik girişdə qeyd olunur ki, bu biblioqrafik vəsait yazıçının həyat və fəaliyyətini, yaradıcılığını daha geniş və ətraflı öyrənmək üçün oxuculara yardım məqsədini daşıyır.

Göstəricidə ilk əvvəl C.Cabbarlının ayrıca nəşr olunmuş kitabları xronoloji ardıcıllıqla düzülmüş və onların hər birinin mündəricatı açılmışdır. Daha sonra şeirləri, felyetonları, hekayələri, dramları, məqalələri adlı yarım bölmələr verilmiş və bunların daxilində hər bir əsərin bütün nəşrləri göstərilməklə yanaşı biblioqrafik yazıların düzülüşündə yenə də xronoloji prinsip əsas götürülmüşdür.

«C.Cabbarlı haqqında ədəbiyyat» adlı ikinci əsas bölmə özü-özlüyündə müxtəlif yarım bölmələrə ayrılmışdır: 1.C.Cabbarlının ölümü münasibətilə ictimaiyyətin təəssüratı; 2.C.Cabbarlının tərcümeyi-halına aid material; 3.C.Cabbarlının yaradıcılığı haqqında; 4. C.Cabbarlının ayrı-ayrı əsərləri haqqında məqalə və rəylər; 5.C.Cabbarlının pyesləri səhnədə.

Göründüyü kimi, başqalarından fərqli olaraq, bu göstəricidə C.Cabbarlının həyat və yaradıcılığı ilə bağlı ədəbiyyat qarışıq



yox, dəqiqləşdirilərək ayrı-ayrı sahələr üzrə qruplaşdırılmış və hər birinin daxilində biblioqrafik yazıların düzülüşündə yenə də xronoloji prinsipə üstünlük verilmişdir.

Rus dilində C.Cabbarlının əsərlərini və haqqında olan ədəbiyyatı əhatə edən hissədə də materialların qruplaşdırılmasında, düzülüşündə eyni quruluş prinsipi tətbiq olunmuşdur.

Göstəricidə köməkçi aparat kimi həm Azərbaycan, həm də rus dillərində Cəfər Cabbarlının əsərlərinin və haqqında yazan müəlliflərin əlifba siyahısı verilmişdir. Lakin biblioqrafik yazılar göstəricidə nömrələnmədiyindən burada nə əsərin, nə də müəllifin qarşısında heç bir qeyd, yəni sıra nömrəsi, yaxud səhifə göstərilməmişdir. Belə halda onlar köməkçi aparat deyil, adi siyahıdır və bu şəkildə verilməsinin heç bir əhəmiyyəti yoxdur. Məhz bunu göstəricinin ən başlıca nöqsan cəhəti kimi qeyd etmək olar.

C.Cabbarlı haqqında 1965-ci ildə çap olunmuş üçüncü göstərici Azərbaycan Dövlət Kitab Palatası tərəfindən buraxılmışdır. Göstəriciyə yazılmış girişdə qeyd olunur ki, görkəmli dramaturq C.Cabbarlıya həsr olunmuş əvvəlki biblioqrafik göstəricinin nəşrindən 15 il keçir. Buna görə də oxucu və tədqiqatçılara kömək məqsədilə Kitab Palatası C.Cabbarlı göstəricisinin daha da təkmilləşdirilmiş yeni nəşrini çap edir. Göstəricidə Azərbaycanın istedadlı yazıçısının Azərbaycan və rus dillərindəki əsərlərinin əsas nəşrləri və onun haqqında olan ədəbiyyat əks olunmuş, öz aktuallığını itirmiş mənbələr isə buraya daxil edilməmişdir. Həmin mənbələrin hansı olduğu göstərilmir.

Quruluş etibarilə bu göstərici də əvvəlki kimidir. Yalnız C.Cabbarlı haqqında olan ədəbiyyat ayrı-ayrı bölmələr üzrə deyil, bir yerdə qarışıq verilmiş və əlifba prinsipi əsasında düzülmüşdür.

Təəssüf ki, əvvəlki göstəricinin tərtibində buraxılmış nöqsanlar burada yenidən təkrarlanır. Belə ki, «C.Cabbarlı əsərlərinin əlifba göstəricisi» və «Müəlliflərin göstəricisi» kimi verilmiş köməkçi aparat heç də axtarış funksiyasını asanlaşdırmaq imkanına malik deyil. Çünki onlar adi siyahı olub, heç bir axtarış əlamətini əks etdirmirlər.

Nazim Axundovun tərtib etdiyi şəxsi göstəricilərdən bi[r] Azərbaycanın görkəmli satirik şairi Mirzə Ələkbər Sabirə həs[r] olunmuşdur (8). M.F.Axundov adına Dövlət kitabxanası tərəfin[-] dən çap olunmuş bu göstəricinin redaktoru Ə.H.Qəh[-] rəmanovdur. Göstəricinin əvvəlində tərtibçinin verdiyi «Bir neç[ə] söz» adlı müqəddimədən aydın olur ki, bu biblioqrafik vəsai[t] M.Ə.Sabirin irsini tədqiq etmək və öyrənmək istəyən elmi işçilərə, müəllimlərə, tələbələrə və digər oxuculara kömək məqsədilə tərti[b] olunmuşdur. Göstərici M.Ə.Sabirin rus dilinə tərcümə edilib çap olunmuş bir neçə kitabı (7 adda) və onun haqqında yazılmış ma[-] teriallar müstəsna olmaqla ancaq şairin Azərbaycan dilində olan əsərlərini və onun haqqındakı ədəbiyyatı əhatə edir.

Biblioqrafik göstəricidə M.Ə.Sabirin həyatı haqqında veri[-] lən qısa biblioqrafik məlumatda şairin mətbuatda iştirakı və im[-] zalarını göstərən cədvəl verilmişdir. Cədvəldən aydın olur ki, şair hansı imzalarla hansı qəzet və jurnallarda öz əsərlərini çap etdir[-] mişdir. Ümumiyyətlə, cədvəldə Sabirin 53 imzası göstərilmişdir.

Göstərici «M.Ə.Sabirin əsərləri» və «M.Ə.Sabir haqqında» adlanan iki hissədən ibarətdir. Birinci hissədə biblioqrafik yazıla[-] rın düzülüşündə xronoloji, ikinci hissədə isə əlifba prinsipi əsas götürülmüşdür.

689 adda əsər haqqında məlumat verən bu göstəricidən isti[-] fadəni asanlaşdırmaq məqsədilə köməkçi aparat kimi sonda «M.Ə.Sabir əsərlərinin əlifba göstəricisi» və «Müəlliflərin siyahı[-] sı» verilmişdir. Əgər birinci köməkçi göstərici vəsaitdən M.Ə.Sabirin əsərləri üzrə axtarışa yardım edirsə, ikinci köməkçi göstəricinin məqsədi aydın deyil. Çünki burada yalnız müəlliflər əlifba üzrə düzülmüş, onların qarşısında isə heç bir istiqamətlən[-] dirici qeyd (sıra nömrəsi) göstərilməmişdir. Əgər Sabir haqqında ədəbiyyatın əlifba üzrə düzüldüyünü nəzərə alsaq, ümumiyyətlə belə bir göstəricinin (həm də düzgün olmayan) verilməsi tamamilə məqsədəuyğun deyil.

Bununla belə, tərtibçi Mirzə Ələkbər Sabir göstəricisini tər[-] tib edərkən professor Z.H.Əliyevin qeyd etdiyi kimi «geniş tədqi[-]



qat işi aparmış və nəticədə şairin əsərlərinin nəşr edildiyi bütün mənbələr haqqında məlumat verə bilmişdir»(4, s.24).

Göstəricidə 1920-1975-ci illərdə ədəbiyyatşünaslığa dair Azərbaycan dilində nəşr olunmuş çoxlu sayda monoqrafiya, kitab, kitabça, dövri və ardıdavam edən nəşrlərdə dərc edilmiş məqalələr haqqında biblioqrafik məlumat verilir.

Respublikamızda ədəbiyyatşünaslıq elminin inkişafını öyrənmək baxımından əvəzsiz əhəmiyyətə malik olan bu göstərici «Tərtibçilərdən» adlı müqəddimədən, «Qəbul olunmuş ixtisarlar»dan, «Azərbaycan sovet ədəbiyyatşünaslığı» adlı məqalədən və «Biblioqrafik göstərici» hissəsindən ibarətdir.

Müqəddimədə tərtibçilər biblioqrafik vəsaitin məqsəd və oxucu istiqaməti haqqında məlumat verir və göstəricinin quruluşu açıqlanır.

Məqalədə 1920-1975-ci illərdə Azərbaycan ədəbiyyatşünaslığının inkişafı, ədəbiyyat tarixi və nəzəriyyəsi, ədəbi tənqid sahəsində əldə edilmiş nailiyyətlər açılıb göstərilir.

Göstərici hissəsində materiallar «Azərbaycan sovet ədəbiyyatşünaslığının əsərləri», «Xronika, redaksiya məqalələri» və «Dissertasiyalar » kimi bölmələrdə qruplaşdırılmışdır. Daxildə müəlliflərin soy adlarının əlifbası üzrə qruplaşma aparılmış, sonra redaksiya məqalələri verilmişdir. Burada Azərbaycan ədəbiyyatına dair müdafiə olunmuş namizədlik və doktorluq dissertasiyalarının siyahısı da öz əksini tapmışdır.

Vəsaitdən istifadəni asanlaşdırmaq üçün, qeyd etdiyimiz kimi göstəricinin əvvəlində qəbul edilmiş ixtisarların siyahısı verilmiş və sonda köməkçi «Adlar göstəricisi» tərtib olunmuşdur.

Göstərici haqqında çıxmış rəydə (3) və bəzi mənbələrdə onun müsbət cəhətləri ilə yanaşı nöqsanları da göstərilir. Ə.Xələfov qeyd edir ki, vəsaitə daxil ediləcək ədəbiyyatşünasların, tənqidçilərin adlarının əhatə dairəsi, onların sayı müəyyənləşdirilməli və hansı əsərlərinin daxil edilməsi meyarı dəqiqləşdirilməli idi (5, s.40-42). Çünki buraya göstəricinin mövzusu ilə heç bir əlaqəsi olmayan müəlliflərin əsərləri də daxil edilmişdir. Eyni

zamanda mövcud şəxsi göstəricilərə də isnad vermək, onlara öz münasibətlərini bildirmək məqsədəuyğun idi.

Bununla belə, bu göstərici ədəbiyyatşünasların və bu sahə ilə maraqlanan digər oxucuların sorğularının ödənilməsində böyük əhəmiyyətə malikdir.

N.Axundovun tərtib etdiyi göstəricilərin bir qismi dövri mətbuata həsr olunmuş göstəricilərdir. Dövri mətbuata həsr olunmuş göstəricilər həm ümumi xarakterli, həm də analitik, yəni dövri nəşrin məzmununu açan biblioqrafik vəsaitlərdir.

«Azərbaycan dövri mətbuatı» göstəricisi (1965; 1987) 1832-1920-ci illərdə çap olunmuş Azərbaycan qəzet və jurnalları haqqında biblioqrafik məlumat verirsə, «Hümmət» qəzetinin izahlı biblioqrafiyası» (1987) həmin qəzetdə dərc olunmuş məqalələrin annotasiyalı siyahısını əks etdirir.

N.Axundov biblioqrafik göstəricilər tərtib etməklə yanaşı, bir sıra biblioqrafik vəsaitlərin redaktoru da olmuşdur. Məsələn, «Məmməd Səid Ordubadi» (1975), «Süleyman Rüstəm» (1950) , «Azərbaycan» jurnalının biblioqrafiyası (1923-1972)» (1973) və s.

N.Axundovun yaradıcılığının öyrənilməsi göstərir ki, o, ədəbiyyatşünas-alim olmaqla yanaşı, əməli biblioqrafik fəaliyyət sahəsində də məhsuldar çalışmış və onun tərtib etdiyi biblioqrafik göstəricilər bu gün də öz məlumat əhəmiyyətini saxlamaqla, müvafiq oxucu sorğularının ödənilməsində böyük əhəmiyyət kəsb edirlər.

## ƏDƏBİYYAT

*1.Cəfər Cabbarlı: Biblioqrafik göstərici /Red.: K.Məmmədov.-B.,1950.-64 s.*

*2. Cəfər Cabbarlı: Biblioqrafik göstərici /Red.: M.Fərzəliyev.-B.,1965.-108 s.*

*3. Əfəndiyev Ə. Ədəbiyyatşünaslığa dair vəsait //Ədəbiyyat və incəsənət.-1984.-25 may.*

*4.Əliyev Z.H.Azərbaycan biblioqrafiyasının tarixi: Dərs vəsaiti.-B.,1978.-78 s.*



*5.Xələfov Ə.T.Bədii ədəbiyyat və ədəbiyyatşünaslığın biblioqrafiyası.-B.,1986.-79 s.*

*6.Xələfov Ə.T. M.F.Axundov əsərlərinin bibliolqrafiyası haqqında //Elmi əsərlər: Kitabxanaşünaslıq və biblioqrafiya ser.-1972.-№1.-S.13-17.*

*7.Xələfov Ə.T. Səməd Vurğun əsərlərinin biblioqrafiyası haqqında //Elmi əsərlər: Kitabxanaşünaslıq və biblioqrafiya ser.-1975.-№1.-S.3-8.*

*8.M.Ə.Sabir: Biblioqrafiya / Red.: Ə.H.Qəhrəmanov.-B., 1958.-109 s.*

*9. Mirəhəmədov Ə. Biblioqrafiya kitabçalarımız haqqında //Kommunist.-1949.-30 iyul.*

*10.Mirəhmədov Ə. Səməd Vurğun haqqında biblioqrafiya //Ədəbiyyat qəzeti.-1949.-5 avqust.*

*11.Mirzə Fətəli Axundov:Müxtəsər ədəbiyyat göstəricisi /Red. A.N.Lerman.- B.,1948.-16 s.*

*12.Səməd Vurğun: Biblioqrafiya /Red.:M.S.Rzayev.-B., 1949.-51 s.*

***Гамза Гаджиева***

## БИБЛИОГРАФИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ НАЗИМА АХУНДОВА

***РЕЗЮМЕ***

*Доктор филологических наук, профессор Н.Ахундов помимо научно-педагогической деятельности, так же занимался составлением библиографических указателей. Он является автором более 20-ти книг, из них 11 библиографические указатели.*

*В статье эти указатели с группированы и проанализирована методика составления. «Азербайджанская периодическая печать (1832-1920)» (1965;1987), «Азербайджанское советское литературоведение:1920-1975» (1983; соавтор), «М.А.Сабир» (1958), «Дж.Джаббарлы» (1950;1965) и другие указатели имеют большое значение в развитии национальной библиографии.*

**Sima İSMAYILOVA**
*Müəllim*

# ƏDƏBİYYATŞÜNASLIQ BİBLİOQRAFİYASININ MEYDANA GƏLMƏSİNDƏ SƏNƏD-İNFORMASİYA AXINI VƏ KÜTLƏSİ ƏSAS AMİLDİR

Yazı və dilin, ədəbi bədii prosesin, incəsənət və estetikanın, nəhayət, mətbuatın inkişafı ilə bağlı olan Azərbaycan ədəbi-bədii biblioqrafiyası müasir səviyyəyə çatana qədər olduqca uzun və mürəkkəb inkişaf yolu keçmişdir.

Bu inkişaf yolunun bütün mərhələlərində həlledici amil bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsində meydana gəlib formalaşan sənəd və informasiya axını və cəmiyyətdə həmin sənəd və informasiyaya tələbat olmuşdur.

Məlumdur ki, bütün sahələrdə sənəd-informasiya axını vahid sistem olub özündə əlaqələndirilmiş qaydada istehlakçı, sənəd (əlyazması, kitab, dövri və ardıdavam edən nəşrlər, elektron nəşrləri, audiovizual materiallar və s.) informasiya anlayışlarını birləşdirir.

Professor Zöhrab Əliyevin qeyd etidyi kimi, «Sənədlər və informasiya tələbatçıları arasında bəşəriyyətin topladığı möhtəşəm sənəd yığımından daha mütərəqqi və səmərəli istifadə olunmasına təsir göstərən vasitəçilərdən biri də biblioqrafiyadır» (3.-s.19).

Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsində biblioqrafik fəaliyyətin ən mühüm nəticəsi biblioqrafik informasiyadır ki, bu da yalnız sənəd axınının və ona olan tələbatın mövcudluğu şəraitində mümkün ola bilər.

Azərbaycanda ədəbi-bədii biblioqrafiyanın sənəd axınının tarixi qədimdir. Hələ orta əsrlərdə meydana gələn bədii əsərlərdə, təzkirələrdə, səyahətnamə və salnamələrdə, qamus, bəyaz və s. əsərlərdə ədəbi-bədii sənəd kütləsinin ilk rüşeymləri nəzərə çarpır.



Belə sənədlərdə bədii obrazlarla yanaşı, şair və yazıçıların həyatı haqqında məlumatlar verilir, əsərlərindən nümunələr gətirilir, onların yaranma tarixi, məzmunu, bədii xüsusiyyətləri, ayrı-ayrı surətlər haqqında danışılır. Təzkirələrdə bəzən şairlərin yaradıcılığı haqqında mülahizələr də söylənilir.

Azərbaycanda ədəbi-bədii sənəd kütləsinin formalaşması və təşəkkülündə X.Təbrizi, Ə.Xaqani, N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, M.F.Axundov, S.Ə.Şirvani və başqa mütəfəkkirlərin əsərləri çox böyük rol oynamışdır. Onlar öz əsərlərində bədii obrazlarla yanaşı, sözün qüdrəti, ədəbiyyatın mənəvi estetik və ictimai, tərbiyəvi rolu, şeir sənətinin sirləri haqqında qiymətli fikirlər söyləmişlər.

Müasir mənada ədəbiyyatşünaslıq elminin, onun sənəd və informasiya axınının formalaşması M.F.Axundovun elmi yaradıcılığı və onun əsərləri ilə bağlıdır.

«Fehristi kitab» (1859), «Nəzm və nəsr haqqında», «Tənqid risaləsi» (1862), «Kritika», «Yüksək İranın «Millət» qəzetinin minfisinə», «Mirzə Ağanın pyesləri haqqında kritika» (1871) məqalələrində, «Kəmalüddövlə məktubları» (1865) məşhur fəlsəfi əsərində, habelə bir sıra məktublarında M.F.Axundov ədəbiyyatda realizm, xəlqilik, müasirlik, sənətkarlıq və bədii yaradıcılığın başqa mühüm məsələlərinə dair qiymətli fikirlər söyləmiş, bədii yaradıcılığın vəzifələrini müəyyənləşdirməyə çalışmışdır.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda ədəbi-bədii sənəd kütləsinin formalaşması N.B.Zərdabi, N.Nərimanov, Ə.Hüseynzadə, F.B.Köçərli, C.Məmmədquluzadə, S.Hüseyn, A.Şaiq, N.Çəmənzəminli, S. Mümtaz və başqa mütərəqqi elm və mədəniyyət xadimlərinin əsərləri ilə zənginləşmişdir.

Ölkədə bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyasının sənəd və informasiya bazasının inkişafında Firudin Bəy Köçərlinin əsərlərinin xüsusi əhəmiyyəti vardır.

F.B.Köçərli tərəfindən Azərbaycan ədəbiyyatı tarixinə dair yazılmış ilk əsərlərə «Azərbaycan tatarlarının ədəbiyyatı» (rusca, 1903), «Mirzə Fətəli Axundov» (1911) nümunə göstərmək olar.

XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslığın sənəd və informasiya axınında müxtəlif tipli məktəblər üçün tərtib edilmiş dərsliklər və dərs vəsaitlərinin xüsusi çəkisinin artımı nəzərə çarpırdı.

Azərbaycan ictimai fikrinin tarixində maarifçiliyin yaranması və inkişafı məhz bu dövrlə bağlıdır. Maarifçilərin başlıca qayəsi cəmiyyətin tərəqqisində ilk növbədə ağlın, idrakın gücünə əsaslanmaq idi. Onlar bir tərəfdən elm, maarif və mədəniyyətin, xalq kütlələri arasında yayılmasına çalışır, digər tərəfdən geriliyə, cəhalətə qarşı barışmaz mübarizə aparırdılar.

XIX əsrin birinci yarısında Azərbaycanın ayrı-ayrı şəhərlərində-Şuşa (1838), Şəki (1831), Bakı (1832), Gəncə (1833), Şamaxı (1837) və Naxçıvan (1837) qəza məktəbləri açılmış (1.-S.24.) və bu məktəblərdə dil, hesab, coğrafiya və şəriət dərsləri ilə yanaşı, ədəbiyyat dərsi də tədris edilirdi. Belə bir dövrdə yeni üsullu dünyəvi təhsil verən məktəblər üçün dərslik və dərs vəsaitlərinin hazırlanması bir tərəfdən gənc nəslin təhsil və tərbiyəsi məqsədini güdürdüsə, digər tərəfdən Azərbaycan ədəbiyyatının nümunələrinin toplanıb nəşr olunmasına və bununla da ədəbi fikrin sənəd kütləsinin formalaşması üçün zəmin yaradırdı.

XX əsrin birinci rübü Azərbaycan ictimai fikri tarixində yeni mərhələ kimi tarixən qısa olsa da, bu dövr özünün mürəkkəbliyi və təlatümlü olması ilə seçilir.

Əsrin əvvəlləri milli şüurun oyanması, elm, maarif və mədəniyyətin çiçəklənməsi dövrü kimi xarakterizə edilə bilər. Bu illərdə bir-birinin ardınca maarif ocaqları, xeyriyyə cəmiyyətləri, nəşriyyatlar, kitabxanalar yaradılırdı. Milli dilin, ədəbiyyatın tədris olunduğu məktəblərin sayı durmadan artırdı. Belə bir xeyirxah və nəcib işə maarifçi-demokrat yazıçılar, ictimai xadimlər və mətbuat ərtrafında toplaşan tərəqqipərvər ziyalılar və müəllimlər yaxından kömək edir, əllərindən gələni əsirgəmirdilər. N.Nərimanov, C.Məmmədquluzadə, R.Əfəndiyev, M.Ə.Sabir, Ə.Haqverdiyev, S.S.Axundov, F.Köçərli, Ü.Hacıbəyov, A.Şaiq, A.Səhhət, S.M.Qənizadə, M.Mahmudbəyov kimi yazıçı və müəllimlərin bədii ədəbiyyat və ədəbiyyatşünaslığa dair əsərləri



ədəbi-bədii biblioqrafiyanın sənəd kütləsinin formalaşmasında xüsusi mərhələ təşkil edir.

Bu baxımdan Abdulla Şaiqin 1912-ci ildə nəşr etdirdmiyi «Gülzar» (7) dərsliyi öz məzmunu, həcmi və mükəmməl tərtibi ilə seçilir. Burada M.Füzuli M.F.Axundov, M.P.Vaqif, S.Ə.Şirvani, M.Ə.Sabir və A.Səhhət kimi görkəmli Azərbaycan sənətkarlarının əsərlərinin təhlilinə geniş yer verilmiş, onların yaradıcılıq xüsusiyyətləri, ədəbiyyat və mədənyyat tarixindəki xidmətləri qiymətləndirilmişdir. Yuxarıda qeyd etdiyimiz kimi A.Şaiqin bu kitabı Azərbaycan ədəbiyyatı tarixinə dair ilk dərslik kimi qeyd oluna bilər.

XX əsrin əvvəllərində Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyasının sənəd və informasiya bazasının təşəkkülündə dövrü orqanlar və xüsusən ədəbi və bədii jurnallar və məcmuələr müstəsna əhəmiyyətə malikdirlər.

Ölkəmizdə dövri orqanların yaranması tarixinin öyrənilməsi bizə belə bir fikrin irəli sürülməsinə imkan verir ki, Azərbaycanda ilk ədəbi-bədii jurnallar «Fyüzat» (1906-1907) və «Yeni Fyüzat» (1910-1911) olmuşdur.

Hər iki jurnal həftəlik ədəbi-siyasi və ictimai jurnal olaraq öz səhifələrində Azərbaycan ədəbiyyatından nümunələrlə yanaşı ədəbiyyat tarixinə, dünya ədəbiyyatı nümunələrinə həsr edilmiş yazılar dərc edirdi.

Jurnalların səhifələrində M.Ə.Sabir, H.B.Zərdabi, M.Hadi, H.Cavid, A.Şaiq, Ə.Müznib, Namiq Kamal, S.S.Axundov, M.H.Qüdsi, R. Əfəndiyev, Y.Məlikov, Məmməd Əmin Rəsulzadə və başqalarının bədii əsərləri, siyasi yazıları və ədəbiyyat mövzusunda publisistik və ədəbi tənqidi məqalələri dərc edilmişdir.

1906-cı ildən nəşrə başlayan «Molla Nəsrəddin» jurnalı Azərbaycanda demokratik ədəbiyyatın və ədəbiyyatşünaslıq fikrinin inkişaf etməsində müstəsna rol oynamışdır. Bu orqan sırf ədəbi-bədii jurnal olmasa da öz ətrafında XX əsrin ədəbi-bədii ictimaiyyətinin əsas nümayəndələrini toplaya bilmişdir. Onların sırasında görkəmli Molla Nəsrəddinçilər adi ilə məşhur olan

C.Məmmədquluzadə, M.Ə.Sabir, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev, M.S.Ordubadi, Ə.Nəzmi, Ə.Qəmküsar, Salman Mümtaz, F.Köçərli, Ə.Müznib və başqa tanınmış ədiblər var idi.

Molla Nəsrəddinçilər Azərbaycan və dünya ədəbi-bədii irsindən, milli ədəbiyyatımızın çoxəsrlik tarixi ənənələrindən səmərəli istifadə etməklə bədii ədəbiyyat və ədəbiyyatşünaslığın sənəd bazasının zənginləşməsində böyük tarixi rol oynamışlar.

XX əsrin əvvəllərində Azərbaycanda xüsusi olaraq məktəb və maarifçilik məsələlərinə xidmət edən «Dəbistan» (2), «Rəhbər» (6), «Məktəb» (4) jurnalları təlim-tərbiyə məsələləri ilə yanaşı məktəbdənkənar mütaliə məsələləri ilə əlaqədar ədəbiyyatşünaslıq problemləri və xüsusən uşaq ədəbiyyatına həsr edilmiş nəzəri-metodiki materialların dərc edilməsini diqqət mərkəzində saxlayırdı.

«Dəbistan» jurnalının əhəmiyyətindən bəhs edən N.Nərimanov «İrşad» qəzetinin 1906-cı il 9 mart sayında yazırdı: «Bu vaxtadək kitabsızlıqdan uşaqlarımız zərərli, əqidəni pozan kitablar oxuyub naəlac qalmışlar. «Dəbistan» isə bu tövr kitabların aradan götürülməyinə səbəb olub, zəmanəmizə lazım olan məlumatlar verməyini gözləyirik» (5.-s.90).

Jurnalda Azərbacan ədəbiyyatından verilən nümunələr rus, şərq və ədəbi Avropa ədəbiyyatından tərcümələrlə yanaşı dünya ədəbiyyatı klassikləri, o cümlədən Puşkin, Lermontov, Tolstoy, Sədi, Höte, Hüqo, Cami, Əbu Əli İbn Sina, Nəvai, Hafiz və b. haqqında ədəbi-tənqidi xarakterli yazılar da dərc edilirdi. Bu ənənə «Rəhbər» jurnalı tərəfindən də geniş miqyasda həyata keçirilirdi. «Rəhbər» jurnalının naşiri, görkəmli maarif xadimi M.R.Mahmudbəyov jurnalın birinci nömrəsində «İfadeyi-məram» adlı baş məqaləsində yazırdı:

«Məqsədimiz... milli ədəbiyyatdan xəbərdar olmasına əlimizdən gələn qədər rəhbərlik etməkdir» (5.-s.90).

Yuxarıda göstərdiyimiz dövri nəşrlərlə yanaşı XIX əsrin sonu və XX əsrin ilk onilliklərində Azərbaycanda nəşr olunmuş bir çox jurnal və qəzetlərdə də xeyli bədii ədəbiyyat və ədəbiyyatşünaslıq materialları dərc olunaraq ölkədə bu



informasiya kütləsinin zənginləşməsinə səbəb olmuşdur. Bu baxımdan «Kəşkül» (1883-1891), «Bəhlul» (1907), «İşıq» (1911-1912), «Kəlniyyət» (1912-1913), «Leylək» (1914), «Qurtuluş» (1915), «Mədəniyyət (1920), «Məşəl» (1919), «Tartan-partan» (1918), «Tuti» (1914-1917), «Həqayiq» (1907), «Şeypur» (1918-1919), «Şəlalə» (1913-1914) kimi jurnallarda və eləcə də «Əkinçi» (1875-1877), «Təkamül» (1906-1907), «Burhani-Tərəqqi» (1906-1908), «Dirilik» (1914-1916), «Doğru söz» (1916-1917), «Ziya» (1879-1880), «Ziyayi Qafqaziyyə» (1880-1884), «İrşad» (1905-1907), «Yeni İrşad» (1911-1912), «İstiqlal» (1919-1920), «İşçi və mədəniyyət» (1919), «Mədəniyyət» (1920), «Məlumat» (1911), «Nicat» (1910-1912), «Sədayi vətən» (1911-1912), «Sədayi Qafqaz» (1915-1916), «Şərqi Rus»(1903-1905), «Şəhabi sadiq» (1911) və digər qəzetlərdə ədəbi-bədii əsərlər Azərbaycan, rus və dünya şair və nasirlərinə həsr olunmuş elmi, publisistik və məlumat xarakterli yüzlərlə yazı dərc edilmişdir.

Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslığın sənəd və informasiya kütləsinin XX əsrin əvvəllərinə qədər təşəkkülünün qısa tarixçəsi sübut edir ki, hələ qədim və orta əsrlərdən başalyaraq XX əsrin üçüncü onilliyinin əvvəlinə, daha doğrusu Azərbaycanda 1920-ci il bölşevik çevrilişinə qədərki dövrdə bu sənəd kütləsi dövrdən-dövrə, əsrdən-əsrə inkişaf edərək ədəbi-bədii biblioqrafiyanın sənəd bazası üçün zəmin yaratmışdır. Bu iş xüsusən XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində daha geniş vüsət almışdır.

XX əsrin 20-ci illərindən başlanan sovet dövrü Azərbaycanın elmi, mədəniyyəti və iqtisadiyyatının bütün sahələrində olduğu kimi bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyasının sənəd və informasiya kütləsinin inkişaf edib formalaşmasında da keyfiyyətcə yeni mərhələ olmuşdur.

## ƏDƏBİYYAT

1. *Azərbaycan ədəbiyyatı tarixi. I c.-B.: EA nəşriyyatı, 1960.-524 s.*

2. *Dəbistan: Uşaqlar və müəllimlər üçün həftədə bir dəfə nəşr olunan jurnal /Naşiri və red.Ə.Cəfərzadə, M.Ə.Əfəndizadə.-B.,1908.-16 s.*

3. *Əliyev Z.H. Biblioqrafik informasiya və onun elmi mahiyyəti // Kitabxanaşünaslıq və biblioqrafiya.-1998.-№1.-S.17-24*

4. *Məktəb: Müəllimlər və şagirdlər üçün iki həftədə bir dəfə nəşr olunan əxlaqi, ədəbi, elmi jurnal.-B.,1920.-16 s.*

5. *Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı.-B.,1983.- 290 s.*

6. *Rəhbər:Aylıq sayla, ictimai və ədəbi-pedaqoji jurnal // Naşiri və red. M.Mahmudbəyov.-B.,1907.-12 s.*

7. *Talıbzadə A.Ş. Gülzar.-B.:Orucov qardaşlarının elektrik mətbəəsi.-1912.-287 s.*

***Сима Исмаилова***

## ДОКУМЕНТАЛЬНО-ИНФОРМАЦИОННЫЙ ПОТОК И МАССИВ ОСНОВНОЙ ФАКТОР ВОЗНИКНОВЕНИЯ ЛИТЕРАТУРОВЕДЧЕСКОЙ БИБЛИОГРАФИИ

*РЕЗЮМЕ*

*В статье в кратке рассматривается история возникновения литературоведения в Азербайджане как науки и становление потока документов по этой тематике. Особое внимание уделено периодическим изданиям большое количество которых издавались на рубеже XIX-XX веков.*

***Nigar Məmmədova***
***Magistrant***

# SAHİBKARLIQ FƏALİYYƏTİNİN BİBLİOQRAFİK İNFORMASİYA TƏMİNATI: PROBLEMLƏR,VƏZİFƏLƏR

İnsan cəmiyyəti meydana gəldiyi vaxtdan etibarən tədriclə inkişaf edir. İnkişafın bir mərhələsi digərini, daha mütərəqqi formanı əvəz edir. Bu zaman cəmiyyətin məhsuldar qüvvələri inkişaf etdikcə, mövcud sosial-iqtisadi münasibətlər sistemi də dəyişir və yeniləri ilə əvəz olunur. İqtisadi münasibətlər sisteminin əsasında xüsusi mülkiyyətin durduğu cəmiyyətlərin birinin digərini əvəz etməsi təkamül yolu ilə baş verir. Belə bir şəraitdə iqtisadiyyat keçid vəziyyətində olur və tədriclə mövcud təsərrüfat forması yeni iqtisadi sistemlə əvəz olunur.Keçid vəziyyətində olan iqtisadiyyat «keçid iqtisadiyyatı» adlanır.

Azərbaycan Respublikasının yeni iqtisadi sistemə, real bazar iqtisadiyyatına keçid dövründə qarşıda duran mühüm proqram vəzifələr sırasında xüsusi sahibkarlıq fəaliyyətinin bərqərar olması və inkişaf etdirilməsi özünəməxsus əhəmiyyət kəsb edir.

Sivil bazar iqtisadiyyatına keçmək və onu inkişaf etdirməyin ən mötəbər yolu ilk növbədə xüsusi sektorun, azad sahibkarlığın inkişafıdır. Hazırda inkişaf etmiş ölkələrdə dövlət sektorunun iqtisadiyyatda mövqeyi müxtəlifdir: 5%-dən 30-40%-ə qədərdir. Deməli, yerdə qalan hissə xüsusi, fərdi sahibkarlığa məxsusdur. Müxtəlif ölkələrin iqtisadiyyatında dövlət sektoru ilə xüsusi sahibkarlıq fəaliyyəti arasında nisbət elə optimal dərəcədə olmalıdır ki, o, ümumi iqtisadi inkişafın dinamikliyini mümkün olan müvazinətdə saxlamağı bacarsın (3, s. 210-212).

Hər hansı bir cəmiyyət, sosial-iqtisadi quruluş dəyişməyə üz qoyduqda ilk əvvəl onun iqtisadi əsası, yəni mülkiyyət forması, onunla bağlı münasibətlərin dəyişməsi prosesi başlayır. Odur ki, respublikamızda ilk əvvəl bu və ya digər mühüm sahələri əhatə edən islahatlar və bunları ifadə edən hüquqi qanunvericilik aktlarının qəbuluna başlandı və dövlət mülkiyyəti obyektlərinin özəl-

ləşdirilməsi pilləli proqramlarla həyata keçirildi. I proqram 1995-ci ildən fəaliyyətdə oldu. Bu proqramla müəssisə və obyektlərin özəlləşdirilməsi sahəsində mühüm addım atılmış, 2001-ci il yanvarın sonunadək 23230 kiçik müəssisə və obyekt, 1183 iri müəssisə və obyekt özəlləşdirilmişdir(3,s. 210-212). 2003-cü ilin yekunlarına əsasən isə ölkəmizdə 3687 kommersiya qurumu, o cümlədən 243 xarici investisiyalı təşkilat qeydiyyatdan keçmişdir(2).

Hal-hazırda müstəqil Azərbaycan Respublikasında sahibkarlığın inkişafı, onun investisiya təminatının daha da yaxşılaşdırılması ölkə başçısının diqqət mərkəzindədir və ümummilli lider H.Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycanın yeni iqtisadi siyasət kursu prezident İ.Əliyev tərəfindən uğurla davam etdirilir.

Müasir dövrdə hər hansı sahəyə dair konkret informasiyasız keçinmək qeyri-mümkündür. Tələbatçı peşəkar fəaliyyətində mütləq hansısa informasiyaya ehtiyac duyur və biblioqrafik informasiyaya olan tələbat da bu ehtiyacdan yaranır. İnformasiyaya olan tələbat tələbatçını lazımi informasiyanı özündə əks etdirən sənədin axtarışına sövq edir və bu axtarışda informasiya mənbələri mövcud olduqda biblioqrafik informasiyaya ehtiyac meydana çıxır. Biblioqrafik informasiya mütləq sənədlərlə bağlı olur və bilavasitə sənədlərlə bağlı olan informasiya haqqında informasiyanı özündə əks etdirir.

Hazırda dünyada informasiya texnologiyalarının yaradılması və tətbiqinə böyük əhəmiyyət verilir. 2003-cü il dekabrın 10-11-də Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində informasiya-kommunikasiya texnologiyalarının vətəndaş cəmiyyətinin, iqtisadiyyatın inkişafında rolu vurğulanmış və qeyd olunmuşdur ki, inkişaf etmiş cəmiyyətdə insanların informasiya almaq imkanının genişlənməsinə və bu prosesin operativliyinə nail olunmalıdır(1).

Respublikamızda artıq on ildir ki, fəaliyyət sahəsi kimi hüquqi baxımdan təsdiq olunmuş sahibkarlıq fəaliyyətində lazımi informasiyanın, yeniliyin vaxtlı-vaxtında və operativ şəkildə əldə olunması çox mühüm əhəmiyyət kəsb edir. Belə ki, hər bir sahibkar öz işində lazım olan informasiyanı digərlərindən daha tez əldə



etməyə can atır, bununla da həm azad rəqabətə, həm də keyfiyyətli nəticəyə imkan yaradır. Bu baxımdan lazımi məlumatın daha tez və kompleks şəkildə əldə olunmasında İnternet və biblioqrafik məlumat bazalarının rolu əvəzsizdir.

Bazar iqtisadiyyatının ayrılmaz atributu olan sahibkarlıq fəaliyyətinin respublikamızda daha sürətlə inkişaf etməsi, bu fəaliyyətlə məşğul olan subyektlərin sayının artması sahibkarlığın informasiya təminatı sisteminin də formalaşdırılması və təkmilləşdirilməsinə tələbat yaratmışdır. Hələ 1999-cu il aprelin 6-da Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəmində «Azərbaycanda işgüzar informasiya sisteminin formalaşması» mövzusunda seminar-müşavirə keçirilmişdir (4). Müşavirədə bildirilib ki, kiçik və orta sahibkarlıq üzrə informasiya ehtiyatlarının strukturu açıqlanmalı və sahibkarlıq fəaliyyətinə yeni başlayan hər bir şəxsin öz məşğuliyyətinin mümkün nəticələri haqqında qabaqcadan təsəvvürü olmalıdır (4).

Təbii ki, istənilən fəaliyyət sahəsinin, o cümlədən sahibkarlığın informasiya təminatında ilkin sənədlər və onlar haqqında ikinci dərəcəli informasiya mənbələri- biblioqrafik vəsaitlərin böyük rolu var.

Çox təəssüflər olsun ki, hal-hazırda biblioqrafik informasiya təminatı sahəsində ən böyük problem Azərbaycan çap məhsulunun tam biblioqrafik əksinin olmamasındadır. 1988-ci ildən dövlət qeyd biblioqrafiyasının əsas mərkəzi olan Kitab Palatasının nəşr etdiyi «salnamələr»in nəşri dayandırılmışdır. Eləcə də ayrı-ayrı sahələrin, məsələn sahibkarlıq fəaliyyəti ilə məşğul olan mütəxəssislərin biblioqrafik informasiya ilə təminatına xidmət edəcək retrospektiv və mövzu göstəricilərinin nəşri ilə əlaqədar böyük çətinliklər mövcuddur. Azərbaycanda baş verən sosial-iqtisadi dəyişikliklər informasiya fəaliyyəti sahəsində daha yeni münasibətlərə və formalara keçidin zəruriliyini qarşıya məqsəd qoyur. Bu baxımdan respublikamızda bilavasitə sahibkarlıq fəaliyyətinə dair informasiya ehtiyatlarının məzmunu və mahiyyəti açıqlanmalı, sahibkarlığın biblioqrafik informasiya təminatı müasir dünya standartları səviyyəsində təşkil olunmalıdır. Lakin

ilkin sənədlərə dair biblioqrafik informasiya vəsaitlərinin nəşri də aktual olaraq qalır. İnformasiyaının elektron nəşr formasında hazırlanması və istifadəsi nə qədər müasir və operativ olsa da, mütəxəssislərin biblioqrafik informasiya ilə təmin edilməsi işində ənənəvi biblioqrafik vəsaitlərin rolunu heç də azaltmır. Ənənəvi formada çap edilən biblioqrafik vəsaitlər illər keçdikdən sonra belə biblioqrafik informasiya tələbatçısına lazım olan informasiyanı çatdıra bilər.

Bu baxımdan respublikamızda hələ formalaşmaqda olan sahibkarlıq fəaliyyəti və bu fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslərin lazımi informasiya ilə vaxtında və operativ təmin olunması üçün sahibkarlıq fəaliyyətinə dair ilkin sənədlərin və informasiya ehtiyatlarının məzmunu və mahiyyətinə uyğun olaraq biblioqrafik informasiya vəsaitlərinin yaradılması və avtomatlaşdırılmış biblioqrafik məlumat bazalarının təşkili problemi mütləq öz həllini tapmalıdır.

## ƏDƏBİYYAT


*1. Cenevrədə informasiya cəmiyyəti üzrə dünya sammiti öz işinə başlamışdır// Respublika.-2003.-11 dekabr*

*2. Elmanoğlu S. Sahibkarlığın inkişafı mühüm dövlət siyasətidir // Azərbaycan.-2004.-16 aprel*

*3. Iqtisadi nəzəriyyə: Dərslik/ Elmi red.: T.S.Vəliyev, Ş.S.Qafarov.- B.: BUN, 2002.-514 s.*

*4. İşgüzar informasiya sahibkarın fəaliyyəti üçün mühüm şərtdir: Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsində «Azərbaycanda işgüzar informasiya sisteminin formalaşması» mövzusunda keçirilən seminar-müşavirə haqqında// Azərbaycan.-1999.-7 aprel*





***Нигяр Мамедова***


## ОБЕСПЕЧЕНИЕ БИБЛИОГРАФИЧЕСКОЙ ИНФОРМАЦИЕЙ ПРЕДПРИНИМАТЕЛЬСТВА: ПРОБЛЕМЫ И ЗАДАЧИ

### *РЕЗЮМЕ*


*В связи с формированием и развитием предпринимательской деятельности в Азербайджанской Республике, появилась проблема в области оперативного и комплексного библиографического обеспечения информационных потребителей. В статье определены и отражены важнейшие проблемы и задачи в названной сфере.*

**Validə ALIYEVA**
*Magistrant*

## KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİNİN ELMLƏR DOKTORLARI VƏ PROFESSORLARI: (BİBLİOQRAFİK TƏDQİQAT)

Kitabxanaçılıq - informasiya fakültəsində elmi - pedaqoji kadrların həm miqdarı, həm də keyfiyyət səviyyəsi yüksəlməkdədir. Hal-hazırda fakültədə 3 nəfər elmlər doktoru, professor, 11 nəfər elmlər namizədi, 1 nəfər pedaqoji elmlər namizədi, professor, 11 elmlər namizədi, dosent fəaliyyət göstərir. Bu məqalədə fakültənin 3 nəfər – elmlər doktoru, professoru haqqında bəhs edilmiş, onların elmi əsərləri, dərslik və dərs vəsaiti haqqında yığcam biblioqrafik informasiya verilməsi nəzərdə tutulmuşdur. Onlardan biri Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademi tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovdur. O, 1931-ci il dekabrın 25-də Qərbi Azərbaycanın Göycə mahalının Çənmərək rayonunun Cil kəndində anadan olmuşdur. Həmin kənddə 7 illik orta məktəbi bitirdikdən sonra bir müddət kolxozda işləmiş və zəhmətkeşliyinə görə «Böyük Vətən müharibəsi illərində (1941-1945) rəşadətli əməyinə görə» (1946) medalı ilə təltif edilmişdir. Krasnoselo rayonunun Toxluca kənd orta məktəbinin 10-cu sinfini, 1950-1955-ci ildə Azərbaycan Dövlət Universitetinin (indi BDU) filologiya fakültəsinin kitabxanaçılıq şöbəsini fərqlənmə diplomu ilə bitirmişdir. Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında müəllim (1978), baş müəllim (1958), dosent (1964), professor (1978) kimi fəaliyyət göstərmiş, (həmin illərdə kitabxanaçılıq sahəsi üzrə cəmi 3 müəllim - Ə.Qəhrəmanov, H.Tağıyev, M.Nəcəfova var idi.) 1961-ci ildə «Azərbaycanda kitabxana işinin tarixindən (1920-1932-ci illər)» mövzusunda dissertasiya müdafiə edib tarix elmləri namizədi elmi dərəcəsini almışdır.



1975-ci ildə Kitabxanaşünaslıq üzrə «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958-ci illər)» mövzusunda ilk doktorluq dissertasiyası müdafiə etmişdir.

1962-ci ildən fakültə elmi şurasının, 1970-ci ildən tarix fakültəsinin yanında olan doktorluq və namizədlik dissertasiyası müdafiə şurasının üzvüdür.

A.Xələfovun rəhbərliyi ilə fakültə 1964-cü ildən 4 illik yeni tədris planı ilə, 1970-ci ildən 1984-cü ilə qədər 5 illik tədris planı ilə işləmiş və hal-hazırda da ixtisas fənlərinə dair plan və proqramların hazırlanmasında yaxından iştirak edir. O, 1980-ci ildən 1990-cı ilə qədər Moskvada fəaliyyət göstərən kitabxanaşünaslıq və biblioqrafiya üzrə doktorluq dissertasiyası müdafiə şurasının üzvü olmuşdur. O, azərbaycanlı alimllərlə yanaşı görkəmli rus alimlərinin də (məs: Y.N.Stolyarov, Y.S.Zubov, özbək alimi A. Qafurova, gürcü alimi Kuraşvili) opponenti olmuşdur. O Moskva, Kazan, Vilnus, Ufa, Daşkənd, Tbilisi, İstanbul, İran, Korqan və s. kimi şəhərlərdə simpozium, konfrans, qurultay və s. beynəlxalq məclislərdə iştrak etmişdir.

Prof.A.Xələfov kitabxana işinin əsas problemlərinə dair 200-ə qədər elmi əsəri, monoqrafiyası, dərslik, dərs vəsaiti, proqram, metodik vəsaitin müəllifi, Azərbaycan Ensiklopediyasının elmi məsləhətçisi, BDU-nun elmi əsərlərinin «Kitabxanaşünaslıq və biblioqrafiya» seriyasının redaktoru, 1965-1990-cı illərdə «Kitablar aləmində» jurnalının redaksiya heyətinin üzvü olmuşdur. O, həmçinin Azərbaycan Respublikası Milli Məclisinin 1998-ci ilin sonunda qəbul etdiyi ilk milli «Kitabxana işi haqqında» qanunun layihəsini ha zırlayan işçi qrupunun rəhbəri olmuşdur. Azərbaycanda kitabxanaçıların ilk peşəkar birliyi – Azərbaycan Kitabxanaçılar Cəmiyyəti professor A.A.Xələfovun təşəbbüsü ilə yaradılmışdır (1999) və hal-hazırda da onun prezidentidir. O, 2000-ci ilin aprel ayında AAK-da respublikamızda kitabxanaşünaslıq ixtisası üzrə 1-ci dəfə dissertasiya müdafiəsi üçün icazəyə nail olmuşdur. Respublkamızda kitabxana işinin kompüterləşdirilməsinin elmi və planlı şəkildə apaılmasının ilk təşkilatçısı olmuşdur. 25 il kitabxanaçılıq fakültəsinin dekanı

vəzifəsində çalışmış (1962-1970, 1980-1993) A.A.Xələfov 1969-cu ildə Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi fəxri adına, İşdə əla müvəffəqiyyətlərə görə döş nişanı ilə (1979), Mədəniyyət Nazirliyi və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Rəyasət Heyəti tərəfindən «N.K.Krupskaya» medalı ilə (1984), 2000-ci ildə isə Respublika prezidentinin fərmanı ilə «Şöhrət» ordeni və s. kimi bir çox fəxri fərmanlar, döş nişanları, fəxri adlar ilə təltif olunmuş, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının (BİA) həqiqi üzvü (2001, 20 fevral) seçilmiş və Rusiya Yazıçılar İttifaqının «Xeyriyəçilik və maarifçilik» medalı ilə təltif edilmişdir.

**ƏSƏRLƏRİ:**

Kitabxanaşünaslığa giriş: Dərslik.-B.: BUN, 2001.-400 s.

Kitabxanaşünaslığa giriş: Dərslik. III hissə: Kitabxana işi haqqında təlim.-B.: BUN, 2003.-314s.

Azərbaycanda kitabxana işinin tarixi. Dərslik: 2 hissədə. I hissə.-B., 2004.-328s.

«Kitabxana işi» anlayışının öyrənilməsinə dair // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri və təcrübi jurnal.-B.: BDU, 2000.-№2.-S.3-8

Библиотечное дело в Азербайджанское Республике (историчиский обзор.) // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal.-2001.-№2.-C.3-16

Azərbaycan elminin qızıl fondu / AMEA Mərkəzi Elmi Kitabxanasının bu günü və sabahı // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi -nəzəri və təcrübi jurnal.-B.: BUN, 2002.-№2.-S.17-28

Yazıçı haqqında informasiya mənbəyi //Ədəbiyyat qəzeti.-2002.-29 mart.

İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri //Respublika.-2002.-17aprel.

Kitab öz "ünvan"ına çatdıqda oxunur: Yaxud müasir dövrdə kitabxana-nəşriyyat münasibətlərinin bəzi xüsusiyyətləri //Azərbaycan.-2002.-7 iyul.



Avtomatlaşmış kitabxana informasiya idarəetmə sistemləri //Bakı Universiteti Xəbərləri.hümanitar elmlər ser. -2002.-№2.-S.243-250. (Musayeva N. ilə birlikdə)

Azərbaycan elminin qızıl fondu / AMEA Mərkəzi Elmi Kitabxanasının bu günü və sabahı // Elm.-2003.-16 yanvar.-S.3-14 (Kazımov R. ilə birlikdə)

Məktəb kitabxanaları Azərbaycanın müstəqilliyi şəraitində //Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. B.: BUN, 2004.-№1.-S.3-14 (Əhmədov E. ilə birlikdə)

Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası müstəqillik illərində // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. B.: BUN, 2004.-№2-S.3-11 (Məmmədova S. ilə birlikdə)

İnformasiya cəmiyyəti və kitabxana işi. //Bakı Universiteti Xəbərləri: Hümanitar elmləri ser.-B., 2004.-№3.-S.316-327

Elektron kataloqun əhəmiyyəti və təşkili prinsipləri// Bakı Universiteti Xəbərləri: hümanitar elmləri seriy ası.-B., 2004.-S.288-290 (Hüseynova A. ilə birlikdə)

İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların vəzifəsi // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal.B.: BUN, 2005.-№2.-S.5-17

Müasir dövrdə kitabxana fəaliyyətinin əsas istiqamətləri //Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal.B.: BUN, 2005.-№1.-S.3-11 (N. Mehdiyeva ilə birlikdə)

Kitabxana dünyasına açılan pəncərə //Respublika.-2005.-27-28 yanvar. (Ə.Məmmədovla birlikdə)

AMEA Mərkəzi Elmi Kitabxanası müstəqillik illərində (1991-2004)//AMEA MEK-nin elmi əsərləri.-2005.-bur.6.-S.25-4

Fakültənin digər professoru, tarix elmləri doktoru, Allahverdiyev Bayram Vəli oğludur. O 1938-ci il yanvar ayının 23-də Qərbi Azərbaycanın Loru-Pənbək bölgəsində anadan olmuşdur. Qərbi Azərbaycanda Kirovakan rayonunun Arqud kəndində 10 illik məktəbini (1956-1957) bitirdikdən sonra ADU-nun şərqşü-

naslıq fakültəsinin kitabxanaçılıq şöbəsinə daxil olmuşdur, kitabşünas – biblioqraf ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir(1957-1962). 1964-1967-ci İlərdə Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunda aspiranturanı fərqlənmə diplomu ilə başa vuraraq (1968) may ayında həmin institutunun Müdafiə Şurasında filologiya elmləri doktoru, professor N.Axundovun rəhbərliyi ilə «Orta əsr Azərbaycan kitabı (XI-XVIII əsrlər)» mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, filologiya elmlər namizədi elmi dərəcəsini almışdır.

B.Allahverdiyev həmin institutda kiçik elmi işçi(1967-1968), 1968-ci ildən isə ADU-nun biblioqrafiyaşünaslıq kafedrasınada müəllim, baş müəllim, dosent kimi fəaliyyət göstərmişdir.

1991-ci ildə «Azərbaycan Respublikasında texniki kitabların nəşr tarixi (1920-1985-ci illər): əsas mərhələləri və inkişaf ənənələrinin tədqiqi» mövzusunda müdafiə edərək, doktorluq elmi dərəcəsini almışdır.

B.Allahverdiyev Azərbaycan kitabşünaslığının kitab tarixi, kitabşünaslıq nəzəriyyəsi və təcrübi məsələləri, Azərbaycanda nəşriyyatçılıq işinin təşkili, əlyazma və çap əsərlərinin meydana gəlməsi və inkişafı ilə bağlı bir çox əsərlərin müəllifidir.

Professorun təşəbbüsü ilə kitabxanaçılıq fakültəsinin nəzdində nəşriyyat işi və redaktə etmə şöbəsi (1991), həmin şöbənin kafedrası (1993), 2004-cü ildə isə magistratura pilləsi təşkil edilmişdir. Alim bu kafedraya yarandığı gündən rəhbərlik edir.

**ƏSƏRLƏRİ**:

Ümumi kitab tarixi.B.: Azərbayçan Milli Ensiklopediyası «Nəşriyyat – Poliqrafiya Birlyi, 2003.-384s.

Azərbaycan kitabının xarici ölkələrdə nəşri.(XVI-XIX əsrlər) //Bakı Universiteti Xəbərləri: Hümantiar elmlər ser.-B.: BUN, 2001.-№4.-S.144-149.

Kitaba maraq niyə azalıb? /Prof.B.V.Allahverdiyevlə müsahibə //Palitra.- 2001.-13 fevral.



Ölkədə kitabsızlıq vakumu yaranıb /prof.B.V.Allahverdiyevlə müsahibə // Elm, təhsil və həyat.-2001.-5 oktyabr.

Kitabşünaslıq və kitab tarixi. (Azərbaycan kitab tarixi.) // Ümumi məsələlər. Kitabxanaçılıq – informasiya fakültəsinin qiyabi tələbələri üçün ixtisas fənlərindən metodik göstərişlər. 1-2-ci kurslar üçün.-B.: BUN, 2002.-S.40-46.

Azərbaycan kitabşünaslığına bir nəzər //Azərbaycan kitabşünaslığı (biblioqrafik göstərici).-B.: BUN, 2003.-S.7-21.

Paşa Qəlbinur (Musayev) adlı biblioqrafik göstərici haqqında bir neçə söz //Biblioqrafik göstərici.- 2004.-S.13-14

Kitabxanaçılıq-infarmasiya fakültəsinin dekanı, Azərbaycan Respublikası Kitabxana İşinin İnkişaf Assosiasiyasının prezidenti, tarix elmləri doktoru, professor Xəlil İsmayıl oğlu İsmayılov 1945-ci il iyulun 1-də Gədəbəy rayonunun Düzrəsullu kəndində dünyaya göz açmışdır. 1952-1959-cu illərdə Düzrəsullu kənd orta məktəbində 7-ci sinfi, 1959-1963-cü illərdə isə Çayrəsullu kənd orta məktəbində 11-ci sinfi müvəffəqiyyətlə bitirdmişdir. Bir müddət kolxozda çalışmış, 1963-1964-cü illərdə hərbi xidmətdə olmuşdur. 1967-ci ildə Bakı şəhərində Yeni Bakı Neft Emalı Zavodunda fəhlə kimi fəaliyyətə başlamışdır. O, gündüzlər fəhlə, axşamlar tələbə kimi1972-ci ildə Universiteti kitabxanaçı-biblioqraf ixtisası üzrə bitirir. 2 il OADKYC-nin (Orduya Aviasiyaya Donanmaya Könüllü yardım Cəmiyyəti) mərkəzi komitəsində təlimatçı, baş təlimatçı, təşkilat şöbəsinin müdir əvəzi vəzifələrində işləmiş, 1974-cü ildə isə BDU-nun kitabxanaşünaslıq kafedrasına dəvət edilərək laborant vəzifəsinə təyin edilmişdir. 1976-1979-cu illərdə BDU-nun kitabxanaşünaslıq kafedrasının əyani aspiranturasında təhsil almışdır.

Kitabxanaşünaslıq kafedrasının aspirantı X.İsmayılov uzun müddət tədqiqat apararaq böyük bir dövrün arxiv materiallarını diqqətlə öyrənərək, partiya kitabxanalarının keçdiyi yolu hərtərəfli təhlil etmiş və onların iş təcrübələrini ümumiləşdirərək, 1984-cü ildə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində ixtisaslaşdırılmış müdafiə şurasında «Sovet hakimiyyəti illərində Azərbaycanda partiya kitabxanaları: tarixi, müasir

vəziyyəti və inkişaf perspektivləri mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, pedaqoji elmlər namizədi elmi dərəcəsini amışdır.

Elmi-pedaqoji sahədə mühüm nailiyyətlər qazanaraq 1986-cı ildə Kitabxanaşünaslıq kafedrasının dosenti, 1990-1993-cü illərdə isə kafedra müdiri, 1994-cü ildən bu günə qədər isə (2006) fakültənin dekanı vəzifəsində çalışır.

Alim, kitabxanaşünaslıq elminin aktual problemlərinə və ölkədə kitabxana işinin yaxşılaşdırılmasına dair monoqrafiya, dərs vəsati və elmi məqalələrin, ümumiyyətlə 70-dən çox elmi əsərin müəllifidir.

X.İsmayılov Azərbaycan Respublikası Prezidenti yanında Ali Atestasiya Komissiyasının 18 fevral 2004-cü il tarixli 39 saylı əmri ilə BDU-da yaradılmış Birdəfəlik Dissertasiya Şurasının 15 may 2004-cü ildə «Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi (1918-2000-ci illər, tarixi müasir vəziyyəti və perspektivləri)» mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək tarix elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

1997-ci ildən Azərbaycanda nəşr olunan yeganə ixtisas məcmuəsinin – «Kitabxanaşünaslıq və biblioqrafiya» elmi nəzəri və təcrübi jurnalının təsisçisi və baş redaktoru, şəxsi təşəbbüsü nəticəsində yaradılmış Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasınn prezidentidir.

Alim yalnız respublika daxilində deyil, həmçinin Tbilisidə «Kitabxanada yeni düşüncələr»mövzusunda və b. mövzularda dəfələrlə Moskvada, Bostonda «Azərbaycan kitabxanalarının müasir problemləri» (ABŞ-da etdiyi məruzələr «Amerikan's library» jurnalında ingilis dilində nəşr edilmişdir), Ensip Ali məktəbində (Fransa) «Azərbaycanda kitabxanaçılıq təhsili», Namur Ən Yüksək Katoliq Ali Məktəbində (Belçika) «Yeni kitabxana proqramlarının Azərbaycanda tətbiqi məsələlri», həmin məktəbin kitabxanaçılıq fakültəsində isə «Azərbaycanda kitabxanaçılıq təhsili və tədris planlarının tətbiqi məsələləri» mövzusunda, Harvard Universitetinin Tədris Kitabxanasında



«Azərbaycanda kitabxanaçılıq vəziyyəti haqqında»və s. kimi mövzularda müxtəlif xarici ölkələrdə keçirilmiş elmi konfranslarda məruzələrlə çıxış etmiş və Azərbaycan kitabxana ictimaiyyətini təmsil etmişdir. Məruzələrin tezisləri çap olunmuşdur.

**ƏSƏRLƏRİ:**

Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000-ci illər): Monoqrafiya.-B.: BDU, 2000.-416 s.

Kitabxana-informasiya sahəsində beynəlxalq əlaqələr //Azərbaycan və Litva Konsersiumlarının əməkdaşlığı.-B., 2005.- S.9-19.

Kitabxana menecmentinin əsasları: dərs vəsaiti.- B., 2005.-199s.

Kitabxana işinin təşkili və idarə edilməsi: Metodik göstərişlər // Kitabxanaçılıq – informasiya fakültəsinin qiyabi tələbələri üçün ixtisas fənlərindən metodik göstərişlər (3-4-cü kurslar). -B., 2003.-311s.

Azərbaycanda kitabxanaların metodik təminatı sisteminin formalaşması tarixindən: (1946-1959) II məqalə //Tarix və onun problemləri.-B., 2000.-№2.-S.94-97

Azərbaycan EA kitabxana şəbəkəsinin metodik təminatı (1960-1975-ci illər) //Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal.-B.: BDU, 2000.-№2.-S.9-18

Kitabxanaların metodik təminatının nəzəri əsasları //Bakı Universiteti Xəbərləri.hümanitar elmləri ser.-B., 2001.-№4.-S.150-155

Перспективы методического обеспечения библиотек Азербайджана //Тезисы докладов н научной конференции.-М, 2000.-24-25апрель

Методическое обеспечение деятельности библиотек Азербайджана: проблемы оптимизации // Библиотечное дело-2000: Проблемы формирования открытого информационного общества:

Тезисы докладов пятой международной научной конференции.-М., 2000.-24-25 апреля: Часть 2.-М., 2000

Azərbaycanın kitabxana mütəxəssisləri İFLA-nın konfransın da: Beynəlxalq əməkdaşlıq //Kitabxanaşünaslıq və biblioqrafiya.-B.: BDU, 2001.-№2.-S.133-138

Kitabxanaların metodik təminatının nəzəri əsasları.- Bakı Universiteti Xəbərləri. hümanitar elmləri ser.-B., 2001.-№4.-S.150-155

Sahəvi kitabxana şəbəkələrinin metodik təminatı (1959-1975-ci illər) //Kitabxanaşünaslıq və biblioqrafiya. - B.: BDU, 2001.-№1.-S.5-23

Kitabxana işinin metodik təminatı sisteminin yeniləşdirilməsi və təkmilləşdirilməsi istiqamətləri //Kitabxanaşünaslıq və biblio-qrafiya.-B.: BDU, 2001.-№2.-S.3-17

Kitabxana və nəşriyyat işi əlaqəli inkişaf etməlidir //Xalq qəze-ti.-2002.-27 iyun

Информация обеспечение библиотек Азербайджана (доклад на меж.Конференции).-Ереван., 2002.-27 ийун

Методическое обеспечение библиотек Азербайджана: новые тенденции научно практический журнал. «Библиотекведение».-М., 2002.-№2.-С.85-87

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının Elmi-Tədqtqat fəaliyyəti (1970-1990-cı illər) // Kitabxanaşünaslıq və biblioqrafiya.-B., 2002.-№1.-S.3-9

Azərbaycanda MKS-lərin metodik tarixinin inkişaf tarixindən // Tarix və onun problemləri.-B.: BDU, 2003.-№2.-S.102-106

Kitabxanaların fəaliyyəinin təkmilləşdirilməsinin metodik tə-minatı //Filologiya məsələləri.-B., 2003.-№3.-S.152-159

Kitabxana işçilərinin fasiləsiz təhsil sistemində metodik mər-kəzlərin iştirakı //Dil və ədəbiyyat: nəzəri elmi-metodik jurnal.-B., 2003.-№3.-S.91-94

Kitabxanalarda metodik fəaliyyətin təkmilləşdirilməsi pro-blemləri //Mədəni-maarif.-2003.-№8-9.-S.29-32

Kitabxanaların metodik təminatının müasir istiqamətləri // Mədəniyyət dünyası.-B., 2003.-S.123-129



Kitabxanaların fəaliyyətinin metodik təminatı // Kitabxanaşünaslıq və biblioqrafiya.-B.: BDU, 2003.-№1.-S.3-9

Некоторые проблемы совершенствования методической работы библиотек Азербайджана на современном этапе: //Библиотечное дело-2003: Гуманитарные и технологические аспекты развития: Матриалы восьмой международной научной конференции.-М., 2003.-24-25 апреля

Təhsil və kitabxana işində beynəlxalq əlaqələrin rolu // Kitabxanaşünaslıq və biblioqrafiya.-B.: BDU, 2003.-№1.-S.88-95

Kitabxana menecmenti və onun hüquqi əsasları // Kitabxanaşünaslıq və biblioqrafiya.-B.: BUN, 2004.-S.15-23

Деятельность Ассоциации развития библиотечного дела Азербайджана //Вестник Библиотечной Ассамблеи Евразии.-М., 2004.-№4.-С.8-11

Kitabxana menecmentinin prinsipləri və funksiyaları // Kitabxanaşünaslıq və biblioqrafiya.-B.: BUN, 2004.-№2.- S.12-13

## ƏDƏBİYYAT

*1.Xələfov A., Aslan K.Müdrikliyə aparan yol (X.İsmayılov-60 yaş) //Kitabxanaşünaslıq və biblioqrafiya: elmi nəzəri və təcrübi jurnal.-B.: BUN, 2002.-№2.-S.130-137.*

*2.Sadıqova S., Tahirqızı Ş. Abuzər Xələfov: Biblioqrafik məlumat kitabı –B.: BUN, 2001.-226 s.*

*Валида Алыева*

# ДОКТОРЫ НАУКИ И ПРОФЕССОРЫ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОГО ФАКУЛЬТЕТА (БИБЛИОГРАФИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ)

## *РЕЗЮМЕ*

*Статья посвящена к биографии докторам науки и профессором библиотечно-информационного факультета и научными статьями опубликованна в 2000-2005-х годах.*

**Ramiz HƏMİDOV**
*Baş müəllim*

# KİTAB CİLDİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

Elmin, ədəbiyyatın inkişafı olmadan, əlbəttə ki, ümumilikdə kitab mədəniyyətinin inkişafından danışmaq olmaz. Orta əsrlər Azərbaycan tarixi yüzlərlə alim, mütəfəkkir, şair və sənətçilərin adı ilə zəngindir.

Hələ Ərəb xilafətinə qədər Azərbaycanın yazıçı və alimləri alban əlifbası ilə ana dilində xeyli əsərlər yazmış və tərcümə etmişlər.

Artıq sübut olunmuşdur ki, «Avesta» başqa dildə (pəhləvi dilində) yazılsa da Azərbaycan ərazisində yaranmış ilk əlyazma kitabıdır.

Avestadan xeyli sonra yaranmış dünya şöhrətli abidələrimizdən sayılan «Kitabi – Dədə Qorqud» ilk ana dilli Azərbaycan əlyazma kitabıdır (3, s.19).

Azərbaycan müəllifi tərəfindən yazılmış ilk çap kitabı N.Tusinin «Təhriri-Öqlidis» kitabı hesab olunur.

Orta əsrlər Azərbaycan kitabının əsas müəllifləri – şairlər, lüğətçilər, dilçilər, filosoflar, tarixçilər, riyaziyyatçılar, astronomlar və dövlət xadimləri olmuşlar. Lakin demək lazımdır ki, bu dövrdə elm və poeziya, kitabçılıq (xəttatlıq, nəqqaşlıq, cildçilik və s.) və kitabxanaçılıq ayrı-ayrı yaradıcılıq sahələri olsa da, bir çox mütəfəkkir şəxslər öz yaradıcılığında bu sahələri birləşdirirdilər. Şairlər həm də filosof, xəttat, kitabxana sahibləri idilər, bir çox məşhur xəttatlar isə poeziyanın sirlərinə, elmin müxtəlif sahələrinə dərindən yiyələnmiş adamlar idilər.

Orta əsr müsəlman ölkələrində öyrənilməsi zəruri sayılan on iki fənni (Quran, təfsir, hədis, ədəbiyyat, əruz, coğrafiya, tarix, inşa, xəttatlıq və s.) hamıdan «mükəmməl bilən mənəm, mən» deyən şair, həm də mahir xəttat, bacarıqlı kitab ustası olmuşdur.

Xəttatlığı X əsrin məşhur ərəb alimi, xəttatı və dövlət xadimi İbn Müqlədən (ərəb əlifbasına nöqtələri o əlavə etmişdir) yaxşı bildiyini yazmışdır. Kitaba böyük sevgi ilə yanaşan Nizami Gəncəvi «Alıcı olmasa, tanınmaz gövhər» deyir. Kitabın cildi də məzmunu kimi gözəl olmalıdır ki, «məğmun etməsin gövhər satanı».

Hələlik əldə edilən məlumata görə, İran, Türkiyə, İngiltərə, Fransa, Amerika və s. kitabxana və muzeylərində Nizaminin 900-ə qədər cildlənmiş əlyazma əsəri vardır (3, s.16). Professor R.Əliyevin Londonun «İndia offis» kitabxanasında «Sirlər xəzinəsi»nin 1239-cu ildə Gəncədə üzü köçürülmüş və səliqə ilə cildlənmiş bir əlyazma nüsxəsini aşkar etməsi elmdə sensasiya doğurmuşdur. Professor tapdığı əsərlə yanaşı, onun gəncəli xəttatının da əl qabiliyyətini yüksək qiymətləndirmişdir.

M.Füzuli ilə bir dövrdə yaşamış Azərbaycan yazıçısı, alimi, tərcüməçisi, xəttatı və kitab tərtibçisi Xızır Əbdül Hadi oğlu Bəvazici sağ əli ilə şikəst olsa da, sol əli ilə «Gözəl Azərbaycan» – türk nəsxi ilə bir çox kitab yazmışdır. Həmin iri həcmli kitablardan biri Hüseyn Tiflisinin «Ən mükəmməl yuxuyozma» («Kamil-ət-Təbir) kitabıdır. Bəvazici həmin kitab və daha başqa iyirmi kitab əsasında azərbaycanca-ərəbcə-farsca üçdilli izahlı lüğət yazmağa başlamış və onu 1501-ci ildə bitirmişdir. 1547-ci ildə Bəvazici bu kitabı təkmilləşdirərək yenidən köçürmüş və Türkiyə hökmdarı Sultan Süleymana hədiyyə etmişdir. 660 səhifəlik bu kitabda 1470 sözün izahı verilmişdi. Mətn qara, sərlövhələr qırmızı mürəkkəblə parlaq ipək kağızda yazılmışdır. Kitabın qiymətli daş-qaşlarla bəzədilmiş cildi kim tərəfindən mənimsənildiyindən sonradan ona qara meşin cild çəkilmişdir. Həmin kitab müxtəlif ünvanlardan keçərək dörd əsrdən sonra Azərbaycan EA Əlyazmalar İnstitutunun xəzinəsinə daxil olmuşdur. Hər bir xalqın yazısı, yazı alətləri, yazı materialları, kitab və kitabxana tarixi dünya mədəniyyəti tarixinin bir qolu, tərkib hissəsidir. Bəşər mədəniyyəti xəzinəsini bir sıra tükənməz incilərlə zənginləşdirilmiş Azərbaycan xalqının da yazı və kitab tarixi çox qədim zamanlara gedib çıxır.

Qədim azərbaycanlılar piktoqrafik işarələr (məzmunun



rəsm və ya ardıcıllığı ilə verilməsi) bürüncəyindən çıxıb öz fikirlərini mixi yazı (fonetik əlifbaya qədər istifadə edilən ideoqrafik yazı növü), alban (Azərbaycan) əlifbası, kufi xətti (ərəb əlifbasının bədii xətt növü), ərəb əlifbası, kiril, latın əlifbaları və s. yazı növləri ilə ifadə edənə qədər uzun bir inkişaf yolu keçmişlər.

Orta əsrlərdə Yaxın və Orta Şərq xalqları qamışdan düzəldilmiş qələmdən, Avropa xalqları XIX əsrin birinci yarısınadək lələk qələmdən, Uzaq Şərq ölkələri isə fırçadan istifadə etmişlər (2, s.222).

Bir sıra xalqlar kimi azərbaycanlılar da XIX əsrin sonuna qədər müxtəlif yazı alətlərindən istifadə etmişlər: daş qələm, metal (dəmir, polad), sümük qələm, qrifel (stil), üçkünc taxta qələm, çubuq qələm, lələk, fırça və s.

Azərbaycanlıların istifadə etdikləri yazı materiallarının, professor Ə.Mirəhmədovun dili ilə desək, «müasir çap kitabının ən qədim sələflərinin hələlik bizə məlum olan növləri bunlardır: daş lövhələr, gil lövhələr, tunc lövhələr, qrifel taxtaları (üstünə mum çəkilmiş lövhələr – poliptiklər), ağac qabığı, taxta lövhələr, saxsı, sümük, metal, ipək parça, papirus, perqament (ipək, dana, keçi, balıq, ceyran, bəbir dərisi), kağız Azərbaycanda kitab mətnlərinin və s. yazıların çin sayağı ipək parça üzərində fırça və qara yazılması da indiyə qədər heç kəsin diqqətini cəlb etməmişdir. Çindən Azərbaycana və digər ölkələrə ipək parçalar kəsilmiş və kəsilməmiş şəkildə göndərilirdi. Müəlliflər və xəttatlar onların üstünü yazandan sonra kitab blokları kimi üst-üstə yığıb cildçiliyə verərdilər.

Tarixi mənbələrdən aydın olur ki, birinci minilliyin sonuna qədər məktub və kitab yazmaq, yazılı abidələri cildləmək və s. məqsədlər üçün daha çox perqamentdən istifadə olunmuşdursa, ikinci minilliyin ilk əsrlərində qələm və fırça sahibləri ilə yanaşı cildçilər də papirus, perqament, adi kağızdan başqa, ipək parçadan da çox istifadə etmişlər.

Sultan Məhəmməd Təbrizi, onun oğlu və tələbəsi Məhəmmədi kimi məşhur Azərbaycan kitabçılarının laklı cildlər hazırlamaq, onları bəzəmək işində görkəmli bir usta kimi tanınması da

tarixin həmin qaranlıq səhifələrinə aiddir.

Azərbaycan, Şərq və ümumiyyətlə, dünya kitab mədəniyyətinin inkişafında papirus çox mühüm rol oynamışdır. Bir çox xalqlar, məsələn, almanlar indi də kağıza «papir», fransızlar «papye», ingilislər «peyper», latışlar «peypers» deyirlər. Papka sözü də papirus sözündən əmələ gəlmişdir. Bu gün dünyanın bir sıra kitab xəzinələrində xeyli miqdarda yazılı papirus bürmələri saxlanılmaqdadır. Məsələn, Misir, yunan, latın, qibti, ərəb, aramey, Avropa, fars (pəhləvi), Suriya, gürcü....papirus abidəliri dörd min illik inkişaf yolu keçərək zəmanəmizə qədər gəlib çatmışdır.

Eramızdan 100 il əvvəl yunanlar dəridən (perqamentdən) yazı materialı kimi istifadə etmək sirrini kəşf etmiş və onu dünyaya yaymışlar. İlk Azərbaycan şairi, alimi və filosofu Zərdüştün «Avesta» kitabı 12 min inək dərisi üzərində yazılmışdır.

Tarixçi alim İsmayıl Hüseynovun məlumatına görə digər kağız növləri ilə yanaşı, Çin bambuk kağızı da Azərbaycana qədər geniş yayılaraq, tədriclə papirusu və perqamenti sıxışdırıb istehsalatdan çıxarmışdı. Buna baxmayaraq, kitablar yenə də bəbir dərisi və s. perqament növləri ilə cildlənirdi. Kitablar aləmində bir sıra yeniliklər ərəblərin ceyran dərisini və Çinin ipək kağızını bu gün işlətdiyimiz adi kağıza çevirmələrindən sonra mümkün olmuşdur. Bununla belə, bir sıra məlumatlar göstərir ki, Azərbaycan xəttatlarının papirus və perqamentlə əsasən IX-X əsrlərdə vidalaşmalarına baxmayaraq, cildçilər bu kimi davamlı materiallardan uzun müddət istifadə etmişlər.

Orta əsrlərin canlı mətbəələri xəttatlar (kitab üzü köçürənlər), nəqqaşlar, müsəhhihlər (korrektorlar), səhhaflar (bərpaçılar), rəssamlar və müğəllidlər (cildçilər) idi. XI-XIII əsrlərdə Gəncədə kitabxana ilə yanaşı cildxana və xəttatlıq məktəbi də olmuşdur.

Məşhur Herat kitabxanasının işi haqqında yazılan hesabatda kitabxananın əsas fəaliyyət sahələri ilə yanaşı, 18 nəfər rəssam, xəttat, cildçi, mütərcim haqqında maraqlı məlumat vardır (3,



s.35).

Kitabın cildi – kartondan, dəridən, parçadan, kağızdan, pommerdən və digər materialdan olub, kitabın blokuna yapışdırılır, bərkidilir. Cild kitabın blokunu xarici təzyiqlərdən qoruyur. Bundan başqa cild eyni zamanda kitabın «paltarı» rolunu oynayır və kitabın bədii tərtibatını təşkil edir. Cild kitabın xarakterini açır, kitabın yazıldığı, buraxıldığı dövr haqqında məlumat verir.

Cildin prototipi – diptix adlanırdı. Diptix bir-birinə bərkidilmiş iki sümük, ağac və ya metal plastikdir. Belə plastiklər xaricdən qiymətli daşlarla bəzədilirdi, daxildən isə mumla bərkidilirdi. Qədim Yunanıstanda və Romada diptix geniş yayılmışdı.

XVII əsrin sonuna qədər cildlər əsas etibarı ilə ağacdan hazırlanırdı. Belə ağaclar kitabın bloku ölçüsündə kəsilir, rezinlərin köməyi ilə kitabın blokuna bərkidilirdi. Xarici tərəfdən cild dəri ilə örtülürdü.

Kitabların cildi dekorativ metallarla örtülürdü, qızıl, gümüşlə bəzədilirdi. Metalın altına bahalı parça – barxat, atlas çəkilirdi ki, bu da dərinin möhkəmliyini artırırdı. Belə cildlər əsasən dini kitablara çəkilirdi. Həmin kitablar böyük dini bayramlarda, tədbirlərdə nümayiş etdirilirdi. Belə cilddə hazırlanmış ilk kitab 1392-ci ildə boyar Fyodor Koşkinin sifarişi ilə hazırlanmış və halhazırda Moskvada dövlət kitabxanasında saxlanılan Evangeliya olmuşdur. Belə maraqlı kitablardan biri İ.Fyodorovun 1564-cü ildə hazırladığı «Apostol» kitabıdır (4, s.196).

XIX əsrin ortalarına qədər ümumi xarakterli kitabların cildləri şabalıdı rəngli qalın inək dərisindən, daha sonralar isə nisbətən ucuz növlərdən – qoyun, at, keçi, donuz dərisindən hazırlanırdı.

XX əsrin əvvəllərindən etibarən əsas cild materialları kimi karton, cild parçası və bir neçə növ kağızdan istifadə edilməyə başlanır.

Karton kağız kimi bitki mənşəli lifdən ibarətdir. Cild üçün karton lazımdır. Kartonun qalınlığı kitab blokunun qalınlığına və çəkisinə uyğun gəlməlidir. Blok qalın olduqca cild üçün karton

da qalın götürülür. 1 və 2 №li cild üçün kartondan nə tələb olunur? – o möhkəm olmalıdır, laylarla ayrılmamalıdır (1, s.16).

Ən çox yayılmış karton növləri Kolenkor və Liderindir. Kolenkor – orta qalınlıqlı pambıq parçadır. Tərkibində kraxmal və rəng vardır. Kolenkor nazik suya davamlı plyonka ilə örtülür. Kolenkor yapışqan buraxmayan nisbətən ucuz materialdır.

Liderinin əsasını parça təşkil edir. Bu əsasən suya və yapışqana davamlı materialla örtülür. Liderin möhkəm və nisbətən cəzbedici materialdır. Belə cildlə əsasən kiçik formatlı kitablar buraxılır. Nisbətən bahalı materialdır. XX əsrin yarısından sonra Liderin – pambıq – kağız – parçadan cildlər geniş yayılmağa başlandı.

Son zamanlar plastmas, sintetik plyonkadan cild materialı kimi geniş istifadə edilir.

### ƏDƏBİYYAT


1. *Allahverdiyev V. Kitablar haqqında kitab. B.: Gənclik, 1972. – s. 96.*

2. *Azərbaycan Sovet Ensiklopediyası. Cild 5. B.: ASE, 1983. – 346 s.*

3. *Azərbaycanda nəşriyyat işi. B.: Yeni nəsil, 2000. – 194 s.*

4. *Добкин С.Ф. Основы издателского дела и книгопечатания. М.: Книга, 1983. – с. 196.*



***Рамиз Гамидов***


### ПУТИ СОВЕРШЕНСТВОВАНИЕ ПЕРЕПЛЕТ КНИГ


### *РЕЗЮМЕ*

*Статья посвещен пути развитые этапы переплет Азербайджанских книг, начиная средних веков до нашего времени.*





**Şəhla QULİYEVA**

***Müəllim***


## POLİQRAFİYA İŞİNDƏ İSTİFADƏ OLUNAN BƏZİ CİLD MATERİALLARI

Kitab və kitabçılıq işi meydana gələn zamandan bu günümüzə qədər cild və cild materialı kitabın qoruyucu funksiyasını daşımış, tərtibat işində gözoxşayan kitab cildinin meydana gəlməsində müstəsna rol oynamışdır. Bu məqalədə kompüter texnologiyasının inkişaf etdiyi müasir dövrümüzdə kitab, jurnal və s. nəşrlərin poliqrafik icra keyfiyyətində tətbiq edilən cild materialları və onların xassələri haqqında danışacağıq.

Cild materiallarına cild parçaları, onların əvəzediciləri, tikiş materialları və cild qapaqlarında basmanaxış üçün folqa, həmçinin, cild yapışqanları aiddir.

Cild qapaqları hazırlamaq üçün tətbiq edilən yapışdırma cild materiallarına daxildir: cild kolenkoru, parça lederin, bumvinil və s.

Cild qapaqları konstruksiyasından və tətbiq edilən materiallardan asılı olaraq tiplərə ayrılır və nömrələnir. Onu da qeyd edək ki, nəşrin tərtibat layihəsində I-IV cild tipləri broşüra üz qapaqlarına aid edilir.

Digər ən geniş yayılmış cild nömrələri aşağıdakılardır:

**5 №-li cild.** Karton üzlər və altlıq bir material növündən olan kötüklə birləşdirilir, qıraqları isə başqa material növü ilə örtülür. Burada müxtəlif materialların kombinasiyalarından istifadə etmək olar. Cildin üzü kağızla örtülərsə, ona lak, yaxud sellofan (laminasiya) örtük üsulu tətbiq oluna bilər.

**6 №-li cild.** Bir material növündən hazırlanır: məsələn, tamamilə kartondan hazırlanmış qırağı kəsik cild qapağı.

**7 №-li cild.** Tamamilə örtülü cild qapağıdır. Onun da karton əsası var. Örtük müxtəlif çeşidli materiallardan ola bilər. Məsələn, sintetik tərtibli kağız, parça və s.

**8 №-li cild.** Qıraqları üstdən yapışdırma karton olur və dörd

tərəfdən qatlanan materialla örtülür. Yapışdırma karton kötüyə hər iki tərəfdən qatlanan material çəkilir.

**9 №-li cild.** Karton qıraqları kantlı olur, dörd tərəfdən qatlanmış materialla örtülür. kötük rolunu kant materialı oynayır (1, s. 257-258).

Qeyd edək ki, 8-ci və 9-cu cild qapaqları, adətən, xüsusi bədii nəşrlər və reklam nəşrləri üçün tətbiq olunur.

**Cild kolenkoru** (nişasta - kaolin cild materialı) boyanmış, yaxud boyanmamış pambıq parçadan - mitkaldan ibarətdir. Bu parçanın hər iki tərəfinə - üz və astar tərəflərinə nişastalı maddələrdən, minerallardan və üzvi boyalardan ibarət örtük çəkilir.

Cild kolenkoru aşağıdakı markalarda buraxılır:

*KOK markalı* - adi cild kolenkoru. Cild qapaqları hazırlamaq üçün istifadə olunur.

*KOF markalı* - yüngülləşdirilmiş adi cild kolenkoru.

*KMK markalı* - modern cild kolenkoru. Boyalarla rənglənməmiş pambıq parçadan hazırlanır.

Cild kolenkorunun keyfiyyəti aşağıdakı texniki tələblərə cavab verməlidir: Su ilə birtərəfli isladılma zamanı cild kolenkorunun burulması müəyyən olunmuş normaya azı 15 saniyə ərzində çatmalıdır. Qatlanan zaman kolenkorun səthində çat olmamalıdır, uzun müddət Günəş şüaları altında qalandan sonra rəngində cüzi dəyişiklik olmalıdır və s.

Öz xarici görünüşünə, xüsusilə səthinin donuqluğuna, rəng çalarlarının və fakturaların müxtəlifliyinə görə cild kollektoru poliqrafiya tələblərini tamamilə təmin edir. Lakin onun aşağıdakı nöqsanları da vardır:

a) pərdəsi suya davamlı deyildir və buna görə də material özünün gözoxşayan görünüşünü itirə bilir;

b) kolenkor tez çirk götürür;

c) nisbətən tez köhnəlir və pərdəsi qismən qopub tökülür;

ç) cild qapaqları hazırlanan zaman yapışqan kolenkorun bu üzündən o biri üzünə keçə bilir;

d) nişasta pərdəsi fakturanı və parçanın qüsurlarını örtmür, bu isə cild kolenkorunun xarici görünüşünə təsir göstərir;

e) cild kolenkoru istehsal etmək üçün yeyinti xammalı: nişasta və kazein sərf olunur;

ə) cild kolenkoru əlverişsiz şəraitdə saxlandıqda kif ata bilir (1, s.260).

**Ştapel cild parçası.** Ştapel parçalar süni, məsələn, viskoz liflərdən hazırlanır. Açıq toxuma fakturalı ştapel cild yapışdırma materialı viskoz və asetat ipliyindən parçadır.

Açıq toxuma fakturalı ştapel cild parçası adətən müxtəlif bədii, siyasi və elmi-texniki ədəbiyyat nəşrlərinin cildlərinin hazırlanması zamanı istifadə olunur və onun tətbiqi bəzi nəşrlərin bədii tərtibatını yaxşılaşdırmağa imkan verir.

**Parça lederin.** Parça lederin (*almanca* "leder" - dəri sözündən) üz tərəfinə nitrosellüloz dekorativ-mühafizə örtüyü çəkilmiş pambıq-parça əsasdan ibarətdir. Parça lederin üç markada istehsal olunur:

*A markalı* - yuxarıda göstərilən tərkibli nitroörtüklü lederin;

*B markalı* - əvvəlkinə analoji, lakin səthi poliamidlə naxışlanan lederin;

*V markalı* - üz tərəfi nişasta-kaolin ilə qruntlanmış, sonra bir dəfə, lederin üçün adi tərkibli nitroörtüyü olan lederin - nitroörtüklü kolenkor tipli lederin.

Parça lederin xarici görünüşünə və suyadavamlılığına görə təbii dərini (gönü) xatırladır. O, yapışqan çəkilən zaman xarici görünüşünü və basmanaxış relyefini dəyişmir.

Onun səciyyəvi xüsusiyyəti yüksək dərəcədə elastikliyidir, buna görə də cild qapaqlarını hazırlayan zaman yapışqanlıq dərəcəsi yüksək olan cild yapışqanından, məsələn, sümük yapışqanından istifadə edilməlidir.

**Kağız lederin** - cildə çəkilən materialdır öz xarici görünüşünə görə parça lederindən heç seçilmir, lakin mexaniki möhkəmliyi (xüsusən, qatlayanda, cıranda) ondan çox geridir.

Kağız lederin pambıq parça lederinə qənaət etmək və cildə çəkilən materialın qiymətini ucuzlaşdırmaq məqsədilə istehsal olunur. Kağız lederinin mexaniki möhkəmliyi yüksək olmadığına

görə çox məhdud miqyasda işlədilir. Ondan əsasən, kötüyü parça lederindən, yaxud cild kolenkorundan olan quruma cild qapaqları hazırlanan zaman və yazı malları istehsalında istifadə edilir.

**Bumvinil.** Bumvinil (*rusca* "bumaqa" - kağız və "vinil qatranı" sözlərindən) yapışdırma cild materialı (Hollandiyada istehsal edilən "balakron" tipli) - 1 $m^2$-nin kütləsi 80 q olan ağardılmamış sulfatlı sellülozdan kağız-əsasın səthinə əridilmiş polivinilxlorid sopolimer plastiki (vinilxloridin və vinilasetatın dioktilftalat 85:15 sopoliteri) çəkməklə alınır.

Bumvinil müxtəlif rənglərdə, basmanaxışla, şəkil çəkilməklə və laklanmaqla buraxılır. Bumvinilin səciyyəvi xüsusiyyəti onun mexaniki cəhətdən kifayət qədər möhkəmliyindədir, onun xarici görünüşü çox yaxşı təsir bağışlayır, fakturası təbii gönə oxşarlıq yaradır. Bumvinildə çap etmək və basmanaxış vurmaq ançaq xüsusi təyinatlı boyalarla və folqalarla mümkündür. Belə ki, adi cild boyaları gec quruyur, adi folqa isə pis yapışır. Cild folqasının keyfiyyəti o qədər də yaxşı olmadığından onunla istibasmanaxış çətindir.

**Qeyri-toxunma cild materialları.** Qeyri-toxunma lifli materiallar bir neçə üsulla hazırlanır. Qeyri-toxunma materiallar istehsalı olduqca məhsuldar və iqtisadi cəhətdən faydalıdır. Qeyri-toxunma materiallar bircinslidir, nə uzununa, nə də eninə istiqamətlənmir (kağızdan fərqli olaraq), mexaniki möhkəmlik dərəcəsi yüksəkdir (çırılma qüvvəsi 10-15 kq-dır). Hazırlanma prosesi rahatdır, broşürləmə-cildləmə işlərində çətinlik törətmir, kağıza və kartona müxtəlif yapışqanlarla asan və möhkəm yapışır, isladıldıqda demək olar ki, deformasiyaya uğramır və burulmur, lakin bir qədər uzana bilir.

**Sap, tənzif və kaptal.**

***Sintetik saplar*** - kapron (perlon, silon) və anid (naylon və didiron) - poliamid polimerlərdən hazırlanır.

18 - K markalı sintetik kapron saplar kitab və broşüraları tikmək üçün ən yaxşı materialdır. Bu saplar pambıq saplardan



çox nazik və iki dəfə davamlıdır; kapron sapla tikilmiş blokların qalınlığı az, deşik yerləri kiçik olur, tikən zaman saplar demək olar ki, qırılmır.

***Termosaplar*** qızdırılarkən əriməyən viskoz ipək və qızdırılan zaman əriyən və sap-ərişi kağıza yapışdıran polipropilen liflərin ikikomponentli kombinasiyasıdır. Termosapların ərimə temperaturu 260-320 °C-dir. Termosaplar kötük falslarda dəftərləri bənd etmək üçün tətbiq olunur.

***Poliqrafiya tənzifi*** kətan kimi boş toxunmuş, çox appreturalanmış pambıq parçadır. Təyinatından asılı olaraq tənzif iki marka ilə buraxılır: BO - blokdüzəldən aqreqatda kitab bloklarının kötüklərinə yapışdırmaq üçün; NŞ - saplatikmə maşınlarında kitab blokları tikmək üçün.

***Kaptal*** bortik adlanan qıraqları 1,5-2 mm qalınlıqda olan 13-15 mm enində lentdir. Kaptal müxtəlif rəngli ipək, yarıipək və pambıq saplardan toxunur.

Kaptalı qalın (10 çap vərəqindən artıq) kitabların davamlılığını artırmaq və görünüşünü daha da yaxşılaşdırmaq üçün kötüyə hər iki tərəfdən yapışdırırlar. Bundan başqa, kaptalın bortiki kitabı cildin kötüyü ilə blok arasına toz keçməsindən qoruyur. Lent-kaptal olduqca çox appreturalanmalı (apretlənməli) hamar, lifsiz olmalıdır (1, s. 266-267).

## ƏDƏBİYYAT

*1. Beryozin B.İ. Poliqrafiya materialşünaslığı.-B.: Maarif, 1987.- 296 s.*

*2. Nəşriyyat işi. –B.: "Yeni Nəsil" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2001. –218 s.*

*Шахла Кулиева*

## НЕКОТОРЫЕ ПЕРЕПЛЕТНЫЕ МАТЕРИАЛЫ ИСПОЛЬЗУЕМЫЕ В ПОЛИГРАФИЧЕСКИХ ДЕЛАХ

### *РЕЗЮМЕ*

*В статье говорится о некоторых переплетных материалах используемых в полиграфических делах.*

**İnci QASIMOVA**
*Magistrant*

# AZƏRBAYCANDA KITAB NƏŞRI VƏ TIRAJ PROBLEMI

Kitabın tirajı naşirləri və kitab müəlliflərini daim düşündürən və narahat edən problemlərdən biridir. Kitabın tirajı nə qədər olmalıdır ki, tələblə təklif arasındakı tarazlıq pozulmasın? Bəs bu sahədə Azərbaycanda vəziyyit necə olub, indi necədir?

II Dünya Müharibəsindən sonrakı dövrdə kitab nəşri dirçəlməyə başladı və bu dirçəlmə kitabların sayının həm ad, həm də tiraj etibarı ilə artmasına səbəb oldu. Keçən əsrin ikinci yarısının 60-cı illərindən başlayaraq bu özünü daha qabarıq biruzə verməyə başladı. Respublikada kitab çapını nizamlamaq üçün Azərbaycan SSR Nazirlər Soveti yanında Çap Komitəsi yaradıldı. Bu komitə respublakada kitab çapının vıziyyətinə nəzarət etməli idi.

Heç təsadüfi deyildi ki, 1970-ci ildə Azərbaycanda 11 mln. 600min nüsxə tirajla 300 adda kitab buraxılmışdır. Bu, 1950-ci ildə olduğundan 600 min nüsxə çox idi (6, s.*9*). 1975-ci ildə isə ölkədə cəmi 1180 adda 11mln. 290 min 100 nüsxə tirajla kitab buraxılmışdır. Bunlardan 829 adda 9 mln. 275 min nüsxəsi Azərbaycanca, 333 adda 1 mln. 719 min 500 nüsxəsi rusca, 18 adda 295 min 500 nüsxəsi isə başqa xarici dillərdə olmuşdur (3, s.*158-159*).

80-ci ildə bu göstərici bir qədər də artaraq ad etibarı ilə 1226, tiraj etibarı ilə isə 11 mln. 778 min 500 nüsxə olmuşdur (4, s.*182-183*).

90-ci ildə kitabların sayı ad etibarı ilə azalıb 829 olsa da tiraj artaraq 12 mln. 528 min 500 nüsxə olmuşdur (5, s.*175*).

Ümumiyyətlə 70-ci illərdə Sovet kitab nəşri işində 4 növ tiraj siyasətindən istifadə edilirdi. Bunlar:

1. İdeoloji –kommunist ideologiyasının yayılması.

2. Yerli resurslardan istifadə - yerli resurs imkanlarından istifadə edərək aparılan tiraj siyasəti.

3. Kitab məhsullarından istifadənin nizama salınması minimallaşdırılması ilə aparılan tiraj siyasəti.

4. Sosial demoqrafik - əhalinin müxtəlif qruplarının tələbatlarının diferensiasiyası nəzərə alınmaqla aparılan tiraj siyasəti (9, s.*7*).

80-ci illərdən başlayaraq isə beşinci yanaşmadan da istifadə edilirdi. Bu, optimal çap üsulu idi ki, burada nə bazar qanunları, nə də kitab çapının inkişafı və oxucuların kitaba olan tələbatı ödənilmirdi (9, s.*7*).

1981-ci ildə Sov. İKP-nin XXVI qurultayında bədii ədəbiyyatan çapının həcminin artırılmasının vacibliyinə xüsusi fikir verildi (8, s.*182*).

Bu dövrdə kitabların qiymətinin aşağı salınması siyasəti də ona olan hörmətin azalmasına səbəb olmadı. Əhali arasında şəxsi kitabxanaların yaradılması sahəsində aparılan təbliğat işi nəticəsində tələblə təklif arasında, xüsusən də bədii, sorğu və tibbi ədəbiyyata olan tələbat 80-ci illərin ikinci yarısıda azalmadı ki, artdı.

Sovet Ittifaqının dağılmasından sonra isə bu iş geriləməyə başladı. Bazar iqtisadiyyatına keçid, qiymətlərin liberallaşdırılması mədəniyyətin əsas sahələrinə, o cümlədən kitab nəşrinə və ticarətinə mənfi təsir göstərməyə başladı. Kağızın, mətbəə xərclərinin çoxalması, poliqrafiya avadanlıqlarının və digər çap texnologiyası vasitələrinin catışmaması və qiymətlərin çox baha başa gəlməsi kitab nəşri işini olduqca çətinləşdirir (2, s.*11*). Əhalinin maddi rifah halının pisləşməsi və çap məhsullarının qiymətlərinin dünya bazarının qiymətləri səviyyəsinə çatmaq cəhdləri onunla nəticələndi ki, kitabın alış səviyyəsi, başqa sözlə, əhalinin alıcılıq qabiliyyəti xeyli aşağı düşdü və sözsüz ki, bu da tirajın azalmasına, kitabların qiymətlərinin bir az da qalxmasına səbəb oldu.



Indi Azərbaycanda 150-ə qədər nəşriyyat fəaliyyət göstərir. Onlardan 140-a qədəri özəl nəşriyyatdır. Bu nəşriyyatlardan cəmi 55-ə qədəri indi ölkədə nəşr edilən kitab məhsulunun 70-80%-ni verir (1, s.*2*). Qalanları isə ildə bir-iki kitab buraxırlar, ya da heç kitab çap etmirlər. Çap olunan kitabların tirajları ilə 80-ci illərdə çap olunan kitabların tirajları arasında fərq isə çox böyukdür. Belə ki, 80-ci illərdə elmi-kütləvi və bədii ədəbiyyatın tirajı 50-100 min nüsxə arası olurdusa (bu rəqəm ən kiçik hallarda 5 min təşkil edirdi), indi çap olunan kitabın tirajı 2 min nüsxəni nadir hallarda keçir (Təbii ki, buraya dərsliklər aid deyil. Çünki, dərsliklərin tirajı 40 min nüsxəyə də çata bilir).

Bu gün ölkədə nə qədər kitabın çap olunması, onların tirajının nə qədər olması haqqında məlumat almaq heç mümkün olmayacaq qədər çətindir. Çünki ölkədəki çap məhsulunun həcminə nəzarət edəcək vahid bir orqan yoxdur. Əvvəl bu işi Dövlət Kitab Palatası icra edirdi.

Kitab Palatasının ləğvi və onun funksiyasının M.F.Axundov adına Milli Kitabxanaya verilməsi, onun əvəzində Milli Kitabxananın tərkibində "Milli mətbuatın uçotu, qeydiyyatı və təbliği" şöbəsinin yaradılması da bu problemi kökündən həll edə bilmir (7, s.258). Ancaq 2005-ci ildə bu şöbə 1990-cı ildə cap olunmuş ədəbiyyatı özündə əks etdirən " Birillik Azərbaycan kitabiyyatı" seriyasından olan növbəti göstəricini çap edə bilib. Bu görülən işə baxmayaraq, artıq on ildən çoxdur ki, ölkədəki çap məhsulunun həcmi barədə heç yerdə heç bir məlumat yoxdur, nə vaxt olacağını isə demək çox çətindir.

## ƏDƏBIYYAT

### Azərbaycan dilində

*1. Allahverdiyev B. Azərbaycanda kitab ticarəti: durumu, problemləri, mülahizələr və təkliflər // Yeni nəşrlər.- 2004. -№3. –S.* 2.

*2. Allahverdiyev B., Məmmədzadə R. Müasir mərhələdə kitab ticarətinin təşkili. –B.- Gənclik, 1996. –S. 11*

3. Birillik Azərbaycan kitabiyyatı: 1975. –B., 1976. –S. 158-159.

4. Birillik Azərbaycan kitabiyyatı: 1980. –B., 1981. -S. 182-183.

5. Birillik Azərbaycan kitabiyyatı: 1990. –B., 1990. -S. 175.

6. Əfəndizadə Ş. Kitab xalqlar arasında ünsiyyət vasitəsidir. –B., 1972.- S. 9.

7. Umudlu İ. Kitab nəşri bu gün. – B.: Əbilov, Zeynalov və oğulları, 2004. – S. 258

*Rus dilində*

8. Материалы XXVI Съезда: М.,1981. – С. 182

9. Симагина Т.Н. Издателская политика в последний период истории СССР (70-80 гг.): Автореферат дис. канд. истор. наук.-М., 1994.- С. 7

***Инджи Гасымова***
***Магистрант***

## ИЗДАНИЕ КНИГИ И ТИРАЖНАЯ ПРОБЛЕМА В АЗЕРБАЙДЖАНЕ

### *РЕЗЮМЕ*

*В статье рассмотрена тиражная проблема книгоиздания в Азербайджане во второй половине XX века. В статье особое внимание уделено тиражной политике проводимой в Советский период.*

**Fuad İSGƏNDƏROV**
*Magistrant*

# ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ AYRI-AYRI SİNİFLƏR ÜÇÜN İŞ DƏFTƏRİ

Son dövrlərdə Azərbaycan Respublikasının Avropaya inteqrasiya etməsi ilə əlaqədar olaraq yeniliklərlə müşayiət olunan müxtəlif dəyişikliklər meydana çıxmaqdadır. Bütün bunlara müxtəlif sahələrdə, o cümlədən təhsil, maarif, səhiyyə və bir çox digər sahələrdə rast gəlinir.

Avropaya inteqrasiya ilə əlaqədar respublikamızın həm orta ümumtəhsil, həm də ali məktəblərində müxtəlif islahatlar, yeniliklər nəzərə çarpmaqdadır.

Bu yeniliklərdən biri də Azərbaycan tarixi fənni üzrə ayrı-ayrı siniflər üçün iş dəftərinin nəşr olunmasıdır.

İş dəftərlərinin nəşri bir çox Avropa ölkələrində, o cümlədən Rusiya, Böyük Britaniya, Fransa, Polşa, Bolqarıstan və Macarıstanda həyata keçirilir.

Respublikamızda belə bir yeniliyin tətbiqi tarixinə gəldikdə isə, hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, hələ Sovetlər dönəmində orta ümumtəhsil məktəblərində istər ümumi tarix, istərsə də Azərbaycan tarixi fənləri üzrə iş dəftəri çap olunmamışdır.

Tədris-pedaqoji ədəbiyyatın nəşri üzrə ixtisaslaşmış «Maarif» və «Təhsil» nəşriyyatlarında iş dəftərinin çap olunması son bir neçə ilə təsadüf edir. Belə ki, 2003-cü ildə «Maarif» nəşriyyatında, 2004-cü ildə isə «Təhsil» nəşriyyatında bu növ iş dəftərləri çap olunmuşdur. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar: «Ata yurdu (5-ci siniflər üçün iş dəftəri)», «Azərbaycan tarixi (6-cı siniflər üçün iş dəftəri)», «Azərbaycan tarixi (7-ci siniflər

üçün iş dəftəri)», «Azərbaycan tarixi (9-cu siniflər üçün iş dəftəri)», «Qədim dünya tarixindən iş dəftəri (6-cı siniflər üçün iş dəftəri)», «Orta əsrlər tarixi (8-ci siniflər üçün)» və s.

İş dəftəri mövzuların şagirdlər tərəfindən ətraflı mənimsənilməsi üçün əlavə köməkçi materialdır. İş dəftəri aşağıdakı məqsədlərlə çap olunur:

1) Mövzuların yaxşı mənimsənilməsi;
2) Bilik və vərdişlərin artırılması;
3) Şagirdlərin aktivliyinin artırılması;
4) Mövzuların yaxşı yadda saxlanılması:
5) Yaradıcılıq vərdişlərinin artırılması.

İş dəftərləri Təhsil Nazirliyinin təsdiq etdiyi proqram və dərslik əsasında hazırlanmalıdır. Bu köməkçi materialın həcmi dərslikdəki materialın həcminə və saatların miqdarına uyğunlaşdırılmalıdır. Bunların nəşri məcburi xarakter daşımır. Belə ki, iş dəftərlərinin nəşr olunması müəlliflərin müstəqil təşəbbüsü sayəsində həyata keçirilir.

Hər bir şagird üçün iş dəftərləri fərdi şəkildə olmalıdır.

İş dəftərlərinin tirajına gəlincə isə, onu qeyd etmək lazımdır ki, şagirdlərin sayı mütləq nəzərə alınmalıdır.

Mövzuların yaxşı mənimsənilməsi üçün iş dəftərində kontur xəritələrdən, krosvordlardan, xronoloji hesablamalardan, tapşırıqlardan, cədvəldən, sxemlərdən və s. istifadə olunur. Bütün bu sadalananların hər biri ayrı-ayrılıqda iş dəftərlərində tapşırıq şəklində öz əksini tapır. Bu tapşırıqlar isə dərsliklərin müvafiq bölmə, fəsil və paraqraflarına uyğun hazırlanır. Məsələn, 9-cu sinfin şagirdləri üçün nəzərdə tutulmuş Azərbaycan tarixi fənni üzrə iş dəftərində I bölmə «Azərbaycan XVII əsrin ikinci yarısı-Səfəvilər dövlətinin süqutu dövründə» adlanır. Bu bölməyə nəzər saldıqda müəyyən olunur ki, burada verilən tapşırıqlarda (testlərdə, sxemlərdə, cədvəllərdə, xronoloji hesablamalarda, seçmələrdə və s.) bütün məsələlər məhz adıçəkilən bölmə ilə uyğundur (2, s.256). Şagird bu tapşırıqları yerinə yetirməklə mövzunu daha dərindən mənimsəmiş olur.



İndi isə konkret nümunələr əsasında iş dəftərinin səciyyəvi cəhətlərini aydınlaşdıraq. «Təhsil» nəşriyyatı tərəfindən 2004-cü ildə orta ümumtəhsil məktəblərinin müvafiq sinifləri üzrə Azərbaycan tarixi və ümumi tarix fənləri üçün müxtəlif adda iş dəftərləri çap olunmuşdur: «Ata yurdu», «Azərbaycan tarixi (müxtəlif siniflər üçün)», «Orta əsrlər tarixi» və s.

Bu iş dəftərlərindən biri də 9-cu sinif şagirdləri üçün nəzərdə tutulmuş «Azərbaycan tarixi» adlı iş dəftəridir. Dəftər 9-cu siniflər üçün nəşr olunmuş «Azərbaycan tarixi» dərsliyinə uyğun olaraq hazırlanmışdır. Yuxarıda qeyd edildiyi kimi, bu iş dəftərində də tapşırıqlar müvafiq dərsliyin bölmə, fəsil və paraqrafları ilə uyğundur. Digər iş dəftərlərində olduğu kimi bu iş dəftərində də tapşırıqlar cədvəllər, sxemlər, xronoloji hesablamalar, kontur xəritələr və s. üzrə verilmişdir. Bu tapşırıqlardan bəzilərinə diqqət yetirək. Məsələn, 11-ci tapşırıqda belə bir şərt qoyulub: «Dərsliyin mətni və əlavə mənbələr əsasında Cavad xanı səciyyələndirən layihə tərtib edin» (1, s.55). Sonra isə müvafiq bəndlərdə aşağıdakı göstərilən şərtlər irəli sürülüb:

a) İgid və bacarıqlı sərkərdədir;
b) Mahir diplomatdır;
c) Ağıllı və müdrik dövlət xadimidir;
ç) Qayğıkeş və nüfuzlu ailə başçısıdır (1, s.55).

Tapşırığın şərtinə uyğun olaraq şagird dərslikdəki müvafiq mövzunu və əlavə mənbələri mütaliə etdikdən sonra tapşırığı işləyir, yəni verilən digər şərtlər daxilində Cavad xanı səciyyələndirən layihə tərtib edir. Bununla da şagird həmin mövzuları daha dərindən mənimsəmiş olur. Bu isə iş dəftərləri hazırlanarkən qarşıya qoyulan məqsədlərdən biridir.

16 nömrəli tapşırıqda aşağıdakı şərtlər irəli sürülür: «Dərsliyin mətni və əlavə mənbələr əsasında Qubalı Fətəli xanı səciyyələndirən layihə tərtib edin:

a) Müdrik və ədalətli hökmdardır;
b) Böyük islahatçıdır;
c) Ağıllı və uzaqgörən diplomatdır;
ç) Alovlu vətənpərvərdir» (1, s.94).

Bu şərtlər daxilində tapşırığı yerinə yetirən şagird Qubalı Fətəli xanı səciyyələndirən xüsusiyyətləri daha dərindən mənimsəmiş olur.

Digər bir tapşırığın qoyuluşu daha əlverişlidir. Belə ki, burada ayrı-ayrı xanlıqlar dövründə zərb olunmuş pulların şəkli verilir və belə bir şərt irəli sürülür: «Verilmiş pulların altında müvafiq xanlığın adını yazın» (1, s.91).

Yuxarıda qeyd edildi ki, bu tapşırığın qoyuluşu daha əlverişlidir. Çünki burada şagird həm pulların əyani təsvirini görür, həm də pulların adını müvafiq xanalara yazmaqla onları daha yaxşı mənimsəmiş olur.

İş dəftərində krosvordların geniş yer alması diqqəti cəlb edir. Krosvordla əlaqəli olan tapşırıqlardan birində aşağıda göstərilən şərt daxilində müxtəlif suallar verilir:

«Sözləri xanalara düzgün yazsanız, fərqləndirilmiş şaquli sütunda Səfəvilər dövlətini düşdüyü ağır vəziyyətdən xilas etmiş sərkərdənin adını oxuya bilərsiniz.

1.Rusiya ilə Səfəvilər dövlətinin sərhəddini müəyyənləşdirmiş sülh müqaviləsi?

2.Rusiya ilə Osmanlı imperiyası arasında 1724-cü ildə bağlanmış sülh müqaviləsi?

3. Şirvan üsyanının rəhbərlərindən biri?

4. Peterburq sülh müqaviləsini imzalamış Səfəvi diplomatı?

5.Nadir Şahın mənsub olduğu tayfa?» (1, s.55)

Bu suallara cavab tapan şagird krosvordda müvafiq xanaları doldurur, fərqləndirilmiş şaquli sütunda Səfəvilər dövlətini düşdüyü ağır vəziyyətdən xilas etmiş sərkərdənin adını oxumağa müvəffəq olur. Bununla şagird 6 tarixi faktı daha yaxşı yadda saxlayır.

Tapşırıqların bəzilərində istilah və anlayışların mənasını izah etmək tələb olunur. Buna misal olaraq aşağıdakı tapşırığı nəzərdən keçirək:

Tapşırıq 11. İstilah və anlayışların mənasını izah edin.(1, s. 5-6).

1. Rəiyyət ________________________



2. Elat ________________________
3. Dəzgəhbaşı ________________________
4. Cüftbaşı ________________________
5. Dəhyek ________________________

Göründüyü kimi, şagird istilah və anlayışların mənasını yazmaqla onların mənasını izah edir, daha yaxşı qavrayır və yadda saxlayır.

Qeyd etmək lazımdır ki, iş dəftərlərində cədvəllərə xüsusi yer verilir. Bu tapşırıqlar müxtəlifdir. Məsələn, 11 saylı tapşırığa diqqət yetirək:

Tapşırıq 11. «Türksoylu tayfalar» cədvəlini doldurun (1, s.40).

| **Qazax tayfası** | **Əfşar tayfası** | **Kəngərli tayfası** | **Otuzikilər tayfası** |
|---|---|---|---|
| | | | |

İş dəftərlərində test tapşırıqlarına da geniş yer verilmişdir. Bu test tapşırıqlarında suallar müxtəlif formada qoyulur. Bunlara misal olaraq aşağıdakı tapşırıqları göstərmək olar:

22. Lənkəran hakimi Seyid Abbasın mənsub olduğu tayfa:
A) Əfşar
B) Zəng
C) Qacar
D) Səfəvi
E) Xançobanı (1, s.52)

14.Elbəyilərə aid olanlar: (1, s.49)
1.Elatların başçıları idilər.
2.Ali və aşağı dərəcələrə bölünürdülər.

3.Feodal zümrəsinə daxil idilər.
4.Oturaq əhali üzərində də inzibati hakimiyyətə malik idilər.
5.Geniş torpaq sahələri var idi.
6.Xan qarşısında hərbi mükəlləfiyyət daşıyırdılar.
A)1,2,4 B)4,5,6 C)3,4,5 D)1,3,6 E)2,3,4

İş dəftərindəki 4 saylı tapşırıq diqqəti cəlb edir. Belə ki, bu tapşırıqda «Tarixi şəxsiyyətlərin müasirlərini qeyd edin» şərti irəli sürülür. Həmin tarixi şəxsiyyətlər isə Saib Təbrizi və Nadir Şahdır. Hər iki tarixi şəxsiyyətin şəkilləri verilmişdir. Tapşırıq iki varianta bölünmüşdür. Aşağıya diqqət yetirək:

«Tapşırıq 4. Tarixi şəxsiyyətlərin müasirlərini qeyd edin.

***I variant***

1. Qövsi Təbrizi
2. Nadir Şah
3. Məhəmməd Tahir Vahid
4. Şah Sultan Hüseyn
5. Hacı Çələbi xan

***II variant***

1. II Şah Abbas
2. IIŞah Təhmasib
3. Anna İvanovna
4. Qövsi Təbrizi
5. Hacı Çələbi xan» (1, s.31)

Şagird düzgün cavabı tapdıqda boş xanaları qaralamalıdır.

Xəritələrlə bağlı tapşırıqlar mövzunun yaxşı qavranılmasında şagirdlərə böyük köməklik göstərir. Bu növ tapşırıqlardan birinin şərtinə diyyət yetirək:

«Tapşırıq 2. Sizə Azərbaycanın üç cənub xanlığının xəritəsi təqdim edilmişdir. Həmin xanlıqların adlarını altdakı xanada yazın»(1, s.36).

Bu tapşırığı yerinə yetirən şagird adını qeyd etdiyi xanlıqların ərazisinin əyani təsviri ilə yaxından tanış olur və həmin ərazinin xəritədə yerləşdiyi yeri daha müəkəmməl yadda saxlayır.



Şagirdlərin yaddaşını möhkəmləndirmək məqsədilə bu növ tapşırığa da üstünlük verilir:

Tapşırıq 25. Qafqaz türklərinin sonrakı taleyində faciəli rol oynamış sülh müqavilələrinin adlarını yazın (1,78)

1. ____________ 2. ____________
3. ____________ 4. ____________

Altı saylı tapşırıqda belə bir şərt irəli sürülüb: «Müxtəlif mənbələrdən istifadə etməklə orta əsrlər Azərbaycan memarlıq abidələri haqqında məlumat hazırlayın.

1. Şəki xan sarayı
2. İrəvan Sərdar sarayı
3. Şuşada Gövhərağa məscidi» (1, s.82)

Müxtəlif mənbələrə müraciət edən şagird adları qeyd olunan memarlıq inciləri haqqında geniş məlumata malik olur, onlar haqqında müxtəlif qeydlər aparmaqla həmin bilgiləri yadda saxlayır.

Bütün bu sadalananlardan belə bir nəticəyə gəlmək olur ki, orta ümumtəhsil məktəblərində Azərbaycan tarixi və ümumi tarix fənni üzrə iş dəftərlərinin istifadə olunması şagirdələrə mövzuların yaxşı qavranılmasında, bilik və vərdişlərinin artırılmasında, yaradıcılıq vərdişlərinin mükəmməlləşdirilməsində köməklik göstərir. Bir sözlə, istər tarix fənni, istərsə də digər fənlər üzrə orta ümumtəhsil məktəblərində iş dəftərlərinin tətbiqi müsbət haldır.

## ƏDƏBİYYAT

*1. Qocayev Ə., Rzayev R. Azərbaycan tarixi (9-cu sinif şagirdləri üçün iş dəftəi). –B.:Təhsil, 2004.-96 s.*

*2. Məmmədov S., Vəliyev T., Qocayev Ə. Azərbaycan tarixi (9-cu sinif üçün dərslik). B.: Təhsil, 2002.-256 s.*

***Fuad İskenderov***

# РАБОЧАЯ ТЕТРАДЬ ПО ПРЕДМЕТУ ИСТОРИЯ АЗЕРБАЙДЖАНА ДЛЯ СРЕДНИХ ШКОЛ РАЗНЫХ КЛАССОВ

*РЕЗЮМЕ*

***Статья на вышеуказанную тему посвящена изучению издания рабочей тетради по предмету История Азербайджана для средних школ. Издания рабочих тетрадей во Франции, Великобритании, Польше и во многих других европейских странах показало свою положительную сторону. Поэтому автор в своей статье показывает, на сколько эта тема может повлиять на усвоение этого материала учащихся средних школ Азербайджана.***

**Zülfiyyə ƏSGƏROVA**
*Magistrant*

# MİLLİ KİTABXANANIN NƏŞRİYYAT-POLİQRAFİYA FƏALİYYƏTİNИH MADDİ-TEXNİKİ BAZASI VƏ TEXNOLOJİ PROSESLƏRİNDƏ MÖVCUD OLAN PROBLEMLƏR

Nəşriyyat-poliqrafiya sahəsində kompüter texnologiyasının geniş istifadəsi kitab nəşrində «istehsalat» anlayışına ciddi dəyişikliklər gətirmişdir (2, s.149). Bu dəyişikliklər əvvəllər mətbəədə icra olunan bir sıra funksiyaların indi nəşriyyatın səlahiyyətinə keçməsi ilə bağlıdır. Yəni müasir dövrümüzdə texnologiya o qədər inkişaf etmişdir ki, çap prosesini asan, sürətli və keyfiyyətli həyata keçirmək üçün gözəl şərait yaradıla bilər. Təbii ki, burada avadanlığın yeniliyi, müasir standartlara cavab verməsi, onun yığcamlığı və çoxfunksiyalılığı, sürəti, keyfiyyəti və s. nəzərdə tutulur.

İndiki dövrdə nəşriyyat və poliqrafiya müəssisələrində bu cür imkanların və inkişafın olmasına baxmayaraq, Milli Kitabxanada belə bir şəraitin olmasını demək çətindir. Bu o deməkdir ki, Milli Kitabxananın maddi-texniki bazası olduqca zəifdir və burada – hələ də köhnə avadanlıqlardan istifadə olunur ki, bu da, çap texnologiyasının geriləməsinə səbəb olan ən əsas amillərdəndir. Milli Kitabxanada nəşriyyat sahəsində hələ də kompüter texnologiyası təmin edilməmişdir və bu mənada kitabxana nəşriyyat-poliqrafiya sahəsində çox geriləyir.

Bunun üçün əvvəlcə Milli Kitabxananın maddi-texniki bazası və çap texnologiyasının hazırkı durumunu açıqlamaq, sonra isə bu sahədə hansı problemlərin mövcud olmasını qeyd etməyi qərara gəldik.

Məlumdur ki, çap prosesi kağızların formatına görə müxtəlif maşınlarda aparılır. Milli Kitabxananın mətbəəsində ki-

çik formatlı kağızlar üçün tigel maşınında çap prosesi yerinə yetirilir, böyük formatlı kağızlar üçün isə PS-1M markalı böyük çap maşınında çap prosesi icra olunur. Buradan görünür ki, hər bir maşının öz spesifikası, özəlliyi vardır. Ümumiyyətlə, çap texnologiyasında maşınlar nəşrin spesifikasına, kağızın növünə, nəşrin formatına və s. görə müxtəlif olur. Məsələn, ofset çap üsulu üçün xüsusi ofset maşınlarından istifadə olunur.

Kitabxananın mətbəəsində bu maşınlardan başqa, N-14 markalı linotipdən (sətirtökən maşın) istifadə olunur. Bu maşın yığım, tökmə və çeşidləmə aparatlarından ibarətdir.

Müasir dövrdə, əvvəldə qeyd etdiyimiz maşınlardan az-az istfadə olunur. Belə ki, bu tip maşınlar müasir standartlara uyğun olmadığından, köhnəlmiş hesab edildiyindən dövrümüzdə onlardan istifadə etmək yararsızdır. Milli Kitabxananın mətbəəsində isə göründüyü kimi, vəziyyət tamamilə başqa cürdür. Müasir çap texnologiyasında sıradan çıxmış, istifadə olunmayan, əlavə vaxt aparan metal şriftin lazımsız hissəsinin kəsilməsi üçün istifadə olunan kiçik avadanlıq – şponkəsən və kağıztikən avadanlıqlardan kitabxananın mətbəəsində hələ də istifadə olunur. Son sadalanan avadanlıqların işlədilməsi köhnə üsuldur ki, bu üsuldan hazırda dünya poliqrafiya praktikasında ümumiyyətlə istifadə olunmur. Milli Kitabxananın mətbəəsində çap texnologiyasının həyata keçirilməsində bu avadanlıqlardan hələ də istifadə olunması Milli Kitabxananın maddi-texniki bazasının hansı vəziyyətdə olmasını açıq-aşkar göstərir.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının poliqrafiya sahəsində əvvəldə qeyd olunan avadanlıqlardan ən üstünü, lakin digər müasir mətbəə avadanlıqları ilə müqayisədə nisbətən köhnə ofset çap maşınından da istifadə olunur. Milli Kitabxananın çap məhsullarının əksəriyyəti, hazırda bu maşından istifadə olun-maqla buraxılır. «Adast Ramayor 313» markalı Çexiya istehsalı olan bu maşın Milli Kitabxananın mətbəəsində digər avadanlıqlardan sürətinə, keyfiyyətinə, rahat işləməsinə və s. görə nisbətən yararlıdır. Lakin bu ofset çap maşını «Azərbaycan» nəşriyyatının mətbəəsində istifadə olunan «Heilderberg» və



«Kolbus» seriyasının müxtəlif markaları ilə müqayisədə keyfiyyətinə görə çox geridir və çoxfunksiyalı deyildir. Lakin həmin maşınlar da (Heilderberg, Kolbus) müasir maddi-texniki bazası olan mətbəələrin – yeni, çoxfunksiyalı, sürətli, kefiyyətli və rahat işlədilən çap avadanlıqları ilə müqayisədə köhnə hesab olunurlar.

Hər bir qabaqcıl mətbəədə avadanlıqlar müasir standartlara uyğun olmalıdır, müəyyən vaxtdan sonra yeniləşdirilməlidir. Məsələn, Milli Kitabxana kimi, oxucuların çox olduğu yerdə tez-tez nəşrlər buraxılmalıdır və bu nəşrlər oxucunun zövqünü oxşamalı və keyfiyyəti ilə seçilməlidir. Lakin bu gün Milli Kitabxananın buraxdığı nəşrlər – yubiley nəşrlərinin, görkəmli şəxslərin əsərlərinin biblioqrafik göstəricilərinin, bukletlərin, jurnalların bir çoxu sadaladığımız keyfiyyətləri özündə cəmləşdirmir.

Milli Kitabxananın buraxdığı kitab və kitabçaların çoxu 20-30%-i tabaşirli kağızlardan ibarətdir, yəni kağızların ağlığı, parlaqlığı, suyadavamlığı aşağı səviyyədədir. Nadir hallarda qeyd etdiyimiz keyfiyyətlərlə kitab, kitabça və bukletlər buraxılır və bunlar da adətən yubiley nəşrlərinə, əlamətdar günlərlə əlaqədar nəşrlərə şamil olunurlar.

Kağız – çap texnologiyasında ən vacib materiallardan biri olmaqla yanaşı, həmçinin müxləfiliyi ilə də diqqəti cəlb edir, yəni mətbəə kağızlarının özlərinin də spesifik xüsusiyyətləri, fərqli keyfiyyətləri vardır. Bunlardan yan keçmək olmaz, çünki bu amillər, birbaşa nəşrin keyfiyyəti, daha doğrusu, onun poliqrafik keyfiyyəti ilə bağlıdır. Milli Kitabxananın bir çox nəşrlərinin isə poliqrafik tərtibatı qənaətbəxş hesab oluna bilməz.

Bütün mətbəə kağızları müxtəlif tərkib və quruluşa malik olurlar və bir qayda olaraq tərkib və quruluşuna görə nömrələnirlər. Ümumiyyətlə, çap kağızlarının ən vacib keyfiyyətləri bunlar hesab olunur: möhkəmlik, ağlıq, şəffafsızlıq, yumşaqlıq, boya hopduruculuğu, suyadavamlılıq, hamarlıq.

Kağızın möhkəmliyi əsasən onun tərkibindən asılıdır – bu da onun tərkibində sellülozun çoxluğundan asılıdır. Lifli kütlələrin tərkibindən asılı olaraq, kitab-jurnal kağızı ilə üç nömrədən ibarət olan reproduksiya kağızları ayırd edirlər.

Milli Kitabxananın mətbəəsində buraxılan çap məhsullarının əksəriyyəti 2 və 3 №-li kağızdan hazırlanmışdır. Burada 1 №-li kağızdan hazırlanmış çap məhsullarına çox az-az təsadüf olunur.

Milli Kitabxananın mətbəəsində hazırlanan kitab və kitabçaların çoxu tutqun və mat kağızlarından ibarətdir və indinin özündə də nahamar, tutqun, maksimum 50% ağardılmış, şəffaf kağızlardan istifadə olunur. Bu tip kağızlar şriftin kölgəli görünməsinə gətirib çıxarır ki, bu da mətnin aydın oxunmasını çətinləşdirir və gözləri yorur. Əgər kağızın ağlığı zəifdirsə, qara rəngli şrift solğun – bozumtul rəngdə görünəcək və ya kağızın tutqunluğu ilə həmahəng olub çətin oxunacaq. Bunlara yol vermək, nəinki poliqrafik cəhətdən, həm də insan sağlamlığına zərərli olan keyfiyyətsiz nəşrləri ortaya çıxarmaq deməkdir. Hər bir poliqrafist, naşir bunları nəzərə almalıdır, unutmaq lazım deyil ki, çap məhsullarının oriyentasiyası oxuculardır – insanlardır. Bunu qeyd etməkdə əsas məqsəd odur ki, çap məhsulunun təkcə poliqrafik cəhətdən deyil, eləcə də oxucuların hər mənada rəğbətini qazanmaq məqsədi ilə keyfiyyətli olmasını təmin etmək lazımdır.

Milli Kitabxana tərəfindən buraxılan bəzi nəşrlərin poliqrafik keyfiyyətinə nəzər yetirmək yerinə düşər və onları misal gətirmək sadalanmış nöqsanları təsdiqləmiş olar:

«M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanasının nəşrləri» adlı nəşr tutqun, nahamar kağızdan hazırlanmışdır. Bundan əlavə, kitabxananın «Elmi əsərləri» kitabxana-biblioqarfiya sahəsində fundamental nəşrlərdən biri sayılmasına baxmayaraq, onların da poliqrafik icrası yüksək deyildir.

Ümumiyyətlə, Milli Kitabxananın nəşrlərinin əksəriyyəti bu texnologiya ilə hazırlanır. Bu nöqsanların yaranmasına səbəb odur ki, çap texnologiyası ötəri icra olunur, məsuliyyətlə həyata keçirilmir. Yəni burada sifariş edilən nəşri çap məhsulu şəklində ortaya çıxarmaq əsas məqsəddir, lakin onu hansı səviyyədə çıxarmaq lazımdır – bu, sual altındadır. Bir sözlə, çap məhsulunun sanballı olub-olmaması məqsəddən kənarda qalır.



Məhz əvvəldə sadalanan amilləri nəzərə alaraq, onu deməyə yol verir ki, Milli Kitabxananın bir çox nəşrləri çap texnologiyası baxımından keyfiyyətsiz və səliqəsizdir.

Mətbəədə çap texnologiyasının düzgün inkişafı, çap məhsulunun yüksək keyfiyyəti, eləcə də bədii-texniki tərtibatının zövqlə və keyfiyyətlə işlənməsi, həmin mətbəənin işinin uğurlu nəticəsi hesab etmək olar. Yəni nəşri ortaya elə çıxarmaq lazımdır ki, onların nəinki zövqlə işlənməsi, texniki tərtibatı gözəl olsun, həm də nəşrin özü davamiyyətli olsun (4, s.22-31). Nəşrin davamiyyətli olması da birbaşa poliqrafik keyfiyyətdən asılıdır. Bu məsələlər kiçik görünə bilər, lakin bunlar, çap texnologiyasının, poliqrafik icranın əsas standartlarıdır. Əgər ortaya çap məhsulu çıxarmaq lazımdırsa, deməli, standart tələblərə də əməl etmək lazımdır.

Nəşrin davamiyyətli olması isə təkcə kağızın keyfiyyəti ilə bağlı deyil, eləcə də dəftərçələrin (mətbəədə vərəqlər falsovka olunur, qatlanır, buna da çap texnologiyasında dəftərçə deyilir) birləşdirilərək blok halına salınması və sonra, onun kötüyə möhkəm birləşdirilməsi nəşrin davamiyyətli olmasına təsir edir. Bundan başqa, nəşrin cildlənməsi də onun davamiyyətli olması üçün vacib şərtdir. Milli Kitabxananın nəşrlərinin əksəriyyəti isə cilddən (qalın kartondan) deyil, üzlükdən (nisbətən qalın kağızdan) ibarətdir.

Lakin digər bir nəşri misal gətirmək və məhz belə çap məhsullarını nisbətən uğurlu nəşrlər saymaq olar: «Mərkəzləşdirilmiş kitabxana sistemlərində işin təşkili» (təlimat və uçot formaları) adı altında düzəldilmiş və təkmilləşdirilmiş, (II nəşr, 1988) 2 №-li mətbəə kağızından hazırlanmış bu kitab cildlidir. Bununla belə, son illərdə Milli Kitabxananın buraxdığı nəşrlərin əksəriyyəti nazik üzlüklüdür. Təbii ki, bunlar da çap texnologiyasının, maddi-texniki bazanın keyfiyyəti və ehtiyatlarının az və ya çox olmasına dəlalət edir.

Poliqrafiyada digər nöqsanlar da vardır ki, Milli Kitabxananın bir çox nəşrlərində bu nöqsanlara yol verilmişdir. Məsələn, son illərdə buraxılmış «Kitabxana fondlarının məzmunca

köhnəlmiş ədəbiyyatdan təmizlənməsi və mühafizəsi» (2002, 32 səh.) adlı nəşrdə bir sıra qüsurlar vardır. Kağızın şəffaf olması, sözlərarası məsafələrin düzgün qoyulmaması və bunun nəticəsində mətnarası koridorun əmələ gəlməsi və s. nəşrin əsas qüsurlarındandır. Belə misalları çox çəkmək olar. Çünki Milli Kitabxananın buraxdığı nəşrlərin əksəriyyətində analoji qüsurlara çox rast gəlinir.

Onu da qeyd edək ki, Milli Kitabxananın mətbəəsinin maddi-texniki bazasının, ümumi çap texnologiyası durumunun zəif olması, eləcə də çap etdiyi məhsulların poliqrafik tərtibatının aşağı səviyyədə olması və bu kimi problemlərin mövcudluğuna baxmayaraq, Milli Kitabxananın müəyyən boşluğu nisbətən doldurduğuna görə hər bir nəşri onun nəşriyyatçılıq və poilqrafiya sahəsində uğuru hesab etmək olar.

## ƏDƏBİYYAT


***Azərbaycan dilində***

1. *Məmmədov S. Beynəlxalq kitab ili və kitabxanaların vəzifələri//«Kitabxana işçisinə kömək» metodik vəsait. –1972.- №-2.-s. 3-9.*

2. *Nəşriyyat işi.- B.: «Yeni Nəsil» JB Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2001.-218 s.*

***Rus dilində***

3. *Оборудование репреодукционных процессов. М.: Фирма «Дайниппон скрин», 1983.- 135 с.*

4. *Техника, технология, материалы//«Полиграфия» ежемесячный производственно-технический журнал.-1985.- 11 ноябрь.-с. 22-31.*

5. *Технологические инструкции по процессам офсетной печати. М.: «Книга», 1970.- 838 с.*




***Зульфия Аскерова***

## СУЩЕСТВУЮЩИЕ ПРОБЛЕМЫ В МАТЕРИАЛЬНО-ТЕХНИЧЕСКОЙ БАЗЕ И ТЕХНОЛОГИЧЕСКИЕ ПРОЦЕССЫ В ДЕЯТЕЛЬНОСТИ ИЗДАТЕЛЬСКОГО ДЕЛА И ПОЛИГРАФИИ НАЦИОНАЛЬНОЙ БИБЛИОТЕКИ


### *РЕЗЮМЕ*

*Известно, что в деятельности Национальной Библиотеки издательское дело и полиграфия занимает большое место. Однако, начиная с 1990 годá наблюдалось ослабление в этой области. Это было связано в основном – устарелости материально-технической базы полиграфии и ухудшение технологических процессов.*

*В статье тронуты эти вопросы, освещены аспекты основных проблем в области издательского дела и полиграфии Национальной Библиотеки, указаны пути выхода из положения, даны соответствующие рекомендации.*

## BİZİM MÜƏLLİFLƏR

***Abuzər Alı oğlu Xələfov*** *- Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor*

***Xəlil İsmayıl oğlu İsmayılov*** *- Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, tarix elmləri doktoru, professor*

***Zöhrab Hüseyn oğlu Əliyev*** *- BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, Əməkdar mədəniyyət işçisi, professor*

***Əli Musa oğlu Rüstəmov*** *- BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi*

***Mehmanəli Əkbər oğlu Məmmədov*** *- BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi, dekan müavini*

***Knyaz İlyas oğlu Aslan*** *- BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi*

***Solmaz Azay qızı Sadıqova*** *- BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi, dekan müavini*

***Qəmzə Söhbət qızı Hacıyeva*** *- BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi*

***Sima Paşa qızı İsmayılova*** *- BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi*

***Nuriyə Zakir qızı Mustafayeva*** *- «Kompüter mərkəzi»nin proqramçı-mühəndisi*

***Ramiz Hacıbala oğlu Həmidov*** *- BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının baş müəllimi*

***Şəhla Tahir qızı Quliyeva*** *- BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müəllimi*

***Vəfa Məlikheydər qızı Məmmədova*** *– BDU-nun Kitabxana fondu və kataloqların təşkili kafedrasının magistrantı*

***Nigar Hüseynağa qızı Məmmədova*** *- BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının magistrantı*

***Validə Vahid qızı Alıyeva*** *- BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının magistrantı*



***İnci Əlövsət qızı Qasımova*** *- BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının magistrantı*

***Fuad Əkbər oğlu İsgəndərov*** *- BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının magistrantı*

***Zülfiyyə Zöhrab qızı Əsgərova*** *- BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının magistrantı*

## BU NÖMRƏDƏ


*KİTABXANAŞÜNASLIQ*

***Abuzər Xələfov, Mehmanəli Məmmədov.*** *Azərbaycan gəncliyi dövlət proqramının həyata keçirilməsində respublika gənclər kitabxanasının rolu* ........ 3

***Xəlil İsmayılov.*** *Kitabxana statistikasının bəzi məsələləri* ........ 14

***Əli Rüstəmov, Nuriyə Mustafayeva.*** *Elektron kitabxana problemi (3-cü məqalə) Elektron kitabxanaların komplektləşdirilməsinin bəzi məsələləri* ........ 24

***Xəlil İsmayılov.*** *Kitabxana işçilərinin fasiləsiz təhsilə cəlb edilməsinin bəzi məsələləri* ........ 37

***Knyaz Aslan.*** *Oxucuların estetik tərbiyəsində kitab və mütaliənin rolu* ........ 46

***Vəfa Məmmədova.*** *Universal onluq təsnifat (UOT) və kitabxana-biblioqrafiya təsnifatlarının (KBT) köməkçi cədvəllərinin qısa müqayisəli təhlili* ........ 55

*BİBLİOQRAFİYAŞÜNASLIQ*

***Zöhrab Əliyev.*** *Azərbaycan cəmiyyətinin informasiya tələbatçıları və onların biblioqrafik informasiya təminatının əsas amilləri* ........ 64

***Solmaz Sadıqova.*** *Gənclərin milli ruhda tərbiyə olunmasında «Heydər Əliyev: biblioqrafik məlumat kitabı»nın əhəmiyyəti* ........ 76

***Qəmzə Hacıyeva.*** *Nazim Axundovun biblioqrafik fəaliyyəti* ........ 85

***Sima İsmayılova.*** *Ədəbiyyatşünaslıq biblioqrafiyasının meydana gəlməsində sənəd-informasiya axını və kütləsi əsas amildir* ........ 94

***Nigar Məmmədova.*** *Sahibkarlıq fəaliyyətinin biblioqrafik informasiya təminatı: problemlər, vəzifələr* ........ 101

***Validə Alıyeva.*** *Kitabxanaçılıq-informasiya fakültəsinin elmlər doktorları və professorları: (biblioqrafik tədqiqat)* ........ 106

*KİTABŞÜNASLIQ*

***Ramiz Həmidov.*** *Kitab cildinin inkişaf mərhələləri* ........ 117





***Şəhla Quliyeva.*** *Poliqrafiya işində istifadə olunan bəzi cild materialları* ........ 123

***İnci Qasımova.*** *Azərbaycanda kitab nəşri və tiraj problemi* ........ 129

***Fuad İsgəndərov.*** *Orta ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənni üzrə ayrı-ayrı siniflər üçün iş dəftəri* ........ 133

***Zülfiyyə Əsgərova.*** *Milli kitabxananın nəşriyyat-poliqrafiya fəaliyyətinin maddi-texniki bazası və texnoloji proseslərində mövcud olan problemlər* ........ 141

**Mətbəənin müdiri:** **Əlməs QASIMOV**
**Bilgisayar yığıcısı və tərtibçisi:** **Nuriyyə MUSTAFAYEVA**
**Korrektoru:** **Solmaz SADIQOVA**

***Jurnal Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır.***
***Şəhadətnamə № 575. 27 mart 1997.***

***Yığılmağa verilmişdir: 20.04.2006***
***Çapa imzalanmışdır: 25.05.2006***
***Kağız formatı 60x84 1/16***
***Fiziki ç.v. 9,5***
***Sayı 200***
***Qiyməti müqavilə ilə.***

*Ünvan: Az-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23.*
*Bakı Universiteti Nəşriyyatı.*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi.*